**Cəfər Cəfərov**
**Cəlal Allahverdiyev**

# TƏHSİL TARİXİMİZDƏN: İRƏVAN PEDAQOJİ MƏKTƏBİ

**Bakı-2017**

**Redaktorlar:** **Buludxan Xəlilov,**
Filologiya üzrə elmləri doktoru, professor.
**Nazim Mustafa,**
Tarix üzrə fəlsəfə doktoru, Dövlət Mükafatı Laureatı
**Rəyçilər:** **Əjdər Ağayev,**
Pedaqoji elmlər doktoru, professor
**Məhərrəm Hüseynov,**
Filologiya üzrə elmlər doktoru,professor
**Mahirə Hüseynova,**
Filologiya üzrə elmlər doktoru, dosent
**Əziz Ələkbərli,**
Filologiya üzrə fəlsəfə doktoru, dosent

Cəfər Cəfərov: Cəlal Allahverdiyev
TƏHSİL TARİXİMİZDƏN:İRƏVAN PEDAQOJİ MƏKTƏBİ
«ORXAN NPM BAKI-2017, Səh 464

*Filologiya üzrə fəlsəfə doktoru, dosent Cəfər Əsəd oğlu Cəfərovun və Cəlal Vaqif oğlu Allahverdiyev "Təhsil tariximizdən: İrəvan Pedaqoji Məktəbi" adlı kitabında 1924-1949-cu illərdə "Ermənistan"da fəaliyyət göstərmiş, Azərbaycanlı  məktəbləri üçün pedaqoji kadrların hazırlanması işində böyük rol oynamış pedaqoji məktəbin yaranmasından, fəaliyyətindən, erməni şovinizmi əhatəsində üzləşdiyi problemlərdən, eləcə də görkəmli məzunlarından bəhs olunur.*

*Kitab təhsil tariximizlə maraqlananlar, pedaqoqlar və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.*

İSBN

©C. Cəfərov,C. Allahverdiyev 2017

# ÖN SÖZ

Azərbaycan təhsilinin tarixi tədqiq olunmağa ehtiyacı olan bir sahədir. Bu sahənin hərtərəfli araşdırılması təhsilimizin keçdiyi yolu üzə çıxarmaqla yanaşı, həm də təhsilimizin dünəni ilə bu günü arasında körpü yaratmaqda mühüm rol oynayır. Azərbaycan təhsilinin tarixində Qori Müəllimlər Seminariyası mühüm rol oynadığı kimi, İrəvan Pedaqoji Məktəbi də əvəzsiz işlər görmüşdür. Qori Müəllimlər Seminariyasının fəaliyyəti barədə indiyə qədər araşdırmalar aparılmış və bu qeyri-adi təhsil ocağının gördüyü işlər nəinki təkcə təhsil ictimaiyyətinə, həm də geniş oxucu kütləsinə çatdırılmışdır. Ancaq İrəvan Pedaqoji Məktəbinin tarixi, fəaliyyəti, Azərbaycan təhsilinin inkişafında oynadığı rol araşdırılmamış və tədqiq olunmamışdır. Yeri gəlmişkən onu da qeyd edək ki, həm Qori Müəllimlər Seminariyası, həm də İrəvan Pedaqoji Məktəbi öz dövrünün təhsil sahəsində flaqmanı olmuşdur. Onların hər ikisi elə bir dövrdə fəaliyyət göstərmişdir ki, həmin dövrdə pedaqoji kadrların hazırlanmasına böyük ehtiyac vardı. Bu ehtiyacı ödəmək üçün Qori Müəllimlər Seminariyası və İrəvan Pedaqoji Məktəbi öz çiyinləri üzərinə məsuliyyətli, həm də gərəkli olan bir işi götürmüşdür. Hər iki təhsil ocağının yetirmələri Azərbaycan təhsilinin inkişafında əllərindən gələni əsirgəməmişlər. Hər iki təhsil ocağının qeyri-adi faəliyyəti Azərbaycan təhsilinin tarixinə qızıl hərflərlə yazılmalıdır.

Bu gün dünya günü-gündən inkişaf edir, dəyişir. Elmi-texniki tərəqqinin nailiyyətləri məişətimizə gəlir. Elm, texnika elə sürətlə inkişaf edir ki, onun gətirdiyi yeniliklərlə ayaqlaşmaq olmur. Nəzərə alsaq ki, elm də, texnika da insana xidmət etməlidir, onda insan amilinin bütün zamanlarda oynadığı rolu diqqət mərkəzində saxlamalıyıq. Bu mənada hələ Qori Müəllimlər Seminariyasının və İrəvan Pedaqoji Məktəbinin fəaliyyət göstərdiyi dövrdə elmin, texnikanın inkişaf səviyyəsinin hal-hazırkı dövrlə müqayisədə çox geridə qalmasına baxmayaraq, insan amili, ona qayğı, diqqət fövqalədə bir münasibətlə öz əksini tapmışdır. Belə ki, hər iki təhsil müəssisəsində hazırlanan pedaqoji kadrlar öz bilik, bacarıq və dünyagörüşləri ilə insanın nəyə qadir olduğunu nümunəvi şəkildə təqdim edə bilmişlər. Bu təhsil müəssisəsinin pedaqoji kadrları və onların hazırladıqları kadrlar təpədən dırnağa qədər təhsilə, elmə bağlı adamlar olmuşdur. Onların hər birinin həyatı, fəaliyyəti gələcək nəsillər üçün həmişə örnək olacaqdır. Elm, texnika nə qədər inkişaf etsə də, elmi-texniki tərəqqinin nailiyyətləri dünyada nə qədər möcüzə yaratsa da, bu təhsil ocaqlarının öz dövrləri ilə müqayisədə heç bir analogiyası yoxdur. Daha doğrusu, onlarla analoji müqayisəyə cəlb oluna biləcək təhsil müəssisələri tapmaq o qədər də asan deyildir. Bunun əsas səbəblərindən biri, məhz bu təhsil müəssisələrində çalışan pedaqoqların elmə, təhsilə vurğunluğu, bağlılığı olmuşdur. Ona görə də hər iki təhsil müəssisəsi barədə çox yazılmalıdır.

Hər iki təhsil müəssisəsinin təcrübəsi geniş və əhatəli şəkildə tədqiq edilməlidir. Hər iki təhsil müəssisəsinin yaratdığı ənənələrdən hər zaman geniş şəkildə istifadə olunmalıdır. Bu mənada filologiya üzrə fəlsəfə doktoru, dosent Cəlal Allahverdiyevin və filologiya üzrə elmlər doktoru, professor Cəfər Cəfərovun "Təhsil tariximizdən: İrəvan Pedaqoji Məktəbi" adlı kitabı təhsilimizin tarixini öyrənmək baxımından böyük əhəmiyyət kəsb edir. 1924-1949-cu illərdə Ermənistanda fəaliyyət göstərmiş İrəvan Pedaqoji Məktəbi pedaqoji kadrların hazırlanması işində əvəzsiz xidmətlər göstərmişdir. İrəvan Pedaqoji Məktəbinin fəaliyyət göstərdiyi dövrdə pedaqoji kadrlara olan ehtiyacı heç nə ilə müqayisə etmək olmazdı. O dövrdə Ermənistanda olan Azərbaycan məktəblərinin müəllim kadrları ilə təmin edilməsinə erməni sovinistləri hər cür yolla maneçilik göstərirdilər. Ona görə də erməni şovinistlərinin iyrənc məqsədlərinin qarşısını almaq üçün pedaqoji kadrların hazırlanmasına olan ehtiyacı hiss etməmək mümkün deyildir.

Təsadüfi deyil ki, pedaqoji kadrlara olan ehtiyacı ödəmək üçün XX əsrin 20-ci illərindən başlayaraq İrəvanda hazırlıq kursları təşkil olunmuşdur. 1923-cü ilin sonlarında təşkil olunmuş bu hazırlıq kurslarında 1926-cı ilin sonlarına qədər 143 müəllim hazırlanmışdı. İrəvanda hazırlıq kurslarının təşkilində Bala Əfəndiyevin, Mehdi Kazımovun, Mustafa Hüseynovun və digərlərinin xidmətləri böyük olmuşdur. Məhz İrəvan ədəbi-mədəni, ictimai-siyasi mühitində aparıcı rol oynayan şəxslərin

ciddi tələbi, səyi və iradəsi sayəsində 1924-cü ilin oktyabr ayının 15-də İrəvan Türk Pedaqoji Texnikumu açılmışdır. Bu texnikum müəllim kadrlarına olan ehtiyacı ödəmək üçün xeyli işlər görmüşdür. Texnikumun direktoru Mehdi Kazımov, ictimaiyyət müəllimi Bala Əfəndiyev, ana dili müəllimi Əsgər Əsgərzadə, təbiət müəllimi Cəmil Əliyev olmuşdur. Onu da qeyd edək ki, İrəvan Türk Pedaqoji Texnikumu acınacaqlı bir şəraitdə fəaliyyətə başlamışdır. Kitablara, dərsliklərə, dərs vəsaitlərinə, tədris proqramlarına, laboratoriyalara, fənn kabinələrinə, yataqxanaya, yeməkxanaya və kitabxanaya olan ehtiyac işin bir tərəfi, digər tərəfi isə ondan ibarət olmuşdur ki, erməni şovinistləri texnikumun fəaliyyət göstərməsinə lazımi səviyyədə şərait yaratmamışlar.

Cəlal Allahverdiyevin və Cəfər Cəfərovun bu kitabında İrəvan Türk Pedaqoji Texnikumunda fəaliyyətə başlayan Yusif Məmmədəliyev, Ələşrəf Bayramov, Əsgər Əsgərzadə, Bülbül Kazımova, Miryusif Mirbabayev, Məhəmməd Əzimzadə, İsmayıl Babayev və digər ziyalılardan bəhs olunur. Pedaqoji Texnikumda "Mədəniyyət ocağı", "Mədəni hücum", "İrəli" adlı divar qəzetlərinin çap olunmasından, texnikumun ilk məzunlarından (Əmir Abasquliyev, Adil Axundov, Nəriman Əliyev, Rübabə Bağırbəyova, Nəsir Əliyev, Nəzər Paşayev və s.) söhbət açılır. Kitabda Texnikuma 1933-cü ildə Bəhlul Yusifovun direktor təyin olunmasından, 30-cu illərdə təhsilin keyfiyyətini yüksəltmək istiqamətində görülmüş işlərdən, 1935-ci ildə

Mustafa Mustafayevin direktor təyin olunmasından, 1936-cı ildə yenidən Bəhlul Yusifovun direktor təyin olunmasından, 1936-cı ildə Pedaqoji Texnikumun Pedaqoji Məktəb adlanmasından və s. məsələlərdən ətraflı bəhs olunur. İrəvan Pedaqoji Məktəbinin 1948-ci ildə Azərbaycanın Xanlar rayonuna köçürülməsi və 1972-ci ilə qədər orada fəaliyyət göstərməsi bir daha təsdiq edir ki, bu təhsil müəssisəsi Azərbaycan təhsilinin tarixində silinməz bir iz qoymuşdur.

Qeyd etmək yerinə düşər ki, 1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası imkan verir ki, tarixin qaranlıq səhifələrini yenidən tədqiq edək. Ulu öndər Heydər Əliyevin 18 dekabr 1997-ci ildə "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında" imzaladığı fərman tarixi yaddaşımızın bərpasına xidmət işində əvəzsiz rol oynadı. Bu mənada fərmanın tələblərindən irəli gələn qiymətli tədqiqat işləri aparıldı. Bizcə, Cəlal Allahverdiyevin və Cəfər Cəfərovun bu kitabı da həmin silsilədən olan tədqiqat əsərlərindən biridir. Həm də çoxlarının diqqətindən yayınmış, araşdırılmasına ehtiyacı olan sahələrdən ən vacibidir. Belə ki, "Böyük Ermənistan" dövləti yaratmaq xülyasında olan ermənilər SSRİ xarici işlər naziri V.Molotova müraciət edərək İranda yaşayan ermənilərin SSRİ-yə köçürülməsinə icazə istəmişlər. V.Molotov bu məsələ ilə bağlı İ.Stalinlə danışmış və İrandakı ermənı-

lərin Ermənistan SSRİ-yə köçürülməsinə razılıq almışdır. 1946-cı il oktyabr ayının 19-da SSRİ Ali Soveti Rəyasət Heyəti fərman vermişdir. Fərmanda qeyd olunmuşdur ki, xaricdə yaşayan ermənilər Ermənistan SSRİ-nin ərazisinə köçürülsün. Bunu həyata keçirmək üçün azərbaycanlıları öz dədə-baba torpaqlarından çıxartmalı və Azərbaycanın Kur-Araz ovalığında yerləşdirməyi qarşıya məqsəd qoymuşdular. Odur ki, 1947-ci il dekabrın 23-də SSRİ Nazirlər Soveti "Ermənistan SSRİ-dən kolxozçuların və başqa azərbaycanlı əhalisinin Azərbaycan SSRİ-nin Kür-Araz ovalığına köçürülməsi haqqında" 4083 saylı qərar verdi. SSRİ Nazirlər Sovetinin 1948-ci il 10 mart tarixli "Ermənistan SSRİ-dən kolxozçuların və digər azərbaycanlı əhalinin Azərbaycan SSRİ-nin Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar tədbirlər haqqında" qərarı deportasiya işini həyata keçirməyi mütəşəkkil surətdə yerinə yetirdi. O zaman Ermənistan SSRİ-də yaşayan 400 min nəfər azərbaycanlının 7747 nəfəri Azərbaycan SSRİ-yə köçürüldü. 1948-ci ilin payızına qədər 10.584 nəfər azərbaycanlı öz dədə-baba yurdundan deportasiya olundu. Onların evlərində, yaşadıqları məskənlərdə xaricdən gələn ermənilər yerləşdirildi. Onu da qeyd edək ki, deportasiya Ermənistan SSRİ-nin 22 rayonunu əhatə etdi. Həmin rayonlarda (məsələn, Basarkeçər, Zəngibasar, Dilican, Kirovakan və s.) yaşayan yerli aborigen azərbaycanlılar Azərbaycanın Saatlı, Göyçay, Mirbəşir (indiki Tərtər), İmişli, Əli Bayramlı (indiki Şirvan), Zərdab, Salyan, Kürdəmir, Xaldan, Sabirabad,

Jdanov (indiki Beyləqan), Yevlax, Ucar, Gədəbəy, Bərdə rayonlarına deportasiya olundu. 1949-cu ildə adları qeyd olunan rayonlara Ermənistan SSRİ-dən 15276 nəfər deportasiya olundu, köçürüldü. Təbii ki, deportasiya olunan azərbaycanlıların sosial və məişət problemlərini həll etmək asan başa gəlmirdi. Onların problemlərini lazımi səviyyədə həll etmək çətinlik yaratdığından bəzi ailələr geri qayıtmaq məcburiyyətində qalırdılar. Təsadüfi deyildir ki, Kür-Araz ovalığına köçürülmüş azərbaycanlılar yaşayış şəraitinin olmaması səbəbindən geri qayıdırdılar. O vaxt Kür-Araz ovalığından 1115 ailə geriyə, öz dədə-baba yurdlarına, Ermənistana qayıtmışdır. Ancaq onları öz dədə-baba yurdlarına qəbul etmir, qeydə almır və vətəndaş hüquqlarından məhrum edirdilər. Ona görə də uşaqların təhsil alması işi çətinləşirdi. Məktəb, təhsil işi geriləyirdi. Nəzərə almaq lazımdır ki, o vaxt azərbaycanlıları öz dədə-baba yurdlarından deportasiya etməklə Azərbaycan dilində olan məktəbləri, bir sözlə, təhsili deportasiya edirdilər. Bu mənada İrəvan Pedaqoji Məktəbi deportasiya olunmuş məktəblərin ən bariz nümunəsidir.

Ermənistan SSRİ-də azərbaycanlıların ali təhsil almalarına imkan verməmək üçün məqsədli işlər görülürdü. Məsələn, 1937-ci ildən X.Abovyan adına İrəvan Pedaqoji İnstitutunda Azərbaycan dilində olan dil-ədəbiyyat, tarix-coğrafiya, fizika-riyaziyyat fakültələri bağlandı. Həmin fakültələr 1948-ci ildə Azərbaycandakı müvafiq institutlara köçürüldü. Məhz Xanlar rayonuna

köçürülən İrəvan Pedaqoji Məktəbi də məqsədli siyasətin qurbanı oldu. Bütün bunlar onu təsdiq edir ki, Ermənistan SSRİ-də yaşamış yerli, aborigen azərbaycanlıların təhsil tarixinin araşdırılmasına bir zərurət vardır. Məhz Cəlal Allahverdiyevin və Cəfər Cəfərovun tədqiqatı bu zərurətin tələbləri ilə bağlıdır. Onların bu tədqiqatının dəyəri və faydası əvəzsizdir.

Kitabda İrəvan Pedaqoji Məktəbinin görkəmli məzunlarından bir qisminin yığcam həyat və fəaliyyəti də öz əksini tapmışdır. Bu da oxucu üçün çox maraqlıdır. Ona görə ki, oxucu həmin məzunların kimliyini bilməklə bir daha İrəvan Pedaqoji Məktəbi barədə məlumatlarını dərinləşdirə biləcəkdir. Həmin məzunlardan akademik Budaq Budaqov, AMEA-nın müxbir üzvü Zərifə Budaqova, prof.Əli Fərəcov, prof.Yusif Yusifov, prof. Abbas İsmayılov, prof. Nəriman Əliyev, prof. Fərhad Fərhadov, prof.Cəfər Cəfərov, prof. Süleyman Məmmədov, hüquq elmləri namizədi Nəriman Yusifov, fəlsəfə elmləri namizədi, dosent Sabir Səfərov, pedaqoji elmlər namizədi, dosent Nəriman Kazımov, fizika-riyaziyyat elmləri namizədi, dosent Qasım Mustafayev, əməkdar rəssam Cabbar Quliyev, professor Kövsər Tarverdiyeva, filologiya elmləri namizədi Zəhra Əliyeva, Tapdıq Əmiraslanov, professor Nəzər Paşayev, Əməkdar müəllim, filologiya elmləri namizədi, dosent Nəcəf Nəcəfov və digərlərinin adlarını çəkmək olar.

İrəvan Pedaqoji Məktəbinin məzunlarının bir çoxu dünyasını dəyişmişdir. Məzunlar sırasında hal-hazırda

yaşayanlar da vardır. Çox istərdik ki, İrəvan Pedaqoji Məktəbinin məzunlarının hal-hazırda yaşayanları bu təhsil ocağı barədə məqalələr, xatirələr yazsınlar. Onların bu təhsil ocağı barədə yazacaqlarının hər biri təhsil tariximizin şanlı səhifələrindən olacaqdır. İrəvan Pedaqoji Məktəbi barədə çox az yazılmışdır. Müqayisə üçün qeyd edək ki, Qori Müəllimlər seminariyası və onun Qazax filialı barədə məqalələr, xatirələr vardır. Həmin məqalələrin, xatirələrin hər biri Qori Müəllimlər seminariyası, eləcə də onun Qazax filialı barədə məlumat almaq baxımından əvəzsizdir. Bu mənada İrəvan Pedaqoji Məktəbinin məzunları təhsil aldıqları bu müəssisə barədə məqalələr, xatirələr yazmaqla əvəzsiz bir iş görmüş olarlar.

Cəlal Allahverdiyevin və Cəfər Cəfərovun bu kitabı təhsil tariximizdə böyük rol oynamış İrəvan Pedaqoji Məktəbinin tədqiq edilməsində ilk qaranquşlardan biridir. Bu istiqamətdə gələcəkdə də tədqiqatların aparılacağına inanırıq.

***Buludxan Xəlilov,***
***filologiya üzrə elmlər doktoru, professor***

## İRƏVAN PEDAQOJİ MƏKTƏBİ

1920-ci il noyabr ayının 29-da Ermənistanda sovet hakimiyyəti qurulduqdan sonra başqa respublikalarda olduğu kimi burada da məktəb və maarif probleminə münasibət dəyişir. Ermənistan İnqilab Komitəsi 6 dekabr 1920-ci ildə bütün məktəblərin dövlət ixtiyarına keçməsi haqqında dekret imzalayır. 1921-ci il dekabr ayının 17-də "Ermənistan" Xalq Maarif Komissarlığının verdiyi əmrə əsasən köhnə tipli məktəblər ləğv olunaraq, məzmunca yeni tipli sovet məktəblərinin təşkilinə başlandı.

Yeni tipli məktəblərin təşkili ilə əlaqədar olaraq 1921-ci il aprel ayının 23-də EXMK-nın verdiyi əmrdə göstərilirdi ki, respublikada yaşayan azərbaycanlılar öz ana dilində təhsil almalıdırlar. (23)

Beləliklə Azərbaycan məktəblərinin yeni məzmunda təşkili istiqamətində ilk addımlar atılaraq birillik, ikillik və xüsusi məktəblər ləğv edildi. Yeni tipli yeddiillik, səkkizillik və tam orta məktəblər təşkil olunaraq fəaliyyətə başladı. Yeni tipli məktəblər təşkil edildikdən sonra İrəvanda və eləcə də azərbaycanlılar yaşayan bütün bölgələrdə doğma dilimizdə təhsil ocaqları şəbəkəsinin genişlənməsi orada təhsil alan şagirdlərin sayının sürətlə artmasına təkan verdi. Azərbaycanlı şagirdlərinin sayının sürətlə artmasının əsas səbəblərindən biri də, 1918-1920-ci illərdə erməni daşnaklarının zülmü nəticəsində ən qəddar üsullarla qətlə yetirilməkdən xilas olmaq üçün

doğma yurdlarını tərk etmiş soydaşlarımızın "Ermənistan"da sovet hakimiyyəti qurulduqdan sonra bir qisminin yenidən öz vətənlərinə geri dönməsi ilə bağlı idi.

Milli dilimizdə təhsil ocaqları şəbəkəsinin genişlənməsi və idarə edilməsi orada təhsil alan şagirdlərin sayının sürətlə artması müəllim kadrlarına olan tələbatı daha da artırırdı.

Azərbaycanlı ziyalılar tərəfindən azərbaycanlı məktəbliləri üçün pedaqoji kadrlar hazırlayan tədris müəssisəsinin yaradılması ideyası 30 yanvar 1922-ci ildə EKP-nin birinci qurultayında qaldırılsada onların tələblərinə məhəl qoyulmamışdı.

Amma buna baxmayaraq Azərbaycan məktəbləri üçün müəllim çatışmazlığı problemini həll etmək məsələsi yenə də əvvəlki kimi gündəlikdə qalırdı. Azərbaycanlı məktəbləri üçün pedaqoji kadırların hazırlanması məsələsi Ermənistan Komunist Partiyasının 1923-il martın 29-da keçirilən ikinci qurultayında yenidən qaldırılsa da, yenə də öz həllini tapmamışdı. Qurultayda Ermənistanın şovinist dairələri və eləcə də Xalq Maarif Komissarı A.Mravyan Azərbaycan məktəblərini müəllim kadrları ilə təmin etmək üçün Azərbaycandan pedaqoji kadrların dəvət olunmasını daha məqsədəuyğun hesab edirdilər. Ermənistanın şovinist dairələri azərbaycanlı məktəbləri üçün yerli kadrların hazırlanması məsələsini müxtəlif vasitələrlə əngəlləyirdilər. Burada bolşevik cildinə bürünmüş erməni daşnaklarının ən iyrənc məqsədləri azər-

baycanlıların savadlanmasının, mədəni tərəqqisinin və gələcək perspektivlərinin qarşısını hər vasitə ilə almaq idi. Azərbaycanlı məktəblərini pedaqoji kadrlarla təmin etmək üçün 1923-cü ilin ortalarında Azərbaycandan müxtəlif ixtisaslar üzrə müəllim kadrları dəvət edilərək, onlar İrəvanda və azərbaycanlılar yaşayan bölgələrdə pedaqoji fəaliyyət göstərirdilər. Həmin pedaqoji kadrlar İrəvanda, Vedidə, Qəmərlidə, Basarkeçərdə və s. bölgələrdə müəllim kimi fəaliyyət göstərməklə yanaşı həm də mədəni-maarif quruculuğu sahəsində də yaxından iştirak edirdilər. Əsl erməni xisləti azərbaycanlı məktəblərində dərs deyən həmin müəllimlərə dözülməz şərait yaratdığı üçün onlar da maddi və mənəvi sıxıntılara dözə bilməyib Ermənistanı tərk etməyə məcbur olurdular.

Araşdırmalardan məlum olur ki, sovet hakimiyyətinin ilk illərində Azərbaycan məktəblərində A.Hamparyan, T.Altunyan, K.Salaxyan, A.Salovyan, M.Minasyan, M.Maruxyan, H.Turacyan və başqaları azərbaycanlılara Azərbaycan dili öyrədirlər. Ermənilər azərbaycanlıların sıxışdırılması istiqamətində bu cür mənəvi-terror vasitələrinə də əl atırdılar.

Azərbaycanlı məktəblərində pedaqoji kadrlara olan ehtiyacı qismən də olsa aradan qaldırmaq üçün 1922-ci ildə EXMK-nın nəzdində yaradılmış “Azsaylı xalqlar şöbəsi”-nin müdiri Mehdi Kazımovun səyi nəticəsində 1923-cü ilin noyabr ayında İrəvanda 2 aylıq yay hazırlıq kursu təşkil edildi. Bu hazırlıq kursunda Azərbaycan məktəbləri üçün 60-dan artıq müəllim hazırlanmışdı.

(16) Bundan başqa Uluxanlıda, Vedidə, Basarkeçərdə, Zəngəzurda, Ağbabada və azərbaycanlılar yaşayan müxtəlif bölgələrdə də hazırlıq kursları təşkil edilmişdi. Bir çox pedaqoji kadrlar məhz belə kurslarda təhsil almaqla püxtələşmişdir. 1923-cü ilin sonlarında təşkil olunmuş bu hazırlıq kurslarında 1926-cı ilə qədər 143 müəllim hazırlanmışdır ki, bunlardan da 6 nəfəri qadın idi. (16) Bu kursların təşkilində İrəvanda Azərbaycan ədəbi-mədəni, ictimai-siyasi mühitinin aparıcı nümayəndələrindən olan Bala Əfəndiyevin, Mehdi Kazımovun, Mustafa Hüseynovun və başqalarının böyük rolu olmuşdur.



**Bala Əfəndiyev**

Müəllim çatışmazlığı problemini qismən də olsa aradan qaldırmaq üçün Azərbaycan Xalq Maarif Komissarlığının razılığı əsasında İrəvandan Bakıya 1923-cü ildə 16, 1925-ci ildə isə 38 nəfər pedaqoji təhsil almaq üçün müxtəlif ali təhsil müəssisələrinə göndərildi. Zəhra Abbasova, Tacirə Bağırova kimi gənclər Azərbaycan Ali Pedaqoji İnistutunu bitirdikdən sonra İrəvana qayıdaraq maarifin inkişafına öz töhfələrini verirdilər.



**Mehdi Kazımov**



**Mustafa Hüseynov**

Bütün bunlara baxmayaraq görülən bu tədbirlər müəllim kadrlarına olan tələbatı ödəyə bilmirdi. Ermənistanın şovinist dairələri azərbaycanlı məktəbləri üçün müəllimlər hazırlayan müstəqil tədris müəssisəsinin açılmasını istəmir, Erməni Pedaqoji Texnikumunun nəzdində azərbaycanlı şöbəsinin açılmasını istəyirdilər. Müəllim çatışmazlığı probleminin aradan qaldırılması işini qaydaya salmaq üçün yerli kadrlar hazırlayan təhsil müəssisənin yaradılmasının təxirəsalınmaz tələbat olduğunu aydın dərk edən EK (b)P MK-nın nəzdində fəaliyyət göstərən "Azsaylı xalqlar şöbəsi"nin müdiri Bala Əfəndiyevin, EXMK-nın "Azlıqda qalan müllətlər" bürosunun rəhbəri Mehdi Kazımovun "Zəngi"

qəzetinin məsul redaktoru Mustafa Hüseynovun və başqa qeyrətli azərbaycanlı ziyalıların erməni şovinist dairələri qarşısında təkidli tələbi, ciddi səyi, siyasi və milli iradəsi sayəsində 1924-cü ilin oktyabr ayının 15-də İrəvan Türk Pedaqoji texnikumu açıldı. (16) Onu da qeyd edək ki, erməni şovinizmi əhatəsində azərbaycanlı məktəbləri üçün müəllimlər hazırlayan belə bir təhsil ocağının açılmasının nə qədər ağır və çətin mübarizədən yarandığını aydın şəkildə görürük.

Beləliklə İrəvan Türk Pedaqoji Texnikumunun açılması Azərbaycan məktəblərində müəllim kadrlarına olan ehtiyacın aradan qaldırılması işinin müəyyən dərəcədə qaydaya salınması sahəsində ilk addım atıldı.

Texnikumun yarandığı ilkin fəaliyyət dövrünə nəzər saldıqda məlum olur ki, Mehdi Kazımov direktor və rus dili müəllimi, Bala Əfəndiyev ictimayət müəllimi, Əsgər Əsgərzadə ana dili müəllimi, Cəmil Əliyev təbiət müəllimi, Kərim Məhərrəmov isə texniki işlər üzrə köməkçi kimi fəaliyyət göstərmişlər.

Bu təhsil ocağı 1925-ci ildə Nəriman Nərimanov adına İrəvan Türk Pedaqoji Texnikumu adlandı.

Araşdırmalardan məlum olur ki, İrəvanda bütün azərbaycanlı məktəblərində mövcud olan problemlər bu texnikumda da mövcud idi. Erməni pedaqoji texnikumunun binasında fəaliyyət göstərən bu maarif ocağı 30 nəfər tələbəni əhatə edən darısqal bir sinif və iki yataq otağından ibarət idi. (25) Məlumdur ki, hər hansı bir təhsil müəssisəsinin normal və ahəngdar fəaliyyət

göstərməsi üçün ilk növbədə onun müstəqil bina ilə təmin edilməsi, maddi-texniki bazasının yaradılması, tədris prosesi üçün əlverişli şəraitin olması vacib şərtdir. Yeni təşkil olunmuş İrəvan Türk Pedaqoji Texnikumunun tamamilə əlverişsiz və dözülməz bir şəraitdə fəaliyyət göstərməsi, dərslik və dərs vəsaitləri, tədris proqramları, laboratoriyalar, fənn kabinələri, yataqxana, yeməkxana və s. avadanlıqlarla təchiz edilməməsi sözsüz ki, bu təhsil ocağının normal fəaliyyətini əngəlləyirdi. "Ermənistanın" "bolşevik" cildinə bürünmüş hakimiyyət orqanları nəinki texnikumda, eləcə də Azərbaycan məktəblərində mövcud olan problemlərin və çatışmamazlıqların aradan qaldırılması üçün heç bir səy göstərmirdi. Erməni şovinistlərinin bütün sahələrdə azərbaycanlılara qarşı yürütdüyü qərəzli və ayrı seçkilik siyasəti maarif sahəsində də özünü qabarıq şəkildə göstərirdi. Pedaqoji texnikumda ana dilində kitab, dərslik və dərs vəsaitlərinə, tədris proqramlarına və.s ləvazimatlara böyük ehtiyac olduğu halda "Ermənistan" Xalq Maarif Komissarlığı bu tələbatı ödəmək istəmirdi. Demək olar ki, Ermənistanın Xalq Maarif Komissarı Aşot Hovanesyanın 1920-ci il 17 dekabr tarixdə verdiyi əmrdə təhsilin ana dilində aparılması, məktəblərin dövlət ixtiyarına keçərək pulsuz olması, yeni tipli sovet məktəblərinin zəhmətkeş balalarının üzünə açıq olması, bütün bunlar hamısı ilk növbədə ermənilər üçün nəzərdə tutulurdu.

Texnikumun direktoru M.Kazımovun bu təhsil ocağının ilkin fəaliyyət dövrü haqqında qeydlərindən məlum

olur ki, sinifdə parta və oturacaqlar olmadığından tələbələr yerdə oturmağa məcbur olurmuşlar. Həmin qeydlərdə göstərilir ki, tədris prosesi üçün heç bir əlverişli şərait olmadığı üçün 1925-ci ilin sonlarına qədər texnikuma əsaslı qəbul həyata keçirilməmişdir. Yalnız texnikumda 1926-cı ilə qədər altı aylıq və birillik kurslar fəaliyyət göstərmişdir.(16)Texnikumun nəzdində müəllimlər hazırlayan bu hazırlıq kurslarında az-çox savadı olan, mollaxana və ibtidai rus məktəblərini bitirənlər müəllim kimi təkminləşdiriləərək məktəblərə göndərilirdi. 1925-ci ildə hazırlıq kursuna 25 nəfər tələbə qəbul olunmuşdur ki, onlar da 1926-ci ilin əvvəlində həmin kursu bitirdikdən sonra yerlərdə pedaqoji fəaliyyət göstərirdilər. (16) Onu da qeyd etmək lazımdır ki, texnikumun nəzdində fəaliyyət göstərən bir illik müəllimlər kursu sonrakı dövrlərdə də fəaliyyət göstərmişdir. Azərbaycanlı məktəblərinin müəllim kadrları ilə təmin edilməsində hazırlıq kurslarınında böyük rolu olmuşdur.

Araşdırmalar göstərir ki, Ermənistan Xalq Maarif Komissarlığı azərbaycanlı pedaqoji texnikumunda mövcud olan problemlərin aradan qaldırılması, tədris vəsaitləri, kitablar və digər ləvazimatlarla təmin edilməsinə heç bir köməklik göstərməmişdir. Hətta mənbələrin verdiyi məlumatlardan məlum olur ki, «Azsaylı xalqlar şöbəsi»nin müdiri B.Əfəndiyev və texnikumun direktoru M.Kazımov bu tədris ocağının normal fəaliyyət göstərməsi üçün müstəqil bina ilə təmin edilməsinə, maddi-texniki, tədris bazasının yaradılmasına böyük ehtiyac olduğu barədə

dəfələrlə “Ermənistanın” şovinist dairələri qarşısında məsələ qaldırsalarda öz müsbət həllini tapmamışdır. Ümumiyyətlə, texnikuma tələbə qəbulunun keçirilməsi prosesini ləngidən əsas səbəblərdən biri də burada tədris prosesi üçün əlverişsiz və dözülməz şəraitlə bağlı idi.

“Ermənistanın” daşnak hakimiyyəti erməni pedaqoji texnikumunun müstəqil bina ilə təmin etdiyi, hərtərəfli diqqət və qayğı göstərdiyi halda, azərbaycanlı pedaqoji texnikumu isə bu qayğılardan məhrum idi. Bu ayrı-seçkilik siyasəti bir tərəfdən Ermənistanda «Sovet hakimiyyəti»nin öz spesifik xüsusiyyətlərinə malik olduğunu göstərirdisə, digər tərəfdən isə erməni kommunistlərinin sözdə bir, əməldə tamamilə əks prinsiplərdən çıxış etməsində özünü göstərirdi. Çünki, başqa respublikalardan fərqli olaraq, Ermənistanda sosial mühitin, partiya həyatının, milli siyasətin iki birincisi, görünən, ikincisi, görünməyən tərəfləri var idi.

Görünən tərəf «proletar beynəlmiləlçiliyi», «bolşevizm ideyalarının həyata keçirilməsi», görünməyən tərəf isə rəsmi Ermənistan rəhbərliyinin gizli surətdə həyata keçirdiyi şovinist və antitürk siyasəti idi.

Varlığının ilk günlərindən Pedaqoji Texnikum çox böyük çətinliklərlə üzüzə qalmışdı.

Yuxarıda qeyd etdiyimiz kimi milli maarifimizin inkişafını hər vasitə ilə əngəlləməyə çalışan erməni şovinistlərinin burada da mərkli məqsədlərindən biri gələcəkdə azərbaycanlı pedaqoji texnikumunun fəaliyyətinin dayandırılmasına zəmin hazırlamaqdan ibarət idi.

Amma bütün bu çətinliklərlə ciddi maneələrə baxmayaraq, yeni təşkil olunmuş texnikumun möhkəmləndirilməsi, fəaliyyətinin canlandırılması, müəllim və tələbə kontingentinin formalaşdırılması, tədrisin təşkili və s. həlli vacib olan məsələlər qeyrətli ziyalılarımızın «Azsaylı xalqlar şöbəsi»nin müdiri B.Əfəndiyevin, texnikumun direktoru M.Kazımovun «Zəngi» qəzetinin məsul redaktoru M.Hüseynovun və başqalarının qarşısında duran ən mühüm məsələ idi.

Onu da qeyd etmək lazımdır ki, Qərbi Azərbaycanda milli məktəblərimizin ana dilində kitab, dərslik, dərs vəsaiti, tədris proqramları və s. ləvazimatlarla təmin edilməsində Azərbaycan Xalq Maarif Komissarlığı yaxından köməklik göstərirdi. Beləliklə, B.Əfəndiyevin, M.Kazımovun, M.Hüseynovun və digər qeyrətli ziyalılarımızın coşğun və fədakar fəaliyyəti sayəsində texnikumda bəzi problemlər aradan qaldırılaraq, texnikuma ilk qəbulun keçirilməsi mümkün olmuşdu. Beləliklə texnikumun əsas kursuna ilk qəbulun sənədləri 1925-ci il oktyabr ayının 15-dən 27-dək aparılmışdır. Burada mövcud dövrün tələbinə uyğun olaraq fəhlə-kəndli mənşəli gənclər qəbul olunurdu. Tələbə qəbulu EXMK-nin təsdiq etdiyi qaydalar əsasında həyata keçirilirdi. (24)

Qəbul qaydalarında göstərilir ki, hər iki cinsdən olan,15 yaşı tamam olmuş birinci dərəcəli məktəbi (dörd illik) uğurla bitirən şagirdlər qəbul edilir. Qəbul zamanı qızlar üçün müəyyən üstün hüquqlar verilirdi ki, bu da

qızların təhsilə cəlb edilməsinə stimul yaradırdı. Hətta 14 yaşı tamam olmuş qızlara da müsabiqədə iştirak etmək hüququ verilirdi. İlkin müsabiqə qəza maarif şöbələrində yaradılmış komissiya tərəfindən həyata keçirilirdi. Bundan sonra həmin şagirdlər qəza maarif şöbələri tərəfindən verilmiş xasiyyətnamə əsasında texnikuma keçirilən müsabiqədə iştirak etmək hüququna malik idi. Qəbul üçün aşağıdakı fənlərdən imtahanlar nəzərdə tutulmuşdu. Türk dili (yazılı və şifahi), hesab (yazılı), coğrafiya (şifahi), ictimaiyyət (şifahi). (14;1)

1925-ci il dekabr ayının 25-də «Zəngi» qəzetində dərc olunmuş «Müxtəsər məlumatlar» adlı yazıdan məlum



**Mehdi Kazımov**
**Qızları Elmira, Səidə və Mina ilə Birlikdə**

olur ki, texnikuma ilk dəfə qəbul olunan tələbələrin sayı

32 nəfər olmuşdur ki, onlardan da 4 nəfəri gənc qızlar idi. 37 nəfər isə bir illik müəllimlər kursuna daxil olmuşdu. Beləliklə, Texnikumun fədakar kollektivinin və onun direktoru M.Kazımovun fədakar fəaliyyəti sayəsində tədris prosesinə hazırlıq işləri yekunlaşdıqdan sonra 1925-ci il noyabr ayının 17-də texnikumda ilk dərs günü elan edildi. (14)

Amma texnikumun müstəqil bina ilə təmin edilməməsi bir sıra fənnlər üzrə müəllimlərin çatışmamazlığı tədrisi lazımi səviyyədə qurmağa imkan vermirdi. Auditoriya çatışmamazlığı səbəbindən dərslər iki növbədə keçirilirdi. Buna görə də çox vaxt dərslər cədvəldə nəzərdə tutulmuş ardıcıllıqla təşkil olunmurdu. 69 nəfər tələbənin dərs keçməsi üçün cəmi bir sinif otağı var idi. Sinif otağının darısqal olması səbəbindən bəzən tələbələr dəhlizdə dərs keçməyə məcbur olurdular. Texnikumun tələbələri üçün ayrılmış yataqxana heç bir sanitar-gigiyena tələblərinə cavab vermədiyindən orada yaşayan tələbələrin səhhəti üçün çox ciddi fəsadlar yaradırdı. Hətta mənbələrdə Əlirza Yusifov və digər tələbələr arasında ölüm hallarının mövcud olması barədə məlumatlara da rast gəlinir. Texnikuma qəbul olunmuş tələbələrin bəziləri isə belə bir dözülməz şəraitdə yaşamağa dözə bilməyib, təhsilini yarımçıq qoyub geri qayıtmağa məcbur olurdu.

Bütün ciddi maneələrə baxmayaraq yeni yaranmış texnikumun fəaliyyətinin canlandırılması tədrisin təşkili, müəllim və tələbə kollektivinin formalaşdırılması və s. həlli vacib olan məsələlər “Azsaylı xalqlar şöbəsi”nin

müdiri B.Əfəndiyevin təşəbbüsü və səyi sayəsində Azərbaycan Xalq Maarif Komissarlığına etdiyi müraciət əsasında ana dilində müxtəlif adda kitabların, tədris proqramlarının dərslik və dərs vəsaitlərinin əldə olunmasına nail olunmuşdur. Texnikumun fədakar kollektivi bu tədris ocağının mədəni quruculuq qüvvəsinə çevrilməsi üçün milli iradə nümayiş etdirirdilər.

Texnikumun ilkin fəaliyyət dövrünə nəzər saldıqda pedaqoji heyətin, tədrisin təşkili və s. sahələrdə müəyyən irəliləyişin olduğu məlum olur. Qısa zaman ərzində bu maarif ocağının ətrafına Ələşrəf Bayramov, Əsgər Əsgərzadə, Bülbül Kazımova, Miryusif Mirbabayev, Məhəmməd Əzimzadə, İsmayıl Babayev kimi ziyalılar toplaşmağa başladı. Onu da qeyd etmək lazımdır ki, dünya şöhrətli alim, akademik Yusif Məmmədəliyev ilk əmək fəaliyyətinə bu texnikumda başlamışdır. O, 1926-27-ci illərdə bu təhsil ocağında kimya-biologiya fənnini tədris etmişdir.



**Bülbül Kazımova**

Onu da qeyd etmək lazımdır ki, pedaqoji məktəbin ilk müəllimlərindən biri də Azərbaycanda böyük müəllim nüfuzuna, hörmətə malik, ömrünün 50 ildən artıq bir hissəsini təhsilimizin inkişafına, xüsusən coğrafiya elminin tədrisinə həsr edən Ələşrəf Bayramovdur. Ələşrəf Hüseyn oğlu Bayramov 1902-ci ildə İrəvan quberniyası



**Ələşrəf Bayramov**

Sürməli qəzasının Aralıq Başkənd mahalında savadlı bir ailədə dünyaya gəlmişdir. O, 1908-1914-cü ildə Başkənddə rus-tatar məktəbinə daxil olub və 1913-cü ildə oranı bitirmişdir. İrəvan müəllimlər Seminariyasına daxil olan Ələşrəf Bayramov üçüncü kursda oxuyarkən müəyyən səbəblərə görə "Seminariyanı Şimali-Qafqaza-Armavir şəhərinə köçürürlər".(10) Amma valideynləri onun Armavir şəhərində təhsilini davam etdirməyə icazə vermirlər. Müəllimlik arzusu isə Ə.Bayramovun ən böyük arzularından biri idi.

1920-ci illərdə yeni tipli sovet məktəblərində dərs demək üçün müəllim kadrlarına böyük ehtiyac yaranmışdı. Həmin ehtiyacı ödəmək üçün İrəvanda və bölgələr-

də də kurslar təşkil edilirdi. İrəvanda yay pedaqoji kursunu bitirən Əşrəf Bayramov yenidən Qəmərliyə qayıdır. O, erməni orta məktəbinin nəzdində ibtidai Azərbaycan məktəbinə müdir və müəllim təyin edilir.

1927-28-ci illərdə Ə.Bayramov İrəvandakı S.M.Kirov adına doqquzillik orta məktəb də  çalışmağa başlayır.

O, həm də yay aylarında "Ermənistanın bir sıra rayonlarında müəllimləri təkmilləşdirmə kurslarında pedaqogika və metodikadan dərs deyir". (10)

Ə.Bayramov həm də İrəvanda Azərbaycan ədəbi-mədəni mühitin inkişafında fəal iştirak edirdi. O, 1927-ci ildə "Ermənistan" Proletar Yazıçılar Cəmiyyətinin nəzdində yaradılmış azərbaycanlı bölməsinin gənc yazıçı kimi ən fəal üzvlərindən biri idi. O, yazıçı kimi 1928- ci ildə Tiflisdə keçirilən Zaqafqaziya Proletar Yazıçılarının toplantısında nümayəndə kimi iştirak etmişdi.

"Lakin Ə.Bayramov təhsilini davam etdirməyi də unutmur. O, 1941-ci ildə Ermənistan Dövlət Pedaqoji İnstitutunun  coğrafiya  fakültəsini müvəffəqiyyətlə bitirir. Yenə müxtəlif məktəblərin ünvanlarına yönəlir, yenə də necə zəhmətkeşin övladına savad öyrədir, onları işıqlı yola çıxarır".(10)

Ə.Bayramov "Ermənistan"da azərbaycanlılar yaşayan müxtəlif bölgələrdə - Dərəçiçəkdə, Basarkeçərdə, Gümrüdə və digər yerlərdə məktəblərdə müəllim kimi fəaliyyət göstərmiş, yay kurslarında yüzlərlə azərbaycanlı pedaqoji kadrların hazırlanmsında böyük rol oynamışdır. 1943-45-ci illərdə Kalinino rayonu Soyuqbulaq kənd

məktəbində direktor işləmiş Ə.Bayramov 1945-ci ildə "Sovet Ermənistanı" qəzetində redaktor –stilist vəzifəsində çalışmışdır.

Ə.Bayramov uzun müddət İrəvan Pedaqoji məktəbində coğrafiya fənnini tədris etmişdir.

Ə.Bayramov İrəvanda Azərbaycan maarifinin inkişafında, azərbaycanlı balalarının elmə, təhsilə yiyələnməsində çox böyük xidmətləri olmuşdur.

Ə.Bayramovun tələbəsi olmuş akademik Budaq Budaqov onun haqqında yazır: "Ələşrəf Bayramovun böyük həvəslə dərs deməsi tələbələrdə oxumağa olan həvəsi artırırdı. Bizdə təhsil almaq istəyi çox güclü idi.

Ələşrəf müəllim tələbələr arasında özünü coğrafi xəritələrin ali bilicisi kimi tanıtmışdı. Ələşrəf müəllim öz ixtisasını – coğrafiya fənnini çox sevirdi. Biz tələbələr də onun arxasınca getməyi özümüzə şərəf bilirdik".(22, 177;10)

Ə.Bayramov 1948-ci ildə Bakı şəhərinə köçmək məcburiyyətində qalır. O, bir müddət indiki Azərbaycan Dövlət Pedaqoji Universitetinin coğrafiya fakültəsində, daha sonra isə Maştağa qəsəbəsindəki 187 saylı orta məktəbdə coğrafiya fənnini tədris etmişdir. Ə.Bayramov fədakar, şərəfli, əməyinə görə Əməkdar müəllimi adına layiq görülmüş bir sıra fəxri fərman və medallarla təltif edilmişdir.

Texnikuma azərbaycanlılar yaşayan bütün bölgələrdən tələbə qəbul edilirdi. Amma texnikuma qəbulun sayı  bölgələrdə yaşayan azərbaycanlı əhalinin sayına

uyğun keçirilmirdi. Məsələn, 1927-ci ildə texikuma 31 nəfər əsas kursa,112 nəfər isə altı aylıq və bir illik hazırlıq kursuna daxil olmuşdur ki, bunlardan 77 nəfəri İrəvan,14 nəfəri Ücmüədzin,7 nəfəri Gümrü, 4 nəfəri Lori-Pəmbək, 5 nəfəri Nor-Bəyazid, 9 nəfəri Dilican, 20 nəfəri Zəngəzur, 4 nəfəri Dərələyəz, 3 nəfəri isə Meğri bölgələrindən idi. (14)

Onu da qeyd etmək lazımdır ki, azərbaycanlı pedaqoji texnikumu İrəvanda təkcə tədris müəssisəsi kimi deyil, eyni zamanda İrəvanda Azərbaycan ədəbiyyatının, mədəniyyətinin, incəsənətinin inkişafı və formalaşması üçün də böyük rol oynayırdı.

Belə ki, 1918-20-ci illərdə ermənilər tərəfindən azərbaycanlıların total şəkildə məhv edilməsi İrəvan ədəbi-mədəni mühitinin tənəzzülə uğramasına səbəb olmuşdur. Ədəbi-mədəni mühitin görkəmli nümayəndələrinin bir qismi məhv edilmiş, bir qismi isə amansızcasına qətlə yetirilməkdən xilas olmaq üçün Türkiyə, İran, Azərbaycan, Orta Asiyaya və başqa ölkələrə üz tutmuşlar. Bununla da İrəvanda yaşlı nəslə mənsub ziyalı qalmadığından nəsillər arasında sələf-xələf münasibətləri tamamilə pozulmuşdur. Şübhəsiz ki, bu İrəvan ədəbi məktəbinin yaradıcı potensialına təsir etməyə bilməzdi.

Ümumiyyətlə, inqilabdan sonra İrəvanda Azərbaycan əbədi-mədəni mühitinin canlanması, inkişafı və formalaşmasında azərbaycanlı pedaqoji texnikumunun müəllim və tələbə kollektivinin müstəsna xidmətləri olmuşdur. Belə ki, İrəvanda Azərbaycan dilində yeganə mətbuat orqanı

olan «Zəngi» (1924) qəzetinin azərbaycanlı kütlələri arasında yayılmasında və tirajının artırılmasında, yeni türk əlifbasının tətbiqində və təbliğində, savadsızlığın aradan qaldırılmasında texnikumun müəllim və tələbə heyəti çox böyük rol oynamışdı. «Zəngi» qəzetinin ən aktiv müxbirləri və təbliğatçıları da məhz bu təhsil ocağının müəllim və tələbələri Tağı Camalov, Mehdi Bəşirov, Rüstəm Tağıyev, Nəriman Fəxri, Telman Nəzərli, Yunis Tağıyev, Qasım Əliyev, Əbülfət İbrahim, Əliqulu Səlimov, Abbas Tahir, Əbülfət Rəhimov, Adil Axundov, Nurəli Qurbanov, Şəmo Hətəmov, Nəzər Paşayev, Məmməd Paşayev və başqaları «Zəngi» qəzetinin ən fəal müxbirləri idi.

1927-ci ildə Ermənistan Proletar Yazıçılar Cəmiyyətinin nəzdində təşkil olunmuş azərbaycanlı bölməsinin canlandırılması və genişləndirilməsində də bu tədris ocağının böyük xidmətləri olmuşdur.

Texnikumun müəllim və tələbə heyəti arasında yaradıcılıq qabiliyyətinə malik olan müəllimlərdən Ələşrəf Bayramov, Əsgər Əsgərzadə, Mehdi Kazımov, tələbələrdən Leylan Əliyeva, Sona Bağırova, Həsən Həsənov, Nurəli Qurbanov, Nəriman Fəxri, Telman Nəzərli, Əbülfət Rəhimov, Əbülfət İbrahim, Abbas Tahir, Mirzə Mirzəyev və başqaları azərbaycanlı yazarlar bölməsinin ətrafına toplaşaraq öz ədəbi yaradıcılıqlarını inkişaf etdirməklə yanaşı, yerlərdə ədəbi dərnəklər təşkil edir, istedadlı gəncləri və ədəbiyyat həvəskarlarını aşkara çıxararaq onları türk yazarlar cəmiyyətinə cəlb edirdilər.

1926-27-ci illərdə texnikumda ədəbiyyat, teatr, hərbi

və s. dərnəklər təşkil edilərək geniş fəaliyyət göstərirdi. Ədəbiyyat dərnəyinə şair Abbas Tahir, teatr dərnəyinə Cəmil Əliyev, hərbi dərnəyə isə Nəcəf Əliyev rəhbərlik edirdilər. Bu dərnək və cəmiyyətlərdə müxtəlif sahələrə aid aktual mövzuların müzakirəsi təşkil edilir, teatr tamaşaları göstərilir, gənclərin ideya-siyasi səviyyəsinin yüksəldilməsi məqsədilə müntəzəm şəkildə tədbirlər həyata keçirirdilər. Həmin dövrlərdə bir sıra mənbələrdə dərnəklərin işi haqqında ətraflı məlumatlar verilmişdir. (19)

Pedaqoji texnikumda yeni əlifba ilə «Mədəniyyət ocağı», «Mədəni hücum», «İrəli» adlı divar qəzetləri də çıxırdı.

Bu qəzetlərdə texnikumda mövcud olan problemlər, bədii ədəbiyyat nümunələri, təlim və tədrisə, tələbələrin sosial və iqtisadi vəziyyətinə və s. mövzulara aid yazılar, xəbərlər dərc olunurdu. (19)

Bütün bunlara baxmayaraq, texnikumda mövcud olan çətinliklər və problemlər bu təhsil oğacının müvəffəqiyyət dərəcəsini daha da qaldırmağa imkan vermirdi. Amma texnikumun fədakar kollektivi tədrisin yaxşılaşdırılması, mövcud problemlərin aradan qaldırılması istiqamətində ciddi iş aparırdı.

Texnikumun yaranmasından keçən dörd il ərzində bu tədris ocağı əsasən təşkilolunma prosesi keçirərək fəaliyyəti müəyyən dərəcədə genişlənmiş 1928-29-cu tədris ilində tələbə qəbulu artmışdı. 1928-ci ildə texnikuma 40 nəfər tələbə qəbul olmuşdur ki, onlardan da

8 nəfəri İrəvan, 3 nəfəri Gümrü, 5 nəfəri Ücmüədzin, 3 nəfəri Lori-Pəmbək, 4 nəfəri Dilican, 3 nəfəri Nor-Bəyazid, 1 nəfəri Dərələyəz, 6 nəfəri Zəngəzur, 1 nəfəri Megri bölgələrindən, 6 nəfəri isə uşaq evi şagirdlərindən idi. (17)

Texnikumun pedaqoji şurasının iclaslarında maddi-texniki bazanın genişləndirilməsi, tədrisin günün tələbləri səviyyəsində qurulması, tələbələrə müvafiq proqramlar əsasında biliklər verilməsi və s. məsələlər müntəzəm müzakirə edilərək vacib qərarlar qəbul edilirdi. 1928-ci ildə texnikumun rəhbərliyi tədrisin təşkilini yaxşılaşdırmaq və bəzi strukturların yaradılması məqsədilə vəzifə təyinatları həyata keçirmişdi. Miryusif Mirbabayev tədris işləri üzrə direktor müavini vəzifəsinə təyin edilmişdi. Amma o bu vəzifədə 1933-cü ilə qədər işləmişdi. Onu da qeyd etmək lazımdır ki, İrəvanda Azərbaycan ədəbi-mədəni mühitinin inkişafında fəal iştirak edən Miryusif Mirbabayev 1930-cu illərdə başlanan repressiyadan xilas olmaq üçün 1934-cü ilin əvvəllərində İrəvanı tərk etməyə məcbur olmuşdur.



**Mir Yusif Mirbabayev**

Cəfər Cəfərov təsərrüfat işləri üzrə müdir vəzifəsinə təyin olunmuş, yeni təşkil olunmuş tibb məntəqəsi isə Mamed Kazımova həvalə edilmişdi.Texnikumun rəhbərliyinin kadr işi sahəsində apardığı məqsədyönlü və ardıcıl iş öz bəhrəsini verirdi. Artıq 1929-cu ildə

texnikumda pedaqoji və texniki işçilərin sayı 13 nəfərə çatdırılmışdı.

1929-cu ilin iyun ayında texnikumun ilk buraxılışı olmuşdur. 1926-cı ildə qəbul olunmuş 32 nəfər tələbədən 20 nəfəri texnikumu bitirməyə müvəffəq ola bilmişdir ki, onlardan da 18 nəfəri oğlan, 2 nəfəri isə gənc qızlar



**İrəvan pedaqoji Məktəbinin ilk buraxılışı, 1929-cu il**

idi. Mənbələrin verdiyi məlumatlardan aydın olur ki, tələbələrdən 3 nəfəri təhsil aldığı müddətdə ağır və yoluxucu xəstəliyə tutularaq dünyasını dəyişmiş, 9 nəfəri isə müxtəlif səbəblərdən təhsilini yarımçıq qoyaraq texnikumu tərk etməyə məcbur olmuşdur. (13)

Texnikumun ilk məzunları arasında Əmir Abasquluyevi, Adil Axundovu, Nəriman Əliyevi, Paşa Makinskini, İmanqulu Kərimovu, Nəriman Fəxrini, Rübabə

Bağırbəyovanı, Nəsir Əliyevi, Musa Qafarovu, Nəzər Paşayevi, Mehdi Bəşirovu göstərmək olar.

Texnikumun ilk buraxılışı ilə əlaqədar bir sıra qurumların nümayəndələrinin iştirakı ilə təntənəli yığıncaq keçirilmişdi. Yığıncaqda texnikumun direktoru Mehdi Kazımov bu tədris ocağının mövcud olduğu 5 il ərzindəki fəaliyyəti haqqında məruzə edərək, əldə olunmuş nailiyyətlərlə yanaşı bir sıra nöqsanlar barədə də fikirlərini tədbir iştirakçılarının diqqətinə çatdıraraq demişdi: "Texnikumu ilk zaman təşkil edəndə burada oxumaq üçün tələbələr tapa bilmirdik. Sonra get-gedə texnikum öz adını doğrultduğu üçün indi bura daxil olmaq istəyənlərin sayı günbəgün artmaqdadır. İlk vaxtlarda texnikumun iqtisadi vəziyyətinin yaxşı olmaması, kitab və proqramların yoxluğu, peşəkar müəllimlərin olmamasına baxmayaraq, bu il bu çətinliklərin çoxunu aradan qaldırıb, müəyyən müvəffəqiyyətlər əldə edilmişdir." (13)


**Əhməd Əhmədov**

İlk buraxılış münasibətilə texnikumun kollektivini və məzunları "Qızıl şəfəq" qəzetinin heyəti adından Əkbər Rizayev, 9 illik türk məktəbinin direktoru Lütfullah Muğanlinski və digər qonaqlar təbrik etmişdilər. Tədbirin sonunda "Azsaylı xalqlar şöbəsi"nin müdiri Əhməd Əhmədovun təbriki oxunmuşdu.

Texnikumu bitirənlərə məcburi olaraq təyinat yerlə-



**Əkbər Rizayev**

rində üç il müəllim işlədikdən sonra ali məktəbə daxil olmaq və digər idarə və müəssisələrdə işləmək imkanı verilirdi. Bölgələrə göndərilən məzunlar yerlərdə müəllimlik fəaliyyəti ilə yanaşı mədəni-maarif quruculuğu və s. sahələrdə də yaxından iştirak edirdilər. Bölgələrdə fəaliyyət göstərən həmin müəllimlər həm də "Zəngi" qəzetinin ("Zəngi" qəzeti 1929-cu ilin yanvar ayının 1-dən "Qızıl şəfəq" adı ilə nəşr edilmişdir.) ən aktiv müxbirləri idilər. Mövcud dövrün tələbinə uyğun olaraq, "Qızıl şəfəq" qəzetində kollektivləşmənin gedişi , kənd şuralarının işləri, kəndin ictimai vəziyyəti, mədəni-maarif işləri və s. sahələrə aid yazılar dərc etdirmək, mətbuatla sıx təmasda olmaq həmin müəllimlərin qarşısında bir tələb kimi qoyulurdu.

Onu da xüsusi qeyd etmək lazımdır ki, "Zəngi" qəzetinin fədakar kollektivi və onun mübariz məsul redaktoru Mustafa Hüseynovun nəinki İrəvanda, bütün Qərbi Azərbaycanda milli maarifimizin inkişafında böyük xidmətləri olmuşdur. (21)

1929-cu ildə pedaqoji texnikuma 32 nəfər qəbul olunmuşdur. Onlardan 16 nəfəri oğlan, 16 nəfəri isə gənc qızlar idi. Bunlardan 6 nəfəri İrəvan, 3 nəfəri Dilican, 2 nəfəri Dərələyəz, 1 nəfəri Meğri, 4 nəfəri Lori-Pəmbək, 4 nəfəri Gümrü, 3 nəfəri Zəngəzur, 3 nəfəri Nor-Bəyazid,

3 nəfəri Ücmüədzin bölgələrindən, 3 nəfəri isə uşaq evi şagirdlərindən idi. (2)

Bütün bunlara baxmayaraq 1930-cu ildə ümumi məcburi təhsilin tətbiq edilməsi istər məktəblərin, istərsə də orada təhsil alan şagirdlərin sayının sürətlə artmasına təkan verdi. Belə ki, 1922/23-cü tədris ilində Qərbi Azərbaycanda 36, 1924-cü ildə 62 azərbaycanlı məktəbi fəaliyyət göstərirdisə, 1929/1930-cu tədris ilində bu məktəblərin sayı 112, 1931-ci ildə isə 245-ə çatmışdı ki, da 45-i İrəvan qəzasında idi. (1) Həmin məktəblərin idarə edilməsi, müəllim kadrları ilə təmin olunması günün ən vacib məsələlərindən idi. Çünki, pedaqoji texnikumun ildə 20-30 nəfər məzun buraxması milli məktəblərimizin müəllim kadrlarına olan tələbatını tam ödəyə bilmirdi. Müəllim çatışmazlığı üzündən bölgələrdəki bir çox məktəblər ikiaylıq, üçaylıq hazırlıq kurslarında təhsil almış şəxslərin ümidinə qalmışdı. Müəllim kadrları çatışmadığından pedaqoji texnikumun tələbələri növbətçiliklə İrəvan qəzasında fəaliyyət göstərən 1-ci dərəcəli türk məktəblərində, kəndli evində, qadınlar klubunda müəllim kimi fəaliyyət göstərirdilər. Azərbaycanlı məktəblərində müəllim kadrlarına olan ehtiyacı qismən də olsa aradan qaldırmaq üçün, hətta İrəvan 9 illik türk məktəbini bitirənləri müəllim kimi işləməyə göndərirdilər.

Amma bütün bunlara baxmayaraq, azərbaycanlı məktəblərində müəllim kadrlarına böyük tələbat olduğu halda yüzlərlə azərbaycanlı müəllim və tələbələrə “bəy”,

“xan”, “mülkədar”, “qolcomaq”, “kulak”, “mövhumatçı”, “millətçi” və s. damğası vurularaq təhsil müəssisələrindən xaric edilirdilər. “Təmizləmə komissiyası” adlandırılan yoxlama zamanı texnikumun tələbələri Mikayıl Əliyev, Fəraməz Kazımbəyov, Xəlil Əfəndiyev, Ələkbər Həsən-zadə, Fərhad Əsgərov, Tərifə İsmixanova, Əli Xəlilov, Məhəmməd Rzayev, Məhərrəm Xəlilov, Əkbər Cabbar Hacı Həsənoğlu, Qədimalı Vəliyev, Ağayar Həsənov, Məmmədəli Əsədov, Oruc Şumalov, Fərman Kazımov, Ziyad Şərifov və başqaları “kulak”, “ünsür” kimi aşkar olunaraq xaric edilmişdilər. Azərbaycanlı ziyalılar nəinki repressiyaya, həmçinin fiziki terrora da məruz qalırdılar: istedadlı azərbaycanlı ziyalılar, qabaqcıl maarif işçisi 1931-ci ildə Leninqradda ali təhsil almış Musayev İsgəndər Piri oğlu Uluxanlıda Tatoş Bjiniyan, filologiya elmləri namizədi Mehdi Həsənov isə İrəvanda erməni quldurları tərəfindən xüsusi amansızlıqla qətlə yetirilmişdilər. Erməni şovinistlərinin azərbaycanlılara qarşı törətdikləri vəhşiliklərə baxmayaraq qeyrətli azər-baycanlı ziyalıları və pedaqoji texnikumun fədakar kol-lektivi öz fəaliyyətlərini inamla davam etdirirdilər.

1930-cu ildə texnikumun ikinci buraxılışı olmuşdur. Mənbələrdən aydın olur ki, 31 nəfər tələbədən 29 nə-fəri texnikumu bitirməyə müvəffəq ola bilmişdir. Tə-ləbələrdən 2 nəfəri isə müxtəlif səbəblərdən təhsilini yarımçıq qoyaraq texnikumu tərk etmişdir. (13)

Yüksək ixtisaslı müəllim kadrlarının yetişdirilməsi üçün texnikumun kollektivinin mütəşəkkil səyi nə-

ticəsində tədrisin keyfiyyətinin yüksəldilməsi və s. sahələrdə ciddi uğurlar əldə edilirdi. 1930-cu ildə tex_ nikumun direktoru M.Kazımovun təşəbbüsü sayəsində bu tədris ocağında dərs demək üçün Azərbaycandan və başqa yerlərdən ali təhsilli müəllimlər dəvət edilmişdi. 1930-cu ilin iyul ayında texnikuma qəbul qaydalarında müəyyən dəyişikliklər edilmişdir. Yeni qəbul qaydalarında o şəxslər qəbul edilirdilər ki, yaşı 15-dən aşağı 20-dən yuxarı olmamalı və 5-ci sinfi bitirmiş olanlar. 1929/30-cu tədris ilini qənaətbəxş göstəricilərlə başa vuran texnikum növbəti 1930/31-ci tədris ilinə ciddi hazırlıq görmüş, həmin ildə daha yaxşı nəticələrə nail olmaq üçün bütün qüvvəsini səfərbər etmişdir. 1931-ci ildə bölgələr üzrə qəbul olmuş tələbələrin sayı aşağıdakı kimi olmuşdur.

İrəvan şəhərindən 3 nəfər, Razdandan 4 nəfər, Ağbabadan 3 nəfər, Vedibasardan 4 nəfər, Basarkeçərdən 3 nəfər, Dərələyəzdən 2 nəfər, Zəngəzurdan 4 nəfər, Stepanavandan 2 nəfər, Qırmızı kənddən 2 nəfər, Meğridən 1 nəfər, Qəmərlidən 2 nəfər, Maarif komissarlığı tərəfindən isə 5 nəfər göndərilmişdi. Qəbul olunmuş 35 nəfər tələbədən 18 nəfəri oğlan, 17 nəfəri isə gənc qızlar idi. (25)

Ümumiyyətlə texnikumun təşkilində və müəyyən uğurlara nail olmasında bu tədris ocağının ilk direktoru olmuş Mehdi Kazımovun böyük xidmətləri olmuşdur. M.Kazımov 1890-cı ildə İrəvan şəhərində anadan olmuşdur. O, İrəvan oğlan gimnaziyasını bitirdikdən sonra

bir müddət İrəvandakı müsəlman oğlan məktəbinin müdiri və qızlar məktəbinin rus dili müəllimi kimi fəaliyyət göstərmişdir. 1918-ci ildə İrəvanda erməni daşnaklarının törətdikləri vəhşiliklər zamanı amansızcasına qətlə yetirilməkdən xilas olmaq üçün İrəvanı tərk edərək Gəncə şəhərinə köçməyə məcbur olmuşdur. Gəncədə məskunlaşdığı müddətdə burada Cavad bəy Cuvarlının təşkil etdiyi üç aylıq pedaqoji kursda oxuyub, öz biliyini daha da təkmilləşdirmişdir. Sonra tale onu Gədəbəyə çəkib aparmış, 1920-ci ildə orada oğlan məktəbinin direktoru, 1921-ci ilin ortalarına qədər isə Dəllərdə maarif şöbəsinin müdiri vəzifəsində çalışmışdır. Ermənistanda sovet hakimiyyəti quruldugdan sonra 1921-ci ilin sonlarında öz doğma vətəni İrəvana qayıtmışdır. 1922-ci ildə "Ermənistan" Xalq Maarif komissarlığı nəzdində təşkil olunmuş "Azlıqda qalan millətlər bürosu"nun müdiri təyin edilmişdir. 1923-cü ilin yanvar ayında Moskvada keçirilən azsaylı xalqların 1-ci Ümumrusiya qurultayında iştirak etmişdir. O, 1925-ci ildə İrəvan Yeni Türk Əlifba Komitəsinin sədr əvəzi, 1928-ci ilin sonlarına qədər isə büro üzvü kimi fəaliyyət göstərmişdir. M.Kazımov böyük istedada, gözəl təşkilatçılıq qabiliyyətinə malik insan idi. O, 1925-ci illərdə "Zəngi" qəzeti səhifələrində Azərbaycan dilinin qrammatikasına, tədrisinə, yeni türk əlifbasının əhəmiyyəti, təbliği və tətbiqinə dair bir sıra dəyərli məqalələrin, məktəb dərsliklərinin müəllifidir. 1924-cü ildən 1932-ci ilin ortalarına qədər, sonrakı dövrlərdə isə müxtəlif vaxtlarda İrəvan Türk

Pedaqoji texnikumunun direktoru vəzifəsində çalışmışdır. 1932-33-cü illərdə "Ermənistan" Proletar Yazıçıar Cəmiyyətinin azərbaycanlı bölməsinin məsul katibi olmuşdur. M.Kazımov ömrünün 50 ildən artıq müddətini, bütün qüvvəsini yorulmadan, fədakarcasına İrəvanda Azərbaycan maarifinin, mədəniyyətinin inkişafına sərf etmişdir.1949-cu ildə İrəvan Pedaqoji Məktəbinin Azərbaycanın Xanlar rayonuna köçürülməsi ilə əlaqədar M.Kazımov da ailəsi ilə birlikdə Xanlar rayonuna deportasiya edilmiş, 1949-50-ci illərdə həmin təhsil ocağında rus dili fənnini tədris etmişdir. 1951-53-cü illərdə indiki Azərbaycan Dövlət Pedaqoji Uni_ versitetində rus dili müəllimi vəzifəsində çalışmış, 1954-cü ildə Bakı şəhərində vəfat etmişdir.

Öz məhdud imkanları sayəsində azərbaycanlı məktəblərini pedaqoji kadrlarla təmin edən bu tədris ocağının müəyyən nailiyyətlərinə baxmayaraq müstəqil bina ilə təmin edilməsinə, tələbə kontingentinin sayının artırılmasına böyük ehtiyac var idi. M.Kazımovun hesabatlarından məlum olur ki, bu tədris ocağının müstəqil bina ilə təmin edilməsi və tələbə qəbulunun sayının artırılması üçün dəfələrlə EXMK-ya və müvafiq qurumlara etdiyi müraciətlər öz həllini tapmamışdır. Çünki "Ermənistan"ın şovinist dairələri aydın dərk edirdilər ki, azərbaycanlı pedaqoji texnikumunun müstəqil bina ilə təmin edilməsi onun böyük inkişafına və yeni keyfiyyət yüksəlişinə, milli pedaqoji kadrların hazırlanması işinin mərkəzinə gətirib çıxaracaqdır.

1931-ci ildə “Ermənistan”da 7-dən artıq erməni texnikumu fəaliyyət göstərirdi ki, onların da hər biri müstəqil bina, lazımi şəraitlə təmin edildiyi, bütün zəruri ehtiyacları ödənildiyi halda yeganə azərbaycanlı pedaqoji texnikumu isə bütün bu qayğılardan tamamilə məhrum idi. “Ermənistan”ın “bolşevik” cildinə bürünmüş daşnaq dairələri azərbaycanlı pedaqoji texnikumu üçün yeni binanın tikilməsi və avadanlıqla təchiz olunması məsələsini hər dəfə müxtəlif bəhanələrlə təxirə salırdılar. Yuxarıda qeyd etdiyimiz kimi elə varlığının ilk günlərindən texnikum çox böyük problemlər və çətinliklərlə üz-üzə qalmışdı. Amma texnikumda mövcud olan problemlərə baxmayaraq bu tədris ocağının fədakar kollektivi texnikumun saxlanması və möhkəmləndirilməsi üçün mübarizəni davam etdirirdi. Bu barədə “Qızıl Şəfəq” qəzeti səhifələrində erməni məktəblərindən fərqli olaraq, azərbaycanlı məktəblərinə və pedaqoji texnikuma “Ermənistan” höküməti tərəfindən lazımi köməkliklər göstərilmədiyi haqqında kifayət qədər kəskin yazılar və məlumatlar dərc olunmuşdur. Texnikumun rəhbərliyi bu təhsil ocağını tədris material bazası ilə təmin etmək, ali təhsilli pedaqoji kadrları cəlb etmək, tələbə kontingentinin sayını artırmaq və pedaqoji texnikumun daha ahəngdar fəaliyyət göstərməsi üçün imkanlar axtarıb tapırdılar. Texnikumun pedaqoji şürasının demək olar ki, hər iclasında bu tədris ocağının bütün sahələri ilə bağlı məsələlər müzakirə edilərək müvafiq qərarlar qəbul edilmişdir.

Pedaqoji texnikumun həyatında tələbə təşkilatının yaradılması və onun fəaliyyət göstərməsi də xüsusi yer tutur. Tələbə təşkilatı və onun sədri səsvermə yolu ilə bir il müddətinə tələbələr tərəfindən seçilirdi. Tələbə təşkilatı pedaqoji texnikumda tədris prosesində tələbələrin fəaliyyətini fəallaşdırmaq, tələbələrin mənafeyini müdafiə etmək, mədəni-kütləvi və.s tədbirlərin keçirilməsi işində nizamnamə çərçivəsində yaxından fəaliyyət göstərirdilər.

1931-ci ildə texnikumda yeni yaranmış tələbə təşkilatına pedaqoji texnikumun fəal tələbələrindən biri Nadir Talıbov rəhbərlik etmişdir. Sonrakı dövrlərdə isə Əbil Rizayev, Muxtar Bayramov, Budaq Budaqov və başqaları tələbə təşkilatının sədri olmuşlar.

Pedaqoji texnikumda kitabxananın təsis edilməsi də günün ən vacib və təxirəsalınmaz məsələlərindən biri olsa da, bu təhsil ocağının darısqal iki otaqdan ibarət olması buna imkan vermirdi. Bu da tədris prosesi ilə yanaşı tələbələrin bilik səviyyələrinin artırılmasına da öz mənfi təsirini göstərməyə bilməzdi.

Bütün bunlara baxmayaraq, texnikumun pedaqoji heyəti ilə yanaşı tələbə kollektivi də azərbaycanlı əhalinin savadlanması, təhsilə cəlb edilməsi üçün böyük səy göstərirdilər. Pedaqoji texnikumun tələbələri yay tətili dövründə azərbaycanlılar yaşayan bölgələrə gedir, orada savad kursları təşkil edir, onların savadlanmasına çalışırdılar. Pedaqoji texnikumun tələbələri Həsən Həsənov, Firudin Quliyev, Tamam Yusubova, Məhəmməd Əliyev, Səfəralı Məhərrəmov Meğridə, Nurəli Qurbanov,

Həbib İsmayılov, Əbil Rzayev, Cahangir Rüstəmov, Həsənalı Həsənov, Əyyub Babayev-Qafanda, Şıxzadə İrzayev, Heydər Məhəməd Əliyev, Nəzər Paşayev, Cəlil Əliyev-Vedibasarda. Nəsir Əliyev, Bəhlul Hüseynov Ağbabada savadsızlığın aradan qaldırılmasında çox böyük rol oynamışlar.

1931-ci ildə pedaqoji texnikumda müxtəlif fənlərin tədrisi ilə yanaşı "Musiqi" fənni də tədris olunurdu ki, həmin fənni də bu təhsil ocağının tar müəllimi İbrahim Mamedov tədris edirdi.

Məlumdur ki, icbari ibtidai təhsil sisteminin tətbiq edilməsi nəticəsində istər məktəblərin, istərsə də orada oxuyan şagirdlərin sayı xeyli artdığından, həmin təhsil ocaqlarında pedaqoji kadrlara da böyük tələbat var idi. Bu baxımdan azərbaycanlı məktəblərində müəllim kadrlarına olan tələbatı aradan qaldırmaq üçün pedaqoji texnikumun sonuncu kurs tələbələrinin hər il vaxtından əvvəl buraxılması bir zərurətə çevrilmişdi. 1931-ci ildə sentyabr ayının sonlarında pedaqoji texnikumun 3-cü buraxılışı olmuşdur ki, həmin məzunlar oktyabr ayının 1-dən qəza məktəblərində müəllimlik fəaliyyətinə başlamışlar. Əbülfət İbrahimin 1931-ci ildə "Qızıl şəfəq" qəzetində dərc etdirdiyi "Məcburi təhsil cəbhəsinə daha yeni 39 mübarizlər" adlı məqaləsindən məlum olur ki, 40 nəfər tələbədən 39 nəfəri pedaqoji texnikumu bitirməyə müvəffəq ola bilmiş, 1 nəfəri isə təhsil aldığı müddətdə texnikumdan xaric edilmişdir. Texnikumun 1931-ci il buraxılışında məzunlar arasında yalnız bir nəfər gənc qız

olmuşdur ki, bu da Sona Bağırova idi. Yeri gəlmişkən onu da qeyd edim ki, Sona Bağırova EPYC-nin azərbaycanlı bölməsinin gənc üzvü kimi İrəvanda Azərbaycan ədəbi-mədəni mühitinin inkişafında müəyyən rol oynamışdır. O, hələ pedaqoji texnikumda təhsil aldığı illərdə "Qızıl şəfəq" qəzeti səhifələrində bədii nümunələr çap etdirir, inqilabdan sonra İrəvanda yaranan Azərbaycan poeziyasının gənc aparıcı nümayəndələrindən biri kimi fəal iştirak edirdi.

1932-ci tədris ilində pedaqoji texnikuma tələbə qəbulu sayının artırılmasında mühüm dönüş baş verdi. Belə ki, texnikuma tələbə qəbulunun sayı əvvəlki illərə müqayisədə artaraq 60 nəfərə çatdırılmışdı. 1932-ci ildə pedaqoji texnikuma tələbə qəbulu bölgələr üzrə aşağıdakı kimi olmuşdur. Onlardan 5 nəfəri İrəvan, 4 nəfəri Ücmüədzin, 2 nəfəri Qəmərli, 2 nəfəri Axta, 4 nəfəri Qarakilsə, 8 nəfəri Vedibasar, 5 nəfəri Basarkeçər, 3 nəfəri Hamamlı, 3 nəfəri Allahverdi, 8 nəfəri Ağbaba, 5 nəfəri Qafan, 5 nəfəri Sisian, 3 nəfəri Gorus, 5 nəfəri isə Dilican bölgələrindən idi. (20)

Mənbələrin verdiyi məlumatlardan aydın olur ki, pedaqoji texnikumda əvvəlki illərdə olduğu kimi 1932-ci tədris ilində də dərslər vaxtında başlamamışdır.

Hər il dərslərin 25-30-gün gec başlaması burada tədris prosesi üçün lazımı şəraitin olmaması ilə bağlı olmuşdur.

Texnikumda laboratoriyalar və tədris üçün kifayət qədər zəruri dərs kitabları olmadığından dərslər bəzən

nəzəri keçirilirdi. Hətta tələbələrin məskunlaşdığı yataqxanada işıq olmadığından, tələbələr dərslərinə çıraq işığında hazırlaşmağa məcbur olurdular. Yuxarıda qeyd etdiyimiz kimi tələbə və müəllimlərin yaşayış şəraiti hədsiz dərəcədə ağır olduğu kimi, dərs keçməyə sinif otaqları da olmurdu. 1933-cü ildə Bəhlul Yusifov texnikuma direktor təyin olunduqdan sonra, bu tədris ocağının həyatında ciddi dönüş baş verir.

B.Yusifov 1903-cü ildə Vedibasarda anadan olmuşdur. O, 1920-ci ildə partizan hərəkatına qoşularaq, Abasqulu bəy Şadlinskinin yaratdığı "Qırmızı tabor"un tərkibində erməni daşnaklarına qarşı vuruşmuşdur. 1921-26-cı illərdə Vedidə müəllim işləmiş azərbaycanlı əhali arasında savadsızlığın aradan qaldırılmasında, gənclərin təhsilə cəlb edilməsində böyük rol oynamışdır. 1927-ci ildə Gümrü qəza komitəsinin Amasiya rayonunda təlimatcı vəzifəsində çalşmışdır. 1928-ci ildə Zaqafqaziya Komminist Universitetinə daxil olmuş, 1933-cü ildə oranı bitirdikdən sonra, elə həmin ildə İrəvan Türk Pedaqoji texnikumuna direktor təyin olunur. 1933-cü ildən 1942-ci ilədək pedaqoji texnikumun direktoru vəzifəsində çalışır. 1940-cı ildə təhsil sahəsindəki xidmətlərinə görə "Əməkdar müəllim" adına layiq görülür. 1942-43-cü illərdə Zəngibasar rayonu MTS-ın siyasi şöbə rəisi



**Bəhlul Yusifov**

vəzifəsində işləmişdir. 1944-46-cı illərdə yenidən İrəvan Pedaqoji məktəbə rəhbərlik etmişdir. 1944-46-cı illərdə yenidən İrəvan Pedaqoji məktəbə rəhbərlik etmişdir. 1946-cı ildə aspiranturaya daxil olur və 1952-ci ildə namizədlik dissertasiyasını müdafiə edərək tarix elmləri namizədi adına layiq görülür.(6) 1950-ci ildən Neft və Kimya İnstitutunda müəllim, dosent, kafedra müdiri vəzifələrində çalışmışdır. Ömrünün böyük bir hissəsini elmə, təhsilə, milli pedaqoji kadrların hazırlanması işinə həsr etmiş, gözəl təşkilatcı, böyük insan B.Yusifov 1984-cü ildə dünyasını dəyişmişdir.

B.Yusifov texnikuma direktor təyin olunduqdan sonra tədrisin keyfiyyətinin yüksəldilməsi, tədris üzrə proqramların dərs vəsaitlərinin əldə olunması, tələbə kontinentinin sayının artırılması sahəsində ciddi iş aparmışdır. Texnikumda tədris və ictimai həyatını, eləcə də digər məsələləri qaydaya salmaq üçün çox böyük işlər görülürdü. 1933-cü ilin ortalarından vəzifəsinin icrasına başlayan B.Yusifov qısa müddətdə tələbələrin paltar, ayaqqabı və.s ləvazimatlarla təmin edilməsinə, dəhlizdə və yerdə dərs keçmək kimi halların aradan qaldırılmasına, tələbələr üçün yeməkxana və burada olan 5 qrupun hər birinin xüsusi dərs otağı ilə təmin olunmasına nail ola bilmişdi. Texnikumda tələbə yataqxanası sarıdan da vəziyyət olduqca acınacaqlı idi. Balaca, basırıq, darısqal rütubətli bir otaqda 30-dan artıq tələbə yaşayırdı. Tələbələrin mədəni rahatlığı üçün minimum şərait belə yox idi. Texnikumun rəhbərliyi aydın dərk edirdi ki,



**Zəhra Abbasova**

təhsilin keyfiyətini və müvəfəqqiyət dərəcəsini qaldırmaq üçün bu tədris ocağının müstəqil bina ilə təmin edilməsinə kəskin zərurət var. Texnikum rəhbərliyinin və digər qeyrətli ziyalılarımızın milli iradəsi və səyi nəticəsində uzun müddətli gərgin mübarizədən sonra pedaqoji texnikum 1934-cü ildə müstəqil bina ilə təmin edildi. Beləliklə, texnikumun rəhbərliyi burada dərs demək üçün ali təhsilli müəllimlərin cəlb edilməsi məsələsini də təcili olaraq nəzərdən keçirib, bu işin də qaydaya salınmasına nail ola bilmişdi. Çünki texnikum ali təhsilli pedaqoji kadrlar sarıdan kifayət qədər təmin edilməmişdir. Qısa vaxt ərzində texnikumda dərs deyən ali təhsilli pedaqoji kadrların sayı nəzərə çarparaq dərəcədə artmışdı. 1934-cü illərdə pedaqoji texnikumda Azərbaycan dili və ədəbiyyatdan Nəsib Əfəndiyev, Müzəffər Nəsirli, Abbas Azəri, tarixdən-Nəzər Paşayev, pedaqogika və pedalogiyadan Tacirə Bağırova,



**Mamed Həsənov**



**Kərəm Abbasov**



**Müzəffər Nəsirli**

Zəhra Abbasova, fizika və riyaziyyatdan Mamed Həsənov və Kərəm Abbasov kimi işıqlı simalar dərs deyirdilər.

Texnikumda yüksək səviyyəli ali təhsilli pedaqoqların olması tədrisin keyfiyyətinin daha da yüksəlməsinə, erməni şovinizmi əhatəsində bütün çətinliklərə, maneələrə baxmayaraq, azərbaycanlı pedaqoji texnikumu təhsil sistemində öz uğurları ilə mövqeyini daha da möhkəmləndirə bilmişdi. Bu texnikum Cənubi Qafqazda ali məktəb səviyyəsində böyük uğur qazana bilmişdi. İrəvan Türk Pedaqoji texnikumu 1934-cü ildə ümumittifaq texnikumlar yarışında birinciliyi qazanaraq 7000 manat məbləğində pul mükafatına layiq görülmüşdür.



**Nəzər Paşayev**

Texnikumun məzunu olmuş, görkəmli alim akademik Budaq Budaqov milli pedaqoji kadrların hazırlanması işində böyük xidmətləri olmuş bu təhsil ocağı haqqında yazır: “İrəvan Pedaqoji məktəbi, oraya toplanmış müəllimlərin pedaqoji



**Tacirə Bağırova**

ustalığı, enksiklopedik biliyi və hazırlanan kadrların savadının pedaqoji məktəb səviyyəsindən universitet tələbələri səviyyəsinədək qaldırılması bu məktəbə haqlı şərəf, şöhrət, nüfuz gətirmişdi. İrəvan Pedaqoji məktəbinə daxil olmaq ən yüksək müsabiqəli ali məktəbə qəbuldan çətin idi. Məktəbdə olan daxili intizam, yığcamlıq, yüksək təhsil vermək ənənəsi, yaxşı oxuyanların hörmətini layiq olduğu səviyyəyə qaldırmaq bizi valeh edirdi”. (5, 186)



**İrəvan Pedoqoji məktəbinin yeni binası. 1934**

Texnikumun 4 mərtəbəli bina ilə təmin edilməsi tədrisi lazimi səviyyədə qurmağa əlverişli şərait yaratmışdı. Vaxtilə 1 tədris otağına malik olan texnikumda artıq 18 sinif otağı var idi. 2-ci və 3-cü mərtəbələrində dərslər keçirilir, 4-cü mərtəbəsi isə 75 nəfərlik yataqxana kimi

fəaliyyət göstərirdi. (25) Bundan başqa tələbələr üçün yeməkxana, idman zalı təşkil edilmiş, onların mədəni ehtiyacını ödəmək üçün bir kino aparatı alınmış, kino üçün böyük bir klub hazırlanaraq tələbələrin ixtiyarına verilmişdir. Bütün kabinet və laboratoriyalar müəyyən qədər avadanlıqla təchiz edilmişdir. Texnikumda fizika, kimya, biologiya, coğrafiya, hərbi və.s kabinet və laboratoriyaların olması dərslərin daha da keyfiyyətli keçirilməsinə və onların təcrübə ilə əlaqələndirilməsinə müsbət təsir göstərirdi. Texnikumda xüsusi sənətxana da fəaliyyət göstərirdi ki, bu da politexnik işlərini daha da gücləndirirdi. Tələbələrin maddi və məişət vəziyyətinin yaxşılaşdırılması, texnikumun maddi-texniki bazasının möhkəmləndirilməsi, inventar, avadanlıq və.s ləvazimatlarla təmin edilməsi bu tədris ocağının müvəffəqiyyət dərəcəsinin ildən-ilə artmasının nəticələrində də özünü göstərir.

1934-cü ildə texnikumun nəzdində həm də bir illik müəllimlər kursu açılmışdır ki, bu kursa da 36 nəfər qəbul edilmişdir. Onu da qeyd edək ki, hazırlıq kursları texnikumun yarandığı ilk illərdə də səmərəli fəaliyyət göstərirdi. Amma 1929-cu ildə həmin kursların fəaliyyəti dayandırılmış, 1934-cü ildə isə yenidən bərpa edilmişdir.

1934-cü ildə İbrahim Axundov texnikumun tədris işləri üzrə şöbə müdiri təyin olunur. Onu da qeyd edək ki, texnikumun yeni rəhbərliyinin səyi nəticəsində 1934-35-ci tədris ili üçün tələbə qəbulunun sayının artırılmasında da böyük irəliləyiş əldə edilmişdir. Belə ku,

texnikuma tələbə qəbulunun sayı xeyli artaraq 120 nəfərə çatdırılmışdır. Texnikumun rəhbərliyinin ciddi çalış-maları nəticəsində tədris prosesi üçün həlli vacib olan bir sıra məsələlər yüksək peşəkarlıqla həll edildiyindən 1934-cü tədris ilində dərslər vaxtında sentyabr ayının 15-də başlamışdır. (20)

Texnikumda kitabxananın yaradılması da tədris prosesinin uğurla davam etməsində və tələbələrin bilik səviyyələrinin, ümumi dünya görüşlərinin artmasında çox böyük rol oynamışdır. Məlumdur ki, hər hansı bir tədris müəssisəsində kitabxanasız keçinmək mümkün deyil. Texnikumun rəhbərliyi Azərbaycandan və digər başqa şəhərlərdən müxtəlif adda kitablar, qəzet və jurnallar alırdı ki, bununla da kitabxana fondu getdikcə daha da zənginləşirdi.

Bir sıra faktlar göstərir ki, pedaqoji texnikumun müəyyən uğurlara nail olmasında, pedaqoji kollektivlə yanaşı, tələbə heyətinin də rolu olmuşdur. Beləliklə, texnikum coşğun fəaliyyət göstərir, özünün pedaqoji kadrlar hazırlanması işinin öhdəsindən layiqincə gəlirdi. Hər qrupa təhkim edilmiş müəllimlər sinif rəhbəri kimi tələbələrin tədris nizam-intizam işlərinə rəhbərlik edir, zəif tələbələrlə müəyyən ardıcıllıqla iş aparırdı. Tələbələrin müvəfəqiyyət dərəcəsini yüksəltmək texnikumun həyatında ən mühüm məsələlərdən biri idi. 1935-ci tədris ilində pedaqoji texnikumun tələbələrinin müvəfəqiyyət dərəcəsinə dair rəqəmlər sübut edir ki,

əvvəlki illərə nisbətən bu göstərici daha da yüksələrək 95 faiz təşkil edir.

Bir sıra çətinliklərə baxmayaraq azərbaycanlı pedaqoji texnikumu 1934-35-ci tədris ilini uğurla başa vurmuşdu. 1935-ci ildə texnikumu 21 nəfər, bir illik müəllimlər hazırlığı kursundan isə 29 nəfər bitirmişdi (20) Həmin il pedaqoji texnikumu bitirənlər dövlət imtahanlarını gözəl göstəricilərlə başa vurmuşlar. Imtahanların nəticələri haqqında məlumatlardan aydın olur ki, Hüseyn Əliyev, Həsən Həsənov, Ağayəddin Telanov, Qulu Mahmudov, Tanrıverdi Qasımov və Lətif Göyüşov, Əli Mirzəyev dövlət imtahanlarını müvəfəqiyyətlə vermişdi. Yuxarıda adlarını qeyd etdiyimiz məzunlar hələ tələbəlik illərində texnikumun ictimai, mədəni həyatında fəal iştirak etdiklərinə görə tədris müəssisəsinin rəhbərliyi tərəfindən bir necə dəfə mükafata layiq görülmüşlər.

Texnikumun Pedaqoji şurası 1934-35-ci dərs ilinə yekun vurarkən tələbələrin müvəfəqiyyət dərəcəsinin yüksəldilməsində böyük əmək sərf etmiş müəllimlərdən 4 nəfərini və imtahanlarda yüksək bilik nümayiş etdirən tələbələrdən isə 16 nəfərini istirahət evinə göndərməklə mükafatlandırmışdır.

1935-ci ildə M.S.Ordubadi, M.Müşfiq, M.Hüseyn və başqalarından ibarət nümayəndə heyəti İrəvanda səfərdə olarkən Pedaqoji texnikumun müəllim və tələbə kollektivi ilə görüş keçirmişlər. M.S.Ordubadi texnikumunun müəllim və tələbə heyəti qarşısında çıxış edərkən bu tədris ocağının fəaliyyətini yüksək qiymətləndirərək demişdir:

“Türk Pedaqoji Texnikumu bizdə böyük intibalar yaratdı. Türk mədəniyyətinin nə qədər böyük inkişafda olduğunun canlı şahidi olduq”.

Ümumiyyətlə Azərbaycanın bir çox görkəmli ziyalıları Cəlil Məmmədquluzadə, Əli Nazim, Mir Cəlal, Yusif Vəzir Çəmənzəminli, Sabit Rəhman, Səməd Vurğun, Əbülhəsən, Mikayıl Rəfili, Süleyman Rüstəm və başqaları bu təhsil ocağının qonağı olmuşdur.

Pedaqoji şuranın iclaslarında naliyyətlərlə yanaşı mövcud nöqsanlar da müzakirə edilir və onların aradan qaldırılması üçün ciddi tədbirlər görülür. Pedaqoji şuranın 25 iyun 1935-ci il tarixli iclasında qəbul edilən qərarlarından biri də “Ermənistan” Xalq Maarif Komissarlığının inşaat şöbəsi tərəfindən texnikumda aparılan təmir işlərinin gecikdirilməsi ilə bağlı idi. Texnikumun yeni bina ilə təmin edilməsinə baxmayaraq burada təmir-tikinti işləri hələ də tamamlanmamışdır. Bu barədə məlumatlara texnikumun direktoru B.Yusifovun hesabatlarında da rast gəlinir. O, yazır: “Təhsil ilinə hazırlıq işlərində nöqsan cəhət məktəbin təmiratının gecikdirilməsidir. Bu səbəbdən məktəbə hələ su çəkilməmişdir. Qışa hazırlıq üçün məktəbin odun damı hələ hazırlanmamış, bir sıra yarımçıq işlər tikilib qurtarmamışdır. Xalq Maarif Komissarlığı göstərilən nöqsanların tezliklə aradan qaldırılmasına, gələcəkdə azərbaycanlı pedaqoji texnikumunun daha keyfiyyətli və bacarıqlı kadrlar hazırlanmasını təmin etməyə çalışmalıdır”. (21)

Amma bütün bunlara baxmayaraq texnikum qarşısına tədrisi keyfiyyətcə daha da yaxşılaşdırmaq, növbəti tədris ilinə hazırlıq prosesini vaxtında başa çatdırmaq, daha keyfiyyətli pedaqoji kadrlar hazırlamaq məqsədi qoymuşdu. Texnikumun rəhbərliyi milli pedaqoji kadrların hazırlanması məsələsinə ciddi fikir verirdi.

Mənbələrdə 1935-ci ildə Pedaqoji Texnikumu uğurla bitirən məzunlar arasında Lətifə Axundova, Feyzullah Ramazanov, Abbas Rzayev, Cəfər Əsgərov, İsmət Hacıyeva kimi məzunların adlarına rast gəlinir.

Texnikumda 1935/36-cı tədris ili üçün tələbə qəbulu ilə əlaqədar hazırlıq işləri aparılmağa başlamış, tam orta olmayan məktəbləri əla qiymətlərlə bitirən gəncləri daha çox texnikuma cəlb etmək üçün müəllimlərdən bir neçəsi rayonlara ezam edilmişdilər. Onu da qeyd etmək lazımdır ki, texnikumun nüfuzu ilbəil artdıqca bura qəbul olmaq istəyənlərin sayı da artırdı.

Texnikumun direktoru B.Yusifovun hesabatlarında 1935/36-cı tədris ilində texnikuma 175 nəfər tələbə qəbul olunacağı haqqında məlumat verilir. Sözsüz ki, bu rəqəm texnikuma tələbə qəbulunun əvvəlki illərlə müqayisədə ən yüksək göstəricisi idi. (21)

Amma məlum olmayan səbəblərdən B.Yusifov 1935-ci ilin iyul ayında texnikumun direktoru vəzifəsindən azad edilərək onun yerinə Mustafa Mustafayev direktor təyin edilir. Onu da qeyd edək ki, M.Mustafayev texnikumun direktoru vəzifəsində cəmi iki ay işləyə bil_ mişdir. O, "yoxlama komissiyası" adlandırılan qurum

tərəfindən aparılan yoxlama zamanı "ünsür" kimi aşkar olunaraq tutduğu vəzifədən azad edilərək repressiyaya məruz qalmışdır.

1935-ci ildə pedaqoji texnikumun nəzdində qiyabi şöbə yaradıldı. Qiyabi şöbənin yaradılmasında və inkişafında B.Yusifovun və M.Kazımovun böyük xidməti olmuşdur. Qiyabi şöbədə EXMK tərəfindən təsdiq olunmuş qaydalar əsasında, xüsusən maarif sahəsində çalışan adamlara qiyabi oxuyaraq təhsil almağa imkan yaratmaq nəzərdə tutulurdu.

1935/36-cı tədris ilində texnikuma bölgələr üzrə cəmi 175 nəfər tələbə qəbul edilmişdir. 1935/36-cı dərs ilinin əvvəlində texnikumda cəmi 11 qrupda 397 tələbə təhsil alırdı. (3) Göründüyü kimi əvvəlki illərlə müqayisədə texnikuma tələbə qəbulu, tələbələrin ümumi sayı nəzərə çarpacaq dərəcədə artmışdı.

1936-cı ilin yanvar ayında texnikumun direktoru vəzifəsinə yenidən B.Yusifov, katib vəzifəsinə isə Elyas Ramazanov təyin edilir.

Eyni zamanda texnikumun yeni rəhbərliyi 1936/37-ci tədris ilinə hazırlıq və avadanlıqla təchiz olunması və lazımi işləri davam etdirirdi. Onu da qeyd edək ki, hələ də bəzi fənnlər üzrə ali təhsilli müəllimlərin olmaması, sinif otaqlarının çatışmadığı bir vaxtda texnikumun 4 otağının erməni kukla teatrı tərəfindən zəbt edilməsi, dərsliklərin və dərs vəsaitinin çatışmaması tədris prosesinin gedişinə

mənfi təsir göstərsədə texnikum yaşayır və geniş fəaliyyət göstərən mədəni quruculuq qüvvəsinə çevrilirdi.

1936-cı ildə Pedaqoji Texnikum Pedaqoji Məktəb adlanır. Texnikumun rəhbərliyi tərəfindən bu tədris ocağında dərs demək üçün daha 4 ali təhsilli müəllim dəvət olunmuşdur. Ali təhsilli müəllim heyətinin sıralarının artması texnikumun ahəngdar fəaliyyəti üçün çox mühim şərt idi.

Pedaqoji məktəbdə tədris ləvazimatı, fizika, kimya kabinetlərinin təchizatı, kitabxananın ədəbiyyatla zənginləşdirilməsi və s. sahələrdə də xeyli işlər görülmüşdür. Bundan başqa 319 ədəd idman forması da alınaraq tələbələrə paylanmışdır. 1936-cı dərs ilində 3000 manatlıq tədris ləvazimatı, 4000 manatlıq isə yeni mikroskoplar alınmış, yeni açılan siniflərin inventarla təmin edilməsi üçün 60 stol və stul, 12 yazı taxtası, tələbə yataqxanası üçün asılqan, kravat, tumbuçka və s. inventarların alınmasına 24000 manat vəsait xərclənmişdir.

Pedaqoji məktəbin rəhbərliyinin Meğri, Dilican, Sisian və s. azərbaycanlılar yaşayan bölgələrə ezam etdiyi bir qrup müəllimin səyi və təbliği sayəsində bu tədris ocağına qəbul olmaq üçün ərizə verənlərin sayı 245 nəfərə çatdırılmışdır. Amma onlardan 120 nəfəri pedaqoji məktəbin tələbəsi hüququnu qazana bilmişdir.

1936-cı dərs ilində pedaqoji məktəbin qiyabi, əyani və bir illik müəllimlər hazırlığı kursuna qəbul olunanların sayı cəmi 165 nəfər olmuşdur. (3) Texnikuma qəbul olunmaqda qızlara üstün hüquqlar verilmişdir ki, bununla da tələbə qızların sayı 40 nəfərə çatdırılmışdır.

1936-cı ildə texnikumda tələbələrin ideya-siyasi səviyyəsini yüksəltmək, onların istedad və bacarıqlarını, yaradıcılıq qabiliyyətlərini inkişaf etdirmək, onları cəmiyyətin fəal qurucularına çevirmək məqsədi ilə tar, foto, alman dili, rus dili, coğrafiya, xor, rəqs və s. dərnəklər yaradılmış və bu dərnəklərə xeyli sayda tələbə cəlb edilmişdir. Bu dərnəklərə texnikumun direktoru Mehdi Kazımov, müəllimlərdən Əziz Əzizov, Nəzər Paşayev, İsmayıl Şükürzadə, tələbələrdən 3-cü kurs tələbəsi Əsəd Mamedov, 4-cü kurs tələbəsi Məsim Əkbərov rəhbərlik edirdilər. (20) Mənbələrin verdiyi məlumatlarda həmin dərnəklərdə öz bilik səviyyələrini yüksəltmək üçün müntəzəm iştirak edən tələbələrdən Bulud Zeynalov, Qurban İsmayılov, Qasım Əsgərov, Əhəd Rəcəbov, Tapdıq Əmiraslanov, Səməd Qarayev, Pərviz Tağızadə, Əbülfət İsmayılov, Cabbar Quliyev, Teymur Haqverdiyev, Cabbar Həsənov, Ələsgər Əbdilov, Möhsün İbrahimov, Məsmə Məmmədova, Foqiyə Əsgərova, Möhsün Abbasov, Abbas Ağayev, Hüseyn Mamedov, Əsgər Rzayev, Müzəffər Namazov, Bəhram Rzayev, Zübeydə Həsənova,Əhməd Kələşov, Gəncəli Quliyev, Hidayət Hacıyev, Ələsgər Mustafayev və başqalarının adlarına rast gəlinir.

Onu da qeyd etmək lazımdır ki, pedaqoji məktəbin bir sıra uğurlara nail olmasında adlarını yuxarıda qeyd etdiyimiz və etmədiyimiz fəal tələbələrin də müəyyən rolu vardır. Həmin tələbələr gözəl oxumaqla yanaşı həm İrəvanda və eləcə yerlərdə azərbaycanlıların yeganə mətbuat orqanı olan “Qızıl şəfəq” qəzetinin yayılması və

abunə yazılışı işində milli maarifimizin inkişafında da fəal iştirak edirdilər. “Qızıl şəfəq” qəzetinin redaksiya heyəti bu mətbuat orqanına xeyli sayda abunə yazdıran tələbələrdən Teymur Haqverdiyevi, Cabbar Həsənovu, Möhsün İbrahimovu, Əsgər Abbasovu, Rüstəmi müxtəlif hədiyyələrlə mükafatlandırmışdır.

Qeyd etmək lazımdır ki, tələbələr arasında siyasi və mədəni-kütləvi işlərə ciddi fikir verilirdi. Məlumdur ki, sovet hakimiyyəti qurulduqdan sonra bütün sahələrdə olduğu kimi təlim-tərbiyə işi də mövcud dövrün tələbləri və prinsipləri əsasında qurulmağa başladı.

Tələbələrin ideya-siyasi tərbiyəsinə pedaqoji məktəbin ilk partiya təşkilatı rəhbərlik edirdi. Tələbələrin ideya-siyasi baxışlarının formalaşmasında elmi və siyasi mövzularda oxunan məruzələrin də böyük rolu olurdu. Eyni zamanda hərbi və bədən tərbiyəsi fənlərinin tədrisinə də xüsusi fikir verilirdi. Hərbi vətənpərvərlik tərbiyəsi müxtəlif formalarda aparılırdı. Pedaqoji məktəbin tələbələri hərbi biliklərə ruh yüksəkliyi ilə yiyələnirdilər.

Tələbələr atıcılıq idmanına daha çox maraq göstərirdilər. 1936-cı ildə 120 tələbə “Voroşilov nişancısı” adını almışdı.

30-cu illərdə, xüsusilə 1937/38-ci illərdə bütün SSRİ-də həyata keçirilən repressiyalar İrəvan pedaqoji məktəbinin müəllim və tələbələrindən də yan keçməmişdir.

Onu da qeyd edək ki, bu repressiyalarla əlaqədar ermənilərin azərbaycanlılara qarşı təzyiqi müxtəlif bəha_nələrlə daha da güclənmişdi.


JEREVAN AZƏRBAJCANLЬ PED.
MƏKTƏBİNİN IX- BURAXЬLЬŞЬ
1937

1937/38-ci illərdə pedaqoji məktəbin müəllimlərindən Ələşrəf Bayramov, Abbas Azəri, Məhərrəm Əhmədov, tələbələrdən Rza Əli bəy oğlu, Mikayıl Əliyev, Əli Xəlilov, Mirağa Seyidov, Xalid Əfəndiyev, Məhəmməd Rzayev, Məhərrəm Xəlilov, İdris Hüseynov, Əkbər Məşəmməd Bağır Ağa oğlu, Ağayar Həsənov və başqaları repressiyaya məruz qalmışdır. Amma bütün bunlara baxmayaraq pedaqoji məktəb 1936/37-ci dərs illərində müəllim kadrlarının hazırlanması işində daha çox uğurlara nail olmuşdu.

Ümumiyyətlə, 1936/40-cı illər pedaqoji məktəbin həyatında mühüm mərhələ təşkil edir. Bu bir tərəfdən tələbə kontingentinin artırılması ilə bağlıdırsa, digər tərəfdən isə ali təhsilli ixtisaslı müəllimlərin pedaqoji məktəbə cəlb edilərək fəaliyyət göstərmələri ilə bağlı idi.

Həmin illərdə Azərbaycan dili və ədəbiyyatını Bəhman Xudiyev, Musa Tağıyev, kimyadan Cabbar Məmmədov, hərbidən Qabustov, bədən tərbiyəsindən Bəşir Məmmədov, fizika və riyaziyyatdan Cəlal Əsgərov, Təvəkkül Kərimov, Əziz Əzizov, Əbülfəz Abasquluyev, Sadiq Heydərzadə, Rza Məmmədov, Əli Heydərov tarixdən Abbas Orucov və başqa yüksək səviyyəli müəllimlər tədris edirdilər. 1938/40-cı illərdə isə pedaqoji məktəbin dərs hissə müdiri vəzifəsini İsmayıl İsmayılov icra edirdi. Onu da qeyd etmək lazımdır



**Təvəkkül Kərimov**

ki, bu müəllimlər bilik verməkdə əvəzsiz pedaqoqlar idilər.

Ümumiyyətlə 15 il ərzində məktəbdə dərs deyən müəllimlərin sayı xeyli artmış, həm də keyfiyyətcə yaxşılaşmışdır. Texnikumun yarandığı ilk illərdə burada 4 müəllim olduğu halda, 1940-cı ildə 26 müəllim olmuşdur ki, onların da əksəriyyəti ali təhsilli idi. (25) Bütün bunlar hamısı tədrisin keyfiyyətcə yaxşılaşmasına öz müsbət təsirini göstərirdi.



Əziz Əzizov

Belə ki, 1938/39-cu dərs ilində 2 il eyni sinifdə qalanların sayı 8 nəfər olduğu halda, 1939/40-cı dərs ilində isə 3 nəfər olmuşdur. (9)



Sadiq Heydərzadə

1939-cu dərs ilində əlaçı tələbələrin sayı 21 nəfər olduğu halda, 1940-cı ildə əlaçı tələbələrin sayı 34 nəfər olmuşdur. (9) Mənbələrdə əlaçı tələbələrdən Həbib Həsənov, Zəhra Hüseynova, Əli Qədiməliyev, İsrafil Şahverdiyev, Muxtar Bayramov, Fərman Həsənov, Oruc Zey_nalov, Zeynal Zeynalov, Hüseyn Məm_ mədov, Cəfər Paşayev, Firudin



Abbas Orucov


ПРОЛЕТАРИИ ВСЕХ СТРАН, СОЕДИНЯЙТЕСЬ!
XI ВЫПУСК ЕРЕВАНСКОГО АЗЕР. ПЕД. УЧИЛИЩА 1938-39 уч. г.


**Yusif Kazımov**

Nəbiyev, Eyvaz İsmayılov, Müseyib Allahverdiyevin adlarına rast gəlmək olur.

1940-cı ildə pedaqoji məktəbdə oxuyan qızların da sayı 50 nəfər olmuşdur ki, onlardan da Nəcibə Fərhadova, Ceyran Zeynalova, Zəhra Hüseynova kimi əlaçı tələbələrin adlarına rast gəlinir. Onu da qeyd edək ki, Zəhra Hüseynova həm də İrəvan şəhər sovetinin deputatı idi.

Məlumdur ki, İrəvan azərbaycanlı pedaqoji məktəbinin yaradılması Qərbi Azərbaycanda yaşayan azərbaycanlıların həyatında mühim hadisə idi. Amma bir sıra mənbələrdə pedaqoji məktəbin yaranması haqqında müxtəlif fikirlərə rast gəlinir. Bir çox mənbələrdə 1925-ci və 1926-cı illərdə yaradıldığı bildirilir. Əldə etdiyimiz mənbələr təsdiq edir ki, İrəvan azərbaycanlı pedaqoji məktəbi 1924-cü ilin oktyabr ayının 15-də açılmışdır. (24) Buna baxmayaraq pedaqoji məktəbin yaranma tarixi rəsmi şəkildə 1925-ci ildən götürüldüyündən bu tədris ocağının 15 illik yubileyi 1940-cı ildə dekabr ayının 6-da məktəbin böyük iclas zalında təntənəli şəkildə qeyd edilmişdir. Yubiley mərasimində bir sıra qurumların nümayəndələri də iştirak etmişdi. Yubiley mərasimində pedaqoji məktəbin direktoru, əməkdar müəllim Bəhlul Yusifov bu tədris ocağının 15 ildə keçdiyi şərəfli yol haqqında geniş məruzə etmişdir. Məktəbin müəllim və


XIII ВЫПУСК АЗ. ПЕД. УЧИЛИЩА
1940 - 41 уч. года

tələbələrindən bir neçəsi çıxış edərək pedaqoji məktəbin 15 ildə əldə etdiyi uğurlardan ətraflı söhbət açmışlar. (9)

Pedaqoji məktəbin ünvanına bir sıra yerlərdən o cümlədən İrəvanda Azərbaycan dilində yeganə mətbuat orqanı olan "Sovet Ermənistan"ı qəzetinin redaksiya heyəti və bölgələrdə fəaliyyət göstərən bir sıra qabaqcıl təhsil işçiləri adından da təbriklər gəlmişdi.

Yubiley mərasiminin rəsmi hissəsindən sonra məktəbin xor dərnəyinin və Cəfər Cabbarlı adına İrəvan azərbaycanlı teatrının solistləri Nəcibə Səfərovanın və N.Əlixanovanın iştirakı ilə geniş konsert proqramı olmuşdur.

"Sovet Ermənistan"ı qəzeti pedaqoji məktəbin 15 illiyi münasibəti ilə yubiley səhifəsi buraxmışdır ki, burada da məktəbin direktoru Bəhlul Yusifovun, ilk partiya təşkilatının sədri Əli Heydərovun, riyaziyyat müəllimi Mamed Həsənovun, dərs hissə müdiri İsmayıl İsmayılovun, məktəbin ilk məzunu olmuş Adil Axundovun, 3-cü kurs tələbəsi Muxtar Bayramovun məqalələri dərc olunmuş və pedaqoji məktəbin 15 illik inkişaf yolu əks olunmuşdur. (25)

B.Yusifov "15 illik yubiley" adlı məqaləsində yazır: "1925-ci ildə yeni təşkil olunarkən burada 30 nəfər tələbəni əhatə edən bir sinif otağı olduğu halda, 1940/41-ci dərs ilində 400-dən çox tələbəni əhatə edən 18 sinif otağı vardır. Yalnız 1940/41-ci dərs ilində məktəbə 232 tələbə qəbul olunmuşdur". (25)

Ümumiyyətlə İrəvan azərbaycanlı pedaqoji məktəbi

15 il ərzində azərbaycanlı məktəbləri üçün 1228 nəfər müəllim buraxmışdır ki, bunlardan 242 nəfəri qiyabi 150 nəfəri isə bir illik müəllimlər hazırlığı kursunun məzunları idi.

Məktəbin ilk məzunu olmuş Adil Axundovun təbrikində oxuyuruq: "Mənim gəncliyimin çiçəklənməsi tarixi İrəvan azərbaycanlı pedaqoji məktəbinin açılması ilə əlaqədardır. Mən pedaqoji məktəbə qəbul olunduğum zaman iclaslarda çıxış etməyi arzu edirdimsə də fikirlərimi izah edə bilməyəcəyimdən utanaraq dinməz-söyləməz durardım. Çox keçmədi ki, mən özümü doğrultdum. Məktəbin dram dərnəyinin aktiv həvəskarlarından olaraq bir sıra pyesaların qoyuluşunda mühüm rollar ifa etdim və bundan sonra iclaslarda danışmağı da bacardım.

Mənim ədəbiyyata olan marağım da bu məktəbdə oxuduğum zamandan artmışdır. Zəif və özgələrini bir o qədər də maraqlandırmayan bir neçə şeirimi bu məktəbin skamyaları arxasında oturaraq yazmışam. Məktəbin birinci buraxılışı münasibətilə yazdığım və mətbuatda dərc olunan "Kəndə gedirəm" sərlövhəli şeirimin temasını da mən bu məktəbdən almışam. Pedaqoji məktəbdə keçirdiyim günlər mənim üçün əziz və unudulmazdır". (25)



**İsmayıl İsmayılov**

Yeri gəlmişkən onu da qeyd edim ki, məktəbin ilk məzunlarından

olmuş Adil Axundovun İrəvanda Azərbaycan ədəbi-mədəni mühitinin inkişafında böyük rolu olmuşdu. A.Axundov Vedibasarda anadan olmuşdur. O, 1926-cı illərdə pedaqoji məktəbdə oxuduğu müddətdə "Zəngi" qəzetində bədii nümunələr çap etdirir və eyni zamanda İrəvanın ədəbi-mədəni, ictimai və siyasi həyatında fəal iştirak edirdi. O, 1927-ci ildə yaradılmış Ermənistan Proletar Yazıçılar Cəmiyyətinin azərbaycanlı bölməsinin fəal üzvü idi.

Adil Axundov 1930-cu illərdə Amasiya rayonunda müəllim, 1935-ci illərdə Vedibasarda nəşr olunan "Bolşevik surəti" qəzetinin baş redaktoru, 1940-cı illərdə "Sovet Ermənistan" qəzetinin iqtisadiyyat şöbəsinin müdiri, 1945-ci illərdə Zəngibasar rayon maarif şöbəsinin müdiri və s. vəzifələrdə çalışmışdır.



**Adil Axundov**

1948-50-ci illərdə Qərbi azərbaycanlıların deportasiyasından sonra Adil Axundov Azərbaycan Respublikasının Qasım İsmayılov rayonunda bir müddət maarif şöbə müdiri vəzifəsində çalışmışdır.

Ümumiyyətlə azərbaycanlı pedaqoji məktəbinin bir çox məzunlarının Qərbi Azərbaycanda milli maarifimizin, ədəbiyyatımızın, incəsənətimizin inkişafında və formalaşmasında böyük xidmətləri olmuşdur.

Vaxtı ilə Qərbi Azərbaycanda məsul vəzifələrdə

çalışmış Zəngibasar rayon maarif şöbəsinin müdiri Adil Axundov, Basarkeçər rayon maarif şöbəsinin müdiri Tapdıq Əmiraslanov, pedaqoji məktəbin dərs hissə müdiri İsmayıl İsmayılov, İrəvan Əzizbəyov adına tam orta məktəbin direktoru Tacirə Bağırova, Vedi rayon partiya komitəsinin katibi Məmməd Məmmədov, əməkdar rəssam Cabbar Quliyev Ermənistan SSRİ Ali məhkəməsinin kollegiya üzvü Yaqub Bayramov, əməkdar müəllimlər – İdris Mahmudov, Heydər Əliyev, Amasiya rayon maarif şöbəsinin müdiri Cəlil Əliyev, Şəfiqə Məhərrəmova ordenli müəllimlərdən – Məcid Əliyev, Oruc Abbasov, Məmməd Həsənov, şair Tahir Abbasov və başqaları pedaqoji məktəbin məzunları olmuşlar.

Böyük Vətən Müharibəsi illərində pedaqoji məktəbin müəllim və tələbələrindən də cəbhəyə gedənlər oldu. Müharibənin sərt reallıqları pedaqoji məktəbin fəaliyyətini də mövcud dövrün qaydalarına uyğunlaşdırmağı zəruri edirdi. Həmin dövrdə hərbi və bədən tərbiyəsi fənlərinin tədrisinə ciddi fikir verilirdi. Hər yerdə olduğu kimi pedaqoji məktəbdə də müəllim və tələbələr arasında hərbi hazırlıq və kütləvi müdafiə işi nümunəvi qurulmuşdu. Tələbələrdən 250 nəfəri I və II dərəcəli hərbi hazırlıq normasını uğurla vermişdir. 1941/42-ci tədris ilində pedaqoji məktəbdə xeyli sayda tibb bacısı, Voroşilov atıcısı və bəzi sahələr üzrə təlimatlar hazırlanmışdı. Həmin illərdə pedaqoji məktəbdə hərbi fənni Qalustov, bədən tərbiyəsi fənnini isə Bəşir Məmmədov tədris edirdilər.

Böyük Vətən Müharibəsinin əvvəllərində hər yerdə olduğu kimi pedaqoji məktəbdə də ağır vəziyyət yaranmışdır. Müəllim və tələbələrdən bəzilərinin cəbhəyə getməsi azərbaycanlı məktəbləri üçün pedaqoji kadrların hazırlanması işini çətin vəziyyətə salmışdı. Amma bütün bunlara baxmayaraq, pedaqoji məktəb fəaliyyətini dövrün tələblərindən doğan dəyişilikləri dərk edərək inamla davam etdirirdi.

1941/42-ci tədris ilində pedaqoji məktəbin tədris-proqram, siyasi tərbiyə işi, müəllim və tələbə heyəti arasında əmək intizamını möhkəmləndirmək və s. sahələrdə ciddi tədbirlər görüldü. Mənbələrdən məlum olur ki, həmin illərdə pedaqoji məktəbdə imtahan sessiyaları daha yüksək tələbkarlıq şəraitində keçirilmişdir.

Müharibə şəraitində pedaqoji kadrlara yenidən böyük ehtiyac əmələ gəldi və bu ehtiyacı ödəmək üçün hər yerdə olduğu kimi tezliklə pedaqoji məktəbdə də qiyabi təhsilin yenidən təşkilini və inkişafı məsələsini qarşıya qoydu. Müharibə illərində qiyabi təhsilə xüsusi əhəmiyyət verildiyindən qiyabi şöbələrin işinə ciddi diqqət yetirilirdi. Qiyabi təhsil alan tələbələrin ədəbiyyatla və s. ləvzimatlarla təmin edilməsi, onlara vaxtlı-vaxtında məsləhət saatlarının ayrılması və s. sahələrdə yardım göstərilirdi.

Müharibə illərində hər yerdə olduğu kimi pedaqoji məktəbdə də aktual siyasi mövzularda elmi konfranslar və tədbirlər keçirilirdi. 1940-cı ildə “Bir ölkədə sosializmin qalibiyyəti” adlı konfransda 14 məruzə dinlənilmişdir.

“Dünya iqtisadi krizisi” və s. mövzularda da konfranslar təşkil edilirdi. Bu konfrans və tədbirlər əsasən məktəbin partiya təşkilatının rəhbərliyi ilə keçirilirdi.

İrəvan azərbaycanlı pedaqoji məktəbinin qiyabi şöbəsi də işini mövcud dövrün tələblərinə uyğun qururdu. Məktəbin qiyabi şöbəsinin illik təhsil haqqı 100 manat idi.

1941/42-ci illərdə Pedaqoji məktəbin katibi vəzifəsində çalışmış Qulam Fərhadovun da qiyabi şöbənin təşkilində və fəaliyyətində böyük xidmətləri olmuşdur.

Yeri gəlmişkən onu da qeyd edim ki, Qulam Fərhadov İrəvan gimnaziyasının məzunu olmuş, inqilabdan sonra İrəvanda Azərbaycan mətbuatının inkişafında və yeni əlifbanın təbliğində və tətbiqində böyük xidmətləri olmuşdur.

1946-cı ildə B.Yusifov texnikumun direktoru vəzifəsindən azad edilir. Onun yerinə İrəvan azərbaycanlı Kənd Təsərrüfatı Texnikumunun direktoru Həbib Məhəmmədzadə təyin edilir. O, bu vəzifədə 1947-ci ilə qədər işləmişdi. Məlumat üçün onu da qeyd edək ki, Həbib Məhəmmədzadə İrəvanın məşhur Məhəmmədzadələr nəslinin nümayəndələrindən biri idi. Sonrakı tədris illərində pedaqoji məktəbin qazandığı nailiyyətlər sırasında bilavasitə onun direktoru istedadlı, geniş dünyagörüşlü, gözəl təşkilatçı



**Həbib Məhəmmədzadə**



Surə Babayeva

Həbib Məhəmmədzadənin də böyük xidmətləri vardır. Həbib Məhəmmədzadənin ciddi fəaliyyəti sayəsində 1943/44-cü dərs ilində məktəbdə bir sıra üstünlüklər əldə edilmişdi. Qısa müddət ərzində məktəbin yataqxanası əsaslı şəkildə yenidən qaydaya salınmış, yeməkxana, kitabxana və s. məsələlərlə bağlı problemlər aradan qaldırılmışdı.

Mənbələrdə məktəbin partiya, komsomol və həmkarlar təşkilatlarının pedaqoji məktəbi mədəni-maarif ocağına çevirmək üçün qızğın fəaliyyət göstərdikləri və yüksək tədris keyfiyyəti uğrunda dönüş yaradıldığı məlum olur. Və məktəbdə nizam-intizam məsələsi sahəsində köklü dəyişikliklərin olduğu barədə məlumatlara da rast gəlinir.



Əziz Nağıyev



Zaman Vəliyev

Qanlı-qadalı müharibə illərindən sonra müəllim və tələbə gənclərdən bəziləri pedaqoji məktəbin auditoriyalarına qayıtdılar. Məktəbin siyasi və təlim-tərbiyə işinin təşkilində

böyük həyat təcrübəsi olan həmin müharibə iştirakçılarından da səmərəli istifadə olunurdu.


G.Meydiyev

Pedaqoji məktəbin müəllim və şagirdləri həm də İrəvanın ictimai və siyasi həyatında fəal iştirak edirdilər.

1946-cı ilin sənədlərində müəllimlərdən Zərri Qurbanova, Əkbər Əkbərov, tələbələrdən Budaq Budaqov, Rəşid Hətəmov, Xatın Mustafayeva, Roza Allahverdiyeva və başqalarının ictimai fəallığı haqqında məlumatlara da rast gəlmək olur.

Yuxarıda qeyd etdiyimiz kimi bir sıra çətinliklərə baxmayaraq, Böyük Vətən Müharibəsi illərində pedaqoji məktəb öz işini inamla davam etdirmiş və pedaqoji kadrların hazırlanması vəzifəsinin öhdəsindən layiqincə gəlmişlər.

Beləliklə tələbələrin sayı və eyni zamanda müvəffəqiyyət göstəriciləri surətlə artır, məktəbin rəhbərliyini razı salırdı.


Yusif Ramazanov

Yuxarıda qeyd etdiyimiz kimi pedaqoji məktəbdə qiyabi şöbə fəaliyyət göstərirdi ki, bu şöbədə də Vedibasar, Amasya, Basarkeçər, Zəngibasar, Qafan, Sisian və azərbaycanlılar yaşayan bölgələrdən də tələbələr var idi.

Əvvəlki illərdə olduğu kimi 1947-ci il iyunun 25-də başlanan yay sessiyasında 171 nəfər tələbə iştirak



**Pedaqoji Texnikumun II kurs tələbələri. 1947-ci il. İrəvan**

etmişdir.

Məktəbin direktoru Həbib Məhəmmədzadənin ciddi fəaliyyəti sayəsində İrəvanın qabaqcıl azərbaycanlı müəllimləri cəlb edilmiş, tələbələr lazımi dərs ləvazimatı və əyani vəsaitlə təmin edilmişdi.

Tədris-tərbiyə işlərində məktəbin dərs hissə müdiri Həbib Əkbərovun da xidməti təqdirə layiqdir. Dərs və imtahan cədvəlinin vaxtında tərtib edilməsi, qiyabi şöbənin yay imtahan sessiyasının mütəşəkkil keçməsinə zəmin yaratmışdı. Qiyabi şöbənin birinci kursun 23 tələbəsindən 5 nəfər, ikinci kursun 56 tələbəsindən 2 nəfər,

üçüncü kursun 91 tələbəsindən 7 nəfər imtahanlara bu_ raxılmamışdı.

Birinci və ikinci kursların yoxlama nəticələri qənaətbəxş olmuş, üçüncü kursun 91 nəfər tələbəsindən 50 nəfəri isə yüksək qiymətlərlə yay imtahan sessiyasını başa vuraraq məktəbin qiyabi şöbəsini bitirməyə nail ola bilmişdi.  36 nəfər isə 1-2 ikmalla şərti qurtarmış, 5 nəfər isə eyni sinifdə qalmışdı. (4)

Pedaqoji məktəbin qiyabi şöbəsini əla qiymətlərlə bitirən 10 nəfər isə ali məktəblərə daxil olmaq hüququ qazana bilmişdir.

Qeyd etmək lazımdır ki, pedaqoji məktəbin rəhbərliyi qiyabi şöbədə də tədrisin keyfiyyətini lazımi səviyyəyə qaldırmağa ciddi səy göstərsə də amma yay imtahan sessiyasının nəticələri tələbələrin hələ də lazımi qədər öz üzərində çalışmadıqlarını göstərmişdir.



**Həbib Əkbərov**

Məktəbin rəhbərliyi növbəti tədris ili üçün qiyabi təhsil alan tələbələri lazımi qədər dərslik, dərs vəsaiti və s. ləvazimatlarla təmin edilməsi və onların üzərində nəzarəti gücləndirməyi qərara almışdı. Qiyabi tələbələr kömək məqsədilə məsləhət saatları təşkil olunmuş və onlarla müntəzəm aparılan işlər uğurla həyata keçirilirdi.

İrəvan azərbaycanlı pedaqoji məktəbi yarandığı gündən 1947-ci ilin ortalarına qədər 1370 nəfər orta təhsilli pedaqoji kadr buraxmışdır.

Pedaqoji məktəbin fəaliyyətini ardıcıl izlədikdə məktəbin müəllimlərindən Mehdi Kazımovun, Mamed Həsənovun, Əyyub Babayev, Raziyə İsmayılovanın, Sadiq Heydərzadənin, Zərri Qurbanovun, Təvəkkül Kərimovun, Həbib Əkbərovun, Hüseyn Əliyevin, Cəfər Ələkbərovun Surə (Şura) Fərhadovun, Raziyə Abdullayevanın və başqalarının fədakar əməyi sayəsində tələbələrin yüksək təhsil səviyyəsi təmin edilirdi.



**Əsgər Cəfərov**

1947-ci tədris ilində pedaqoji məktəbin sonuncu kurs tələbələrinin buraxılış imtahanı iyun ayının 2-də olmuş, 62 nəfər tələbə imtahanları uğurla verərək məzun adını qazanmışdı. (4)

1947-ci ildə Həbib Məhəmmədzadə məktəbin direktoru vəzifəsindən azad edilərək onun yerinə coğrafiya müəllimi Əsgər Cəfərov direktor təyin edilmişdir. Amma Əsgər Cəfərov pedaqoji məktəbin direktoru vəzifəsində cəmi bir il 6 ay işləyə bilmişdir.



**Cəfər Ələkbərov**

1948-ci ilə qədər fəaliyyət


ЕРЕВАН Азәрбайҹанлы Педагожи Мәктәбинин
XX БУРАХЫЛЫШЫ 1947-48



Şura Fərhadova

göstərən İrəvan Azərbaycanlı Pedaqoji məktəbi təkcə tədris müəssisəsi kimi deyil, eyni zamanda Qərbi Azərbaycanda ədəbiyyatımızın, mədəniyyətimizin, incəsənətimizin inkişafında, formalaşmasında və qorunmasında çox böyük rol oynamışdır. Bolşevik cildinə girmiş erməni daşnaklarının məkrli siyasəti nəticəsində təhsil tariximizin ən şanlı səhifələrindən birini təşkil edən böyük, şərəfli yol keçmiş bu təhsil ocağı da kollektiv şəkildə deportasiyaya məruz qalaraq 1949-cu ildə Azərbaycanın Xanlar rayonuna köçürülmüş, 1972-ci ilə qədər orada fəaliyyət göstərmişdir



Rəziyə İsmayılova


XXII Выпуск Ханларского Педа-гогическое училища!
1950 1951 уч. г.

# PEDAQOJİ MƏKTƏBİN GÖRKƏMLİ MƏZUNLARINDAN BİR QİSMİ

## Budaq Budaqov



Azərbaycanın görkəmli alimi, AMEA-nın həqiqi üzvü, coğrafiya elmləri doktoru, professor, Budaq Əbdüləli oğlu Budaqov 1928-ci ildə "Ermənistan"ın Zəngibasar rayonun Çobankərə kəndində anadan olmuşdur. O, 1940-cı ildə rayonun Mehmandar kəndindəki natamam orta məktəbi bitirdikdən sonra 1941-ci ildə İrəvan Azərbaycanlı Pedaqoji məktəbinə daxil olmuşdür. Müharibənin



*İrəvan Pedaqoji Texnikumunun tələbələri. İrəvan şəhəri. 1947-ci il. Ayaq üstə duranlar: soldan-sağa, altıncı B.Ə.Budaqov*



**Budaq Budaqov solda, Əliyev Mirisa ortada, Tapdıq Həsənov sağda.**

başlanması üzündən Budaq müəllim təhsilini yarımçıq qoymağa məcbur olmuş, 1941-45-ci illərdə Çobankərə kolxozunda briqadir köməkçisi kimi çalışmışdır.

1945-ci ildə təhsilini davam etdirərək 1947-ci ildə İrəvan Pedaqoji Məktəbini bitirmişdir.

Budaq müəllim hələ Pedaqoji Məktəbdə oxuduğu vaxtlarda öz istedadı, ictimai fəaliyyəti ilə müəllim və tələbə kollektivinin böyük rəğbətini qazana bilmişdi. Hərdən Budaq müəllimlə görüşəndə İrəvan Pedaqoji Məktəbindən söhbət düşəndə ona dərs demiş müəllimlərindən Rus dili müəllimi Mehdi Kazımovu, coğrafiya müəllimi Ələşrəf Bayramovu, riyaziyyat müəllimi Təvəkkül Kərimov, Surə müəlliməni, Təvəkkül müəllim, pedaqogikadan Səkinə müəllimənі, məktəbin

direktoru Həbib Məhəmmədzadəni və başqalarını böyük hörmət və minnətdarlıqla xatırlayar, bilik verməkdə onların əvəzsiz pedaqoqlar olduğunu deyərdi.



**Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev akademik Budaq Budaqovu «Şöhrət» ordeni ilə təltif edərkən**

Budaq müəllim 1947-51-ci illərdə indiki Azərbaycan Dövlət Pedaqoji Universitetinin coğrafiya fakultəsində təhsil alıb. APİ-nin coğrafiya fakultəsini fərqlənmə diplomu ilə bitirən Budaq müəllim 1951-55-ci illərdə keçmiş SSRİ EA-nın Coğrafiya İnstitutunun aspirantı olub.

1955-ci ildə "Cənub-Şərqi Qafqazın Şimal yamacının geomorfologiyası" mövzusunda namizədlik dissertasiyası müdafiə edərək coğrafiya elmləri namizədi alimlik dərəcəsinə layiq görülmüşdür.

1955-58-ci illərdə indi ki, Azərbaycan Milli Elmlər Akademiyasının Coğrafiya İnstitutunda elmi işçi, baş elmi işçi kimi çalışan Budaq müəllim 1967-ci ildə "Böyük Qafqazın Azərbaycan hissəsinin geomorfologiyası və tektonikası" mövzusunda dissertasiya müdafiə edərək coğrafiya elmləri doktoru alimlik dərəcəsinə layiq görülmüşdür. B.Budaqov 1974-83 və 1986-89-cu illərdə AMEA-nın Coğrafiya institutunun elmi işlər üzrə direktor müavini, 1989-cu ildən ömrünün sonunadək həmin İnstitutun direktoru vəzifəsində çalışmışdır.

1976-cı ildə AMEA-nın müxbir üzvü, 1989-cu ildə isə həqiqi üzvü seçilmişdir.

Coğrafiya elminin görkəmli nümayəndələrindən olan Budaq Budaqovun coğrafiyaşünaslıq elminin inkişafında böyük və səmərəli xidmətləri olmuşdur. Görkəmli alim bütün mənalı ömrünü coğrafiya elminin inkişafına sərf etmişdir.

Budaq Budaqovun tədqiqatlarının nəticələri ölkəmizdə və müxtəlif ölkələrdə nəşr edilmiş 800-ə yaxın elmi əsərdə, o cümlədən 30 monoqrafiyada öz əksini tapmışdır. Budaq müəllim bir sıra dərslik, metodik vəsaitin müəllifidir. 20-yə qədər xəritənin müəlliflərindən biri olan B.Budaqov 80-dən artıq elmi əsərin redaktorudur.

Görkəmli alim ömrü boyu ekologiya və ətraf mütitin qorunmasını, ölkəmizin zəngin sərvətlərindən səmərəli istifadə olunmasını təbliğ etmişdir. B.Budaqovun elmi, ictimai və pedaqoji fəaliyyəti vəhdət təşkil etmişdir.

Belə ki, ölkəmizin hüdudlarından kənarda, beynəl-

xalq simpozium və konfranslarda, ən mühüm tədbirlərdə, yüksək tribunalarda məruzə və çıxışları ilə hər zaman elmimizi yüksək səviyyədə təmsil edən görkəmli alim, həm də bacarıqlı elm təşkilatçısı idi. Coğrafiya elminə böyük töhfələr vermiş Budaq Budaqov həm də Azərbaycan Respublikası Ağsaqqallar Şurasının sədri idi. Fədakar alim, yorulmaz tədqiqatçı Budaq Budaqov elm tariximizdə əbədi yaşayacaq haqqını qazanmış alim və şəxsiyyətlərdəndir.

Akademik B.Budaqov həmişə fəxrlə bildirərdi ki, "İrəvan Pedaqoji məktəbdə təhsil aldığı dövr onun həyatında silinməz izlər buraxmışdır".

## ZƏRİFƏ BUDAQOVA



Zərifə Budaqova 1929-cu il aprel ayının 28-də qədim İrəvan şəhərinin Dəmirbulaq məhəlləsində anadan olmuşdur. Zərifə xanım 1942-ci ildə İrəvan Pedaqoji Məktəbinə daxil olur və bu təhsil ocağını bitirdikdən sonra İrəvan Azərbaycanlı Pedaqoji İnstitutunun filologiya fakultəsinə daxil olmuş. 1949-cu ildə həmin İnstitutu bitirən Zərifə xanım 1953-cü ildə namizədlik, 1963-cü ildə isə doktorluq dissertasiyasını uğurla müdafiə etmişdir.

Zərifə xanım Azərbaycan elminə öz töhfəsini verən dilçilik elminə dair bir sıra ciddi elmi əsərlərin "Azərbaycan dilinin qrammatikası", "Müasir Azərbaycan dilində sadə cümlələr", "Azərbaycan bədii dilinin üslubiyyatı", "Azərbaycan dilində durğu işarələri" və s. elmi əsərlərin müəllifidir.

AMEA-nın müxbir üzvü Zərifə xanım Budaqova uzun müddət AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun direktoru və müxtəlif vəzifələrdə çalışmışdır.

# ƏLİ FƏRƏCOV



Azərbaycan elmi ictimaiyyətinin görkəmli nümayəndələrindən olan tanınmış dəyərli alim, onu tanıyanların qəlbində özünə əbədi heykəl ucaldan böyük şəxsiyyətlərdən biri də Əli Abbas Ağa oğlu Fərəcovdur. Əli müəllim 1927-ci ilin 7 iyununda qədim İrəvan şəhərinin Dəmirbulaq məhəlləsində, sayılıb-seçilən ziyalı ailəsində Fərəcovlar ailəsində dünyaya gəlmişdi. Professor Aydın Hacıyev 1997-ci ildə "Azərbaycan müəllimi" qəzetində Əli müəllimin atası Abbas Ağa Fərəcov haqqında yazır: "Abbas Ağa dövrünün sayılan, seçilən, mütərəqqi fikirli, dərin intellektual səviyyəli ziyalılarından olmuşdur. O, İrəvan Gimnaziyasını bitirib, Almaniyanın Leypsiq Universitetinin iqtisadiyyat fakultəsində təhsilini başa vurmuşdur. Vaxtıilə İrəvan ziyalıları İrəvan şəhərinin Dəmirbulaq məhəlləsində yaşayan Abbas Ağanın  evinə toplaşar elmi-ədəbi mövzularda söhbətlər disputlar keçirər və bir sözlə onun evi elmi-ədəbi məclisə çevrilərdi. Bu bir həqiqətdir ki, İrəvan şəhərinə su çəkdirən, Ermənistan ərazisində yaşayan soydaşlarımızın maariflənməsi uğrunda çalışan xeyriyyəçilərdən biri də Əli Fərəcovun atası Abbas Ağa olmuşdur. Əli müəllimə xas olan gözəl ziyalı

keyfiyyətləri atası Abbas Ağa Fərəcovdan gəlmişdir”. O, hələ orta məktəbdə oxuduğu illərdə öz sərraslığı, zəkası, istedadı ilə öz həmyaşıdlarından fərqlənir, müəllimlərinin sevimlisinə çevrilmişdi.



Əli müəllim tələbə yoldaşı Həbib Həsənovla birlikdə

Əli müəllim İrəvan Pedaqoji Texnikumunda təhsil almaqla yanaşı, həm də İrəvandakı hərbi zavodda çilingər kimi çalışırdı. Pedaqoji məktəbi bitirdikdən sonra 1944-46-cı illərdə “Ermənistan”ın Qəmərli rayonun Ciləxanlı kənd 7 illik məktəbində müəllim işləmişdir.

1946-cı ildə Bakı Dövlət Universitetinin filologiya fakultəsinə daxil olan Əli müəllim, 1951-ci ildə oranı uğurla bitirdikdən sonra təyinatla universitetdə laborant saxlanılmışdı. 1952-ci ildə “Toxucular” pioner düşərgəsinin rəisi təyin edilmişdi. 1952-60-cı illərdə

Azərbaycan Dövlət Nəşriyyatında kiçik redaktor, böyük redaktor vəzifələrində çalışmışdır. Əli müəllim 1960-cı ildə "Azərtədrisnəşrə" böyük redaktor təyin edilmişdir. 1957-ci ildə rus məktəblərinin 6-cı sinfi üçün "Azərbaycan dili" dərsliyini nəşr etdirən Əli müəllim 1964-cü ildə "Müxtəsər dilçilik lüğəti" kitabını çap etdirmişdi. 1961-ci ildə indiki ADPU-nin aspiranturasına daxil olan Əli Fərəcov 1964-cü ildə oranı uğurla bitirərək 1965-ci ildə namizədlik, 1972-ci ildə isə doktorluq dissertasiyasını uğurla müdafiə etmişdir. Ə.Fərəcov bir sıra elmi-metodik kitabların, həmçinin Azərbaycan və rus ümumtəhsil məktəbləri üçün dərs vəsaiti və dərsliklərin müəllifidir.

Professor Həsən Balıyev Əli Fərəcovun elmi-metodik fəaliyyəti haqqında yazır: "Bəli, nə üçün, necə yazacağını bacaran elm adamı idi. Onun 15 il ərzində yazıb çap etdirdiyi əsərlər bəzi, dırnaqarası 50 illik tədqiqatçıların yazıb çap etdirdiyi əsərlərdən qat-qat çoxdur.

Ə.Fərəcovun elmi və pedaqoji fəaliyyəti indiki Azərbaycan Dövlət Pedaqoji Universiteti ilə sıx bağlı olmuşdur. O, burada müəllim, baş müəllim, dosent, professor, dekan müavini, dekan, institutun "Elmi əsərləri"nin məsul katibi kimi vəzifələrdə çalışmışdır.

Ə.Fərəcov 11 may 1977-ci ildə qəflətən vəfat etmiş, onun vəfatı respublikamızın elmi ictimaiyyətini və eyni zamanda digər ölkələrin elmi nümayəndələrinə də böyük təsir göstərmişdir. Keçmiş SSRİ Pedaqoji Elmlər Akademiyasının akademiki, pedaqoji elmlər doktoru, professor AV.Tekucev görkəmli alim Ə.Fərəcovun və-

fatı münasibətilə göndərdiyi teleqramda yazır: “Mən Əlidəki təmkinliyi, zəkanı, istedadı, səmimiliyi yüksək qiymətləndirirdim. Bu keyfiyyətlər hər kəsə nəsib olmur. Təəssüf ki, Azərbaycan yüksək səviyyəli bir alimi ömrünün çiçəkləndiyi bir vaxtda itirdi”.(8; 17)

# YUSİF YUSİFOV



Xalqımızın görkəmli ziyalılarından biri də Yusif Bəhlul oğlu Yusifovdur. O, 1929-cu ildə sentyabr ayının 23-də “Ermənistan”ın Vedibasar mahalının Böyük Vedi kəndində anadan olmuşdur. 1943-cü ildə İrəvan Azərbaycanlı Pedaqoji məktəbinə daxil olan Yusif Yusifov, 1946-cı ildə həmin məktəbi bitirdikdən sonra təhsilini Sank-Peterburq şəhərindəki Dövlət Universitetində davam etdirmişdir. 1952-ci ildə həmin universitetin İran filologiyası şöbəsini bitirib. 1952-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının Tarix və Fəlsəfə İnstitutunda ilk əmək fəaliyyətinə başlamışdır. Yusif müəllim 1953-1956-cı illərdə görkəmli şərqşünas alim İ.M.Dyakonovun aspirantı olmuşdur. O, 1958-ci ildə namizədlik, 1965-ci ildə isə tarix elmləri doktoru alimlik dərəcəsi almışdır. Yusif Yusifov 1967-ci ildən ömrünün sonunadək indiki Azərbaycan Dövlət Pedaqoji Universitetində çalışmışdır. Göründüyü kimi Yusif müəllimin pedaqoji fəaliyyətinin ünvanları çox olmasa da, işlədiyi Pedaqoji Universitetdə öz elmi, təşəbbüskarlığı, əzmkarlığı və təşkilatçılığı ilə layiqli hörmət qazanmışdır. Ömrünü pedaqoji kadrların hazırlanmasına həsr edən Yusif müəllim hər zaman öz hazırlığı, elmi savadı ilə

xalqına nəsə verməyə çalışmışdır. O, alman, ingilis, türk, ərəb, fransız, rus, erməni dillərini gözəl bilməklə yanaşı, həm də ölü dillərdən sayılan qraban, şumer, akkad və elam dillərini bilirdi.

Dilimizin və tariximizin qədimliyini, açılmamış qatlarını elmi dövriyyəyə gətirib çıxaran Yusif müəllim heç zaman yaradıcılıq işindən qalmamış, müntəzəm olaraq elmi-pedaqoji və digər mövzularda yazdığı əsərləri ölkəmizdə və eyni zamanda ölkəmizdən kənarda da nüfuzlu elmi nəşrlərdə çap olunmuşdur. Onun yazdığı "Qədim Şərq Tarixi", akademik Ziya Bünyadovla birlikdə yazdığı "Azərbaycan tarixi" və s. əsərləri Azərbaycan tarixşünaslığı üçün olduqca dəyərli tövhədir. Yusif Yusifovun qədim dilləri mükəmməl bilməsi, dünya elmi aləmində ona böyük nüfuz qazandırmışdır. Haqlı olaraq görkəmli dilçi alim, professor Firudin Ağasıoğlu Yusif Yusifovu "Azərbaycan elminin nuru" və "Azərbaycan tarixində nadir simalardan biri" adlandırır.

Yusif müəllimin 2 monoqrafiyası 5 dərslik, 150-dən çox elmi əsəri nəşr edilmişdir. Onu da qeyd edək ki, Yusif müəllim uzun müddət İrəvanda azərbaycanlı pedaqoji məktəbinin direktoru işləmiş, milli maarifimizin inkişafında böyük xidmətləri olmuş Bəhlul Yusifovun oğludur.

# NƏRİMAN ƏLİYEV



1911-ci ildə Böyük Vedidə varlı ailədə dünyaya gəlmişdi. Atası bir vaxtlar Böyük Vedi kəndinin katdası olmuşdu. İbtidai təhsilini Böyük Vedidəki rus-tatar məktəbində alan Nəriman sonra İrəvandakı N.Nərimanov adına Türk Pedaqoji Texnikumuna daxil olur. 1929-cu ildə təhsilini başa vurub, əvvəl oxuduğu məktəbdə, sonra İrəvan şəhərindəki türk məktəbində, Kənd Təsərrüfatı Texnikumunda dərs deyir.

Nəriman Əliyev İrəvanın ədəbi-mədəni həyatında da fəal iştirak etmişdir. O, 1927-ci illərdə İrəvanda Nəriman Fəxri imzası ilə "Zəngi" qəzetində xeyli sayda poetik nümunələr, dəyərli məqalələr dərc etdirmiş, həmin mətbuat orqanın ən fəal müxbirlərindən biri olmuşdur.

1930-cu ildə Azərbaycan Tibb İnstitutuna daxil olur. 1934-cü ildə oranı bitirib, rektor Əziz Əliyevin şəxsi təşəbbüsü ilə İnstitutda saxlanır, mikrobiologiya kafedrasının aspiranturasına qəbul olunur. 1935-ci ildə Moskva Elmi-Tədqiqat Mikrobiologiya İnstitutuna göndərilir. 1937-ci ildə təhsilini başa vuraraq doğma kafedrasına qayıdır.

Böyük Vətən müharibəsi illərində həkim kimi İrana ezam olunur, Sovet ordusu tərkibində Bakıdan

göndərilən həkimlər qrupuna rəhbərlik edir. 1942-ci ildə İrandan Bakıya çağırılan N.Əliyev həkim qrupu ilə Dağıstanda yayılan epidemiyanın qarşısını almaq üçün təcili bu bölgəyə göndərilir. Bu işi uğurla başa çatdırıb Bakıya dönür, burada ön cəbhə üçün lazım olan dərmanların hazırlanması işinə rəhbərlik edir. Az sonra onun rəhbərliyi ilə qonqrenaya qarşı preparat hazırlanır. Bu dərman böyük şöhrət qazanır.

Böyük Vətən müharibəsindən sonra N.Əliyev mikrobiologiya İnstitutunda şöbə müdiri işləyir, 1948-ci ildə namizədlik, 1970-ci illərdə doktorluq dissertasiyaları müdafiə edir. Onlarla elmi məqalə və dərsliyin, çoxlu ixtiraların müəllifi olan N.Əliyev iyirmi il kafedra müdiri işləyir. Rubin, nakordin, aurantin kimi yeni bioloji aktiv maddələr kəşf edir. Kənd təsərrüfatında ət məmulatlarının saxlanmasında geniş istifadə olunan aktiv bioloji maddələrin kəşfi, lentospiroz, madrominoz, geotrixoz, serrasioz, kantidoz xəstəliklərinin aşkarlanması və s. onlarla kəşf də onun adı ilə bağlıdır.

Professor Nəriman Əliyev həm də əməkdar elm xadimidir. Müxtəlif orden və medallarla təltif olunub. Övladlarının hamısı ali təhsilli həkimdir. Oğlu **Namiq Əliyev** tibb elmləri doktoru, professordur. Tibb müəssisələrindən birinə rəhbərlik edir. (6)

N.Əliyev həmişə iftixarla qeyd edirdi ki, “mən həyatda qazandığım nailiyyətlərə görə ilk növbədə İrəvan Pedaqoji Texnikumuna borcluyam”.

# FƏRHAD FƏRHADOV



Fərhad Fərhadov 27 sentyabr 1919-cu ildə Zəngibasar rayonunun Rəncbər kəndində anadan olmuşdur. İrəvan Gimnaziyasının məzunu olmuş atası Qulam müəllim uzun müddət İrəvanda və eləcə də Azərbaycanlılar yaşayan müxtəlif bölgələrdə maarifçiliyin inkişafında böyük rolu olmuşdur. Qulam müəllim "Ermənistan"da Yeni Türk Əlifba komitəsinin fəal əməkdaşlarından biri olmaqla yanaşı, həm də yeni əlifbanın azərbaycanlı əhali arasında təbliğində və tətbiqində böyük fəaliyyət göstərmişdir.

Qulam müəllim "Zəngi" qəzetinin fəal müxbirlərindən biri kimi 1925-ci illərdə yeni əlifbanın əhəmiyyəti haqqında həmin mətbuat orqanında dərc olunmuş bir sıra dəyərli məqalələrin müəllifidir.

Fərhad müəllim 1933-cü illərdə İrəvan Pedaqoji Texnikumuna daxil olmuş və oranı fərqlənmə diplomu ilə bitirmişdir. 1936-cı ildə Azərbaycan Pedaqoji İnstitutuna daxil olan Fərhad müəllim 1941-ci ildə İnstitutu bitirdikdən sonra elə həmin ildə Pedaqoji Texnikumunda müəllim vəzifəsində çalışmağa başlamışdır.

Filologiya elmləri doktoru, professor Fərhad Fərhadov indiki Azərbaycan Dövlət Pedaqoji Universitetində

müəllim, dosent kafedra müdiri, dekan və bir sıra mühüm vəzifələrdə çalışmışdır. Fərhad müəllim "Qədim və Orta əsrlər ədəbiyyatına dair ocerklər" (1945), "Klassik ədəbiyyatda tarixilik prinsipləri" (1953) və bir sıra elmi əsərlərin müəllifidir.

# CƏFƏR CƏFƏROV



Cəfərov Cəfər Əsəd oğlu 1932-ci ildə iyulun 1-də "Ermənistan" SSR-nin Əştərək rayonun Hamamlı kəndində anadan olmuşdur. Hamamlı kəndi İrəvanın şimal-qərbində 40 km məsafədə yerləşmişdi, balaca bir kənd idi. Amma bu kənd Azərbaycan xalqının ən görkəmli simalarından biri olan prof. Əziz Məmmədkərim oğlu Əliyevin parlaq şəxsiyyəti sayəsində tarixə düşmüşdür. Onu da qeyd edim ki, görkəmli alim, ictimai xadim, prof. Ə.Əliyev 1897-ci ildə bu kənddə dünyaya göz açmışdır.

Cəfər Cəfərov 1945-ci ildə Hamamlı kənd 7 illik məktəbini bitirərək, İrəvan Azərbaycanlı Pedaqoji məktəbinə daxil olmuş, 1948-ci ildə oranı bitirdikdən sonra isə Hamamlı kənd 7 illik məktəbinə müəllim təyin edilmişdir. İki il həmin məktəbdə müəllim işləmişdir.

1950-ci ildə Cəfər müəllimin ailəsi, əksər azərbaycanlı ailələri kimi, ermənilər tərəfindən deportasiyaya məruz qalaraq Azərbaycan Respublikasının Salyan rayonuna köçürülmüşlər. Yeri gəlmişkən qeyd edək ki, bununla onların ailəsi, el-obası 3-cü dəfə idi ki, (1905, 1918, 1950-ci illərdə) ermənilər tərəfindən soyqrıma və deportasiyaya məruz qalaraq öz isti ocaqlarından didərgin salınmışlar.

Cəfər Əsəd oğlu Cəfərov 1950-1952-ci illərdə Qazax ikiillik Müəllimlər İnstitutunda oxumuş, oranı fərqlənmə diplomu ilə bitirərək, Salyan şəhəri 4 №-li məktəbə dil və ədəbiyyat müəllimi təyin edlmişdir. Bir il işlədikdən sonra 1953-cü ildə ADU-nun filologiya fakültəsinin I kursuna qəbul edilmişdir. O, 1958-ci ildə həmin institutu qırmızı diplomla bitirərək, təyinatla Mir Bəşir rayonunun



**Pedaqoji Texnikumun II kurs tələbələri. 1947-ci il.**
**Birinci cərgədə soldan üçüncü Cəfər Cəfərov**

Qaradağlı kənd orta məktəbinə dil və ədəbiyyat müəllimi göndərilmiş və iki il orada müəllim işləmişdir.

C.Cəfərov 1960-1963-cü illərdə APİ-nin dilçilik kafedrasının aspirantı olmuşdur. O, 1963-cü ilin noyabrından 1964-cü ilin sentyabrına kimi həmin institutda dispetçer vəzifəsində işləmişdir. 1964-cü ilin sentyabrında

Azərbaycan dilçiliyi kafedrasına müəllim keçirilmişdir. O, 1965-ci ildə namizədlik dissertasiyası müdafiə edərək filologiya elmləri namizədi alimlik dərəcəsi almış, 1969-cu ildə isə Azərbaycan dilçiliyi kafedrasının dosenti vəzifəsinə təyin edilmişdir. 1973-cü ilin sentyabrında doktorluq dissertasiyasını tamamlamaq üçün 2 illik doktoranturaya göndərilmiş, 1976-cı ildə həmin doktoranturanı tamamlayaraq öz dosent vəzifəsinə qaytarılmışdır.

C.Cəfərov 1992-ci ildə doktorluq dissertasiyası müdafiə edərək filologiya elmləri doktoru alimlik dərəcəsi almış və 1993-cü ildə Müasir Azərbaycan dili kafedrasına professor vəzifəsinə seçilmişdir. Hazırda da həmin kafedrada professor vəzifəsində çalışır.

Cəfər müəllim dilçilik üzrə təşkil olunmuş müxtəlif konfrans və seminarlarda dəfələrlə iştirak edərək maraqlı məruzələrlə çıxış etmişdir. Onun pedaqoji kadrların, dilçilik elmi üzrə mütəxəssislərin yetişdirilməsində əməyini xüsusi qeyd etmək olar. Prof. C.Cəfərov BDU-nun nəzdində filologiya və jurnalistika elmləri doktoru və fəlsəfə doktoru alimlik dərəcəsi almaq üçün dissertasiyaların müdafiəsini keçirən Dissertasiya Şurasının (D.02.81) üzvüdür. O, Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən "Qabaqcıl təhsil işçisi döş nişanı (2006)" və "Əməkdar müəllim (2012)" fəxri adına layiq görülmüş, eləcə də Təhsil Nazirliyinin (1973), dəfələrlə ADPU-nun rəhbərliyinin fəxri fərmanlarına layiq görülmüşdür.

C.Cəfərov müasir Azərbaycan dili fənninin müxtəlif şöbələrinə: leksikologiyaya, morfologiyaya aid bir sıra əsərlərin müəllifidir. C.Cəfərovun müasir Azərbaycan dili fənnindən başqa, onun dialektologiyaya aid də bir neçə maraqlı əsəri çap olunmuşdur.

Onun 1971-ci ildə yazdığı "Hamamlı kənd şivəsinin leksikasına dair" əsəri İrəvandan 40 km şimali qərbdə yerləşdiyi və aşağıdakı kəndlərlə, məsələn, Cadqıran, Qaracörən, Qarabulaq, Kirəşdi, Saçlı, Sərinsəvəng, İlançalan əhatə olunduğu və belə yüzlərlə kəndin hamısının türk mənşəli olması və bunların çoxunun 1971-ci ilə kimi dəyişdirildiyi həmin əsərdə öz əksini tapmışdır. C.Cəfərovun onomastikaya, nitq mədəniyyətinə aid də bir sıra maraqlı məqalələri çap edilmişdir. Məsələn, «Substantivləşmə yolu ilə onomastik vahidlərin əmələ gəlməsi, "Substantivləşmə yolu ilə terminoloji vahidlərin əmələ gəlməsi» (1988), «Dilimizdə inkar vasitələrdən istifadə məsələsinə dair» (1986) və s. əsərləri çap edilmişdir. Cəfər müəllim elmi və pedaqoji fəaliyyətini bu gündə uğurla davam etdirir.

# SÜLEYMAN MƏMMƏDOV



İrəvan Azərbaycanlı Pedaqoji məktəbinin məzunlarından biri də Dövlət mükafatı laureatı, əməkdar elm xadimi, professor Süleyman Abbas oğlu Məmmədovdur. Süleyman müəllim 1932-ci ildə Vedibasar mahalının Xalisa (Xalsa) kəndində anadan olmuşdur. Atası Abbas kişi 1930-cu illərdən başlanan amansız repressiyaya məruz qaldığından, Süleyman müəllimin uşaqlıq illəri həyatın çətin sınaqları ilə üzləşməli olmuşdur. O, İrəvanda Azərbaycanlı Pedaqoji məktəbində oxuduğu illərdə öz biliyi, fikir və mülahizələri və s. keyfiyyətləri ilə özünü göstərir, müəllim və tələbə kollektivinin dərin hörmətini qazanır. 1951-ci ildə pedaqoji məktəbi fərqlənmə diplomu ilə bitirən, onun həyat salnaməsində ən başlıca yer tutan, hələ uşaq yaşlarında ona təsir edən, tarix elminə ciddi marağı olan Süleyman müəllimi tale Bakı Dövlət Universitetinin tarix fakultəsinə gətirib çıxarır. Maddi imkansızlıqdan təhsilini davam etdirə bilməyən Süleyman müəllim doğma kəndinə qayıdaraq Xalisa kənd yeddillik məktəbində pedaqoji fəaliyyət göstərmək məcburiyyətində qalır. 1954-cü ildə Süleyman müəllim yenidən BDU-nin tarix fakultəsinə daxil olur. Universiteti bitirdikdən sonra AMEA-nın A.A.Bakıxanov adına Tarix

İnstitutunda laborant, 1971-ci ildən ADPU-də müəllim, dosent, professor vəzifələrində çalışmışdır. S.Məmmədov hal-hazırda ADPU-də "Azərbaycan tarixi" kafedrasının müdiri vəzifəsində çalışır. Tarix elmləri doktoru, professor S.Məmmədov 400-dən artıq elmi-publilistik məqalənin, 5 monoqrafiyanın, 15 dərs vəsaiti və s. əsərləri bir daha sübut edir ki, Süleyman müəllim bütün bu naliyyətlərə, bügünkü günə elə-belə yox, böyük zəhmət, qüvvə və bacarıq sərf etməklə gəlib çatmışdır.

Bu gün İrəvan Pedaqoji Məktəbinin adını şərəflə qoruyan Süleyman müəllim "İrəvan Pedaqoji Məktəbi haqqında düşüncələrim" adlı əsərində yazır:

Hər dəfə İrəvan Pedaqoji məktəbi haqqında düşünəndə gəncliyimin ən qaynar vaxtları yadıma düşür, 1948-ci il iyulun sonları idi. Pedaqoji məktəbə qəbul olmaq üçün bir neçə nəfər həmkəndlilərimlə İrəvana gəlmişdik. İrəvan mühiti, ab-havası, adamların davranışı kənd uşağına bir təhər gəlirdi. Sənədlərimizi qəbul komissiyasına verdikdən sonra bizi əvvəlcə aşağı mərtəbədə - zalda yerləşdirdilər, axşam çağı III mərtəbədə yataqxanada yer verdilər. Ertəsi gün qəbula gələn abituriyentlərlə tanışlıq üçün bizi akt zalına topladılar. Zalda xeyli adam vardı. Abituriyentlər 2 nəfər qarşısında çıxış elədi. Onlar ədəb və qəbul qaydaları, yataqxana, yeməkxana barədə danışdılar. Sonralar öyrəndim ki, onlar Texnikumun direktoru Həbib Məhəmmədzadə və tələbə sovetinin sədri, sonradan məşhur alim kimi tanıdığımız akad. Budaq Budaqov imiş. Zalda keçirilən

yığıncaq da Budaq müəllimin nitqinə çox məmnuniyyətlə qulaq asdım. Sonralar bizim ünsiyyətimiz yarandı. Yeri gəlmişkən deyim ki, biz texnikuma işlərimizi verəndə Budaq müəllimgil son kursda idilər.

Yaxşı yadımdadır, sentyabrın əvvələrində Budaq müəllim birinci kurslarla görüş üçün elanı mənə yazdırdı. Xəttim onun xəttinə oxşadığı üçün çox xoşuna gəldi və bundan sonra bəzi yazılarının üzünü köçürməyi mənə etibar edirdi. Ötən illərdə, hər dəfə Budaq müəllimlə görüşəndə yadıma 1948-ci ildə İrəvan Pe_ daqoji məktəbində təhsil aldığım illər düşürdü. Birinci mərtəbədən aşağıda yeməkxana, I-II mətəbədə dərs keçir, III mərtəbədə yaşayırdıq. Sonralar Budaq müəllim Ərəboğlu ilə birlikdə otaqları gəzəndə bildim ki, o, tələbə sovetinin sədridir. Uca, şümşad qamətli, qapqara şəvə saçları, aram-aram danışığı diqqətimi çəkirdi. Ərəboğlu Rəşid Hətəmov, Heydər Salahov və digər tələbə yoldaşları ilə Şircanyan küçəsində gəzdikləri anları, axşam qapıçı Hüseyn kişinin onları sorğu-suala tutmasını da yaxşı xatırlayıram. O vaxtlar özümüzü bizə dərs deyən gözəl, təmkinli, savadlı bəlkə də indiki bəzi Ali məktəblərimiz səviyyəsinə bərabər dərs deyən müəllimlərimizə - Məmməd Həsənov, Təvəkkül Kərimov (dərs hissə müdiri və riyaziyyat müəllimi), Raziyə İsmayılova (tarix), Surə Babayevaya (coğrafiya) oxşatmağa çalışırdıq. Çox təəssüf ki, bədxahlar bu xoş günlərimizi bizə çox gördülər. Pedaqoji məktəbin I kursunu İrəvanda bitirdikdən sonra bizi Xanlara indiki (Göygöl) rayonuna köçürdülər -

deportasiya etdilər. Burada üç illik məktəb illərimiz yaxşı keçdi. Lakin İrəvandakı xatirələrim unudulmazdır. Xanlarda İrəvan pedaqoji məktəbinin əsasını qoyan gözəl psixoloq, pedaqoq Mehdi Kazımovun xatirəsi həmişəlik qəlbimdədir. Mehdi müəllim rübün sonunda «üç» verəcəyi tələbəni psixoloji cəhətcə elə hazırlayırdı ki, «beş» verdiyi tələbə barədə dinə bilmirdi.

Xanlar Pedaqoji məktəbində aldığımız bilik İrəvanda aldığımız biliyin bünövrəsi üzərində quruldu. Azərbaycan tarixindən biliyimin əsasını ağdaşlı müəllimim Vəli Məhərrəmov qoydu. İndi də əziz müəllimlərim Sadiq Heydərzadə (biologiya), Tarix Şirinovu (ədəbiyyat), Qaytaran Məmmədovu (tarix), Mənzərə Namazəliyevanın (coğrafiya) dərsə daxil olub, mövzunu başlamalarını, əsl pedaqoq kimi dərsi yekunlaşdırmalarını yaxşı xatırlayıram. Təhsil illərində Xanlarda məktəbin direktoru İsa Cəfərovu, hərbi hazırlıq və idman, musiqi dərslərini aparan Cəfər, Bəşir, Təvəkkül və Mamo müəllimləri o illərdən xatirəmdə qalan, sonra Naxçıvan Dövlət Univerditetinin prorektoru işləmiş, riyaziyyatçı Qasım Mustafayevi, pedaqoji məktəbi  fərqlənmə diplomu ilə bitirənlərdən: BDU Partiya komitəsinin katibi işləmiş, tarix elmləri doktoru, professor, kafedra müdiri, Qurban Bayramovu, Əmrahı, İmamverdi Hacıyevi həmişə yada salıram. Sonralar Təhsil Nazirliyində kadrlar, Nəşriyyat və Poliqrafiya şöbələrinin müdiri işləmiş, hazırda «Məktəb» jurnalının baş redaktoru Nəcəf Nəcəfov, Xanlarda (Göygöl) yaşayan Abdulla Qasımov,

ADPU-nun Pedaqogika kafedrasının dosenti Abbas İsmayılov, Yazgül, Billurə, Giləxanım, Yaqut adlı qız, əmim oğlu Qasım Məmmədov, Hüseyn Hüseynov, əziz dostum Yunis Abbasov fəal tələbələr sırasında idilər, onlar xatirimdə və düşüncələrimdə yaşayırlar.

## ABBAS İSMAYILOV



Abbas Kərbəlayı Məhəmməd oğlu İsmayılov 1927-ci ildə Qərbi Azərbaycanın (indiki Ermənistanın) Göyçə mahalının (Krasnoselski rayonunun) Ardanış kəndində varlı ailədə anadan olmuşdur.

1935-ci ildə Ardanış kənd yeddiillik məktəbinin birinci sinfinə daxil olub və həmin məktəbi 1941-1942-ci dərs ilində bitirmiş, 1945-ci ilin may ayına kimi kolxozda çalışmışdır. 1945-ci ilin may ayında Krasnoselski RHK-nın göndərişi ilə Kirovakan Kimya zavodunda işləmişdir.

1946-cı ilin avqust ayında İrəvan Pedaqoji məktəbinə daxil olduğu üçün işdən ayrılmışdır. Amma bəzi səbəblərə görə həmin il Pedaqoji məktəbdə oxuya bilməmişdir. Buna baxmayaraq 1947-ci ildə yenidən Pedaqoji məktəbə imtahan verərək qəbul olmuşdur. Pedaqoji məktəbin Azərbaycanın Xanlar şəhərinə köçürülməsi ilə əlaqədar 1950-51-ci dərs ilində Xanlar şəhərində (Pedaqoji Texnikumu) bitirən Abbas müəllim müəllimlərin təkidi ilə keçmiş V.İ.Lenin adına APİ-yə oxumağa göndərilmişdir. Elə həmin il İnstitutun tarix fakültəsinin birinci kursuna daxil olub, 1955-ci ildə oranı bitirib, təyinat ilə Salyan rayonunun Parça-Xalac kənd

yeddiillik məktəbinə direktor təyin edilmişdir. 1956-59-cu dərs ilində Bakı şəhər Novxanı kənd yeddiillik məktəbində, 1959-60-cı tədris ilində Bakı şəhər 30 №-li beynəlmiləl orta məktəbində tədris hissə müdiri vəzifəsində işləmişdir.

1960-63-cü illərdə İndiki ADPU-nun pedaqogika-psixologiya kafedrasında nəzəri pedaqogika ixtisası üzrə əyanı aspiranturaya daxil olmuş «Günüuzadılmış qruplarda tərbiyəçi işinin məzmunu və üsulları» (1-4-cü siniflər üzrə) adlı namizədlik dissertasiyasını yazıb vaxtından əvvəl müdafiəyə təqdim etmişdir. 1965-ci il 16 apreldə müvəffəqiyyətlə müdafiə edərək pedaqoji elmlər namizədi alimlik dərəcəsi adını almışdır.  1968-ci ildən dosent, 13 dekabr 1990-cı ildən isə professor elmi adını almışdır.

1967-69-cu illərdə İnstitut yerli komitəsinin üzvü, 1966-69-cu illərdə ictimai peşələr fakültəsində 2 il dekan müavini, sonra isə ictimai peşələr fakültəsinin dekanı vəzifəsində, 1978-82-ci illərdə tarix fakültəsi həmkarlar təşkilatının sədri vəzifəsində işləmişdir.

Səmərəli fəaliyyətinə görə İnstitutun 50 illik yubileyi münasibəti ilə SSRİ Ali və Orta İxtisas Təhsil Nazirliyinin və SSRİ Maarif Nazirliyinin əlaçı döş nişanlarına layiq görülmüşdür.

Prof A.M.İsmayılov ömrünün böyük hissəsini ardıcıl olaraq indiki Azərbaycan Dövlət Pedaqoji Universitetində gənc nəslin təlim-tərbiyəsinə həsr etmişdir. Onun 70-dən çox elmi məqaləsi, 80-dən çox ictimai-siyasi,

publisistik məqalələri, 16-ya qədər monoqrafiya, dərs vəsaiti, metodik vəsaiti çapdan çıxmışdır:

Günüuzadılmış qruplarda tərbiyə işlərinin təşkili. Bakı-1968; Günüuzadılmış qruplarda tərbiyəçi işinin məzmunu. Bakı-1975; Şifahi xalq ədəbiyyatında tərbiyə məsələləri. Bakı-1979; Məktəbdə tərbiyə işinin metodikası. Bakı-1985; Tərbiyə işinin planlaşdırılması metodikası. Bakı-1987; Görkəmli pedaqoqlar yeni tipli istimai tərbiyə ocaqları və ailə tərbiyəsi haqqında. Bakı-1989; Günüuzadılmış təhsil müəssisələrində pedaqoji prosesin təşkilinin xüsusiyyətləri. Bakı-1988; Pedaqogika tarixindən tələbələrin müstəqil işlərinə dair. Bakı-1989; Tələbələrin ideya-siyasi tərbiyəsinə aid. Bakı-1988; Azərbaycan pedaqoji fikir tarixində özünü tərbiyə və yenidən tərbiyə. Bakı-1989 və s.

Prof. A.M.İsmayılov elmi-tədqiqat işlərində ən aktual problemlərə toxunmuş, bunların real həllinə təşəbbüs göstərmişdir. Onun elmi-tədqiqat işlərinin əsas leytmotivini yeni yüksək tipli ictimai tərbiyə ocaqları hesab edilən günüuzadılmış qrup, sinif və məktəb, eləcə də internat məktəblərinin yaranma tarixi, yaranma zərurəti, spesifik xüsusiyyətlərinin nəzəri və praktik baxımdan tədqiqi təşkil etmişdir.

1950-60-cı illərdə internat məktəbləri geniş təşəkkül tapmışdı. Alim öz tədqiqat işlərində qəti qənaətə gəlmişdi ki, internat məktəbləri dövlətə baha başa gəlir, eyni zamanda bu müəssisələrdə uşaqlar ata-ana nəvazişindən xeyli kənarda qalır. Bunun üçün ən optimal

yol məktəblərdə günüuzadılmış qrupların təşkilidir. Onun elmi qənaətlərinin üstündən xeyli vaxt keçməsinə baxmayaraq, həyat alimin uzaqgörənliklə söylədiyi müddəalarında nə qədər haqlı olduğunu göstərir.

## QASIM MUSTAFAYEV



Həyatın enişli-yoxuşlu yollarından keçib ömrünün yarıdan çoxunu elmə həsr edən istedadlı alim oğullarımızdan biri də 1928-ci ildə Amasiya (Ağbaba) rayonunun Güllübulaq kəndinə anadan olmuş fizika-riyaziyyat elmləri namizədi, dosent Mustafayev Qasım Əli oğlu idi. İndi onun adı elmi məclislərdə, institut auditoriyalarında ehtiramla xatırlanır, hörmətlə yad edilir. Ağababa mahalının və eyni zamanda Güllübulaqlıların elə bir məclisi olmaz ki, orada rəhmətlik Qasım müəllimin adı çəkilməsin, onun xeyirxahlığından, səmimiyyətindən, istedadından, insanlığından söhbət açılmasın.

O, 1935-ci ildə Güllübulaq kənd məktəbinin birinci sinfinə daxil olmuşdur. Ailənin maddi ağırlığı 1942-ci ildə 7 sinifi bitirdikdən sonra Qasım müəllimi iki il kolxozda işləməyə məcbur etmişdir. O, 1945-ci ildə kənd səkkizlik məktəbini bitirdikdən sonra İrəvan Pedaqoji məktəbinə daxil olmuş, oranı 1947-ci ildə bitirmişdir. Həmin il İrəvan Pedaqoji İnstitutunun riyaziyyat fakültəsinə daxil olmuşdur.

1950-ci ildə İrəvan Pedaqoji İnstitutunun azərbaycanlı şöbələri Azərbaycana deportasiya edildiyindən təh-

silini Azərbaycan Pedaqoji İnstitutunda davam etdirərək ali məktəbi fərqlənmə diplomu ilə bitirmişdir. 1951-ci ildə təyinatla Naxçıvan Müəllimlər İnstitutuna işləməyə göndərilmiş və 1956-cı ilədək orada işləmişdir. 1956-1965-ci illərdə indiki Azərbaycan Milli Elmlər Akademiyasının Mexanika və Riyaziyyat İnstitutunda işləmişdir. Həmin ildən o, Azərbaycan Pedaqoji İnstitutunun riyazi analiz kafedrasında çalışmışdır.

Qasım müəllim Güllübulaqdan çoxdan ayrılsada, amma hər an qəlbi isti, doğma ocaqları ilə döyünürdü. Macal tapanda kəndə yay aylarında, bir də xeyir-şər



**İrəvan Pedaqoji məktəbinin II kurs tələbələri Soldan Şamil Qara oğlu Həsənov( Qəmərli rayonu), Budaq Budaqov(çobankərəli) və Qasım Mustafayev ) Amasya rayonu Güllübulaq kəndi). 1947-ci il**

məclislərində gələ bilirdi. Bir tərəfdən elmi axtarışlar, digər tərəfdən Pedaqoji İnstitutda tutduğu vəzifələr, yaradıcılıq işləri Qasım müəllimi gecəli-gündüzlü calışmağa vadar edirdi. İşlərinin çoxluğuna və ağırlığına baxmayaraq hərdən vaxt tapıb bir nəfər həmyerlisini görəndə uşaq kimi sevinər, bu gün həsrət və niskil dolu kövrəkliklərlə xatırladığımız bütün kəndi, eli-obanı ondan xəbər alardı. Qasım müəllimin doğmaları da 37-ci ilin qara küləklərinin - repressiyanın qurbanı olmuşdu. Bu nəslin vaxtsız-vədəsiz yarpaq tökümü başlananda Qasım müəllimin səkkiz yaşı var idi. 1937-ci ilin qara günlərinin birində onun atası, babası, əmisi, dayıları Türkiyədə qohumluq əlaqələrinə görə həbs edilmişdilər. Elə o vaxtdan Qasım müəllimin qəlbində haqsızlığa, ədalətsizlivə qarşı nifrət oyanmışdı.  O, haqsızlıqla heç vaxt barışmamışdı. Bəlkə elə buna görəydi ki, Qasım müəllimin 1961-ci ildə namizədlik dissertasiyasının avtoreferatı çap olunsa da, müdafiə ərəfəsində Elmlər Akademiyasının Riyaziyyat və Mexanika İnstitutunun direktorunun ona qarşı etdiyi haqsızlığa qarşı etiraz əlaməti olaraq müdafiədən imtina etmiş, göstərdiyi prinsipiallığa, cəsarətə görə çoxlarını heyrətə salmışdı. O hadisədən sonra Qasım müəllim elmi rəhbərindən imtina edərək tamamilə yeni mövzu üzərində işləmiş, 1965-ci ildə dissertasiya müdafiə edərək fizika-riyaziyyat elmləri namizədi alimlik dərəcəsi almışdı. (Onun çoxillik elmi-pedaqoji fəaliyyəti Azərbaycan Pedaqoji İnstitutu (indiki ADPU) ilə yanaşı Naxçıvan Pedaqoji İnstitutu

(indiki NDPU) ilə bağlı olmuşdur. Uzun illər bu mötəbər təhsil müəssisələrində riyazi analiz və funksional analiz fənlərindən mühazirələr oxumuşdur. O, 1972-ci ildə Xankəndində Pedaqoji İnstitut açıldıqdan sonra APİ-də işləyə-işləyə, həm də orada riyazi analiz kafedrasının müdiri olmuşdu.

Qasım müəllim 1979-cu ildən Naxçıvan Pedaqoji İnstitutunun prorektoru, 1984-cü ildən 1987-ci ilədək isə rektor əvəzi vəzifəsində çalışmışdır. Onun Naxçıvan Pedaqoji İnstitutuna rəhbərlik etdiyi dövrdə İnstitut Respublikanın nüfuzlu ali məktəblərindən birinə çevrilmişdir.

O, Respublikada yeganə riyaziyyatçı alim idi ki, riyazi analiz fənnindən üç dildə - Azərbaycan, rus və erməni dillərində mühazirələr oxuyurdu. Ən çətin riyazi əməliyyatları o, elə sadəliklə, pedaqoji ustalıqla izah edərdi ki, tələbələrin cınqırı da çıxmazdı. Bunun bir səbəbi onun əsl xalq adamı olmasında, milliliyində idi. Riyaziyyatçı olsa da, musiqini, şeiri, sənəti çox sevirdi. Onun söhbətlərindən doymaq olmazdı. Filologiya elmləri doktoru, ədəbiyyatşünas Murtuz Sadıqov «Qan yaddaşı» kitabında Qasım Mustafayevin bir alim, bir insan kimi nəcib keyfiyyətlərindən hərarətlə söhbət açır və yazır: «Riyaziyyatçı olsa da, ədəbiyyata çox bağlıydı. Caviddən, Müşfiqdən, Vurğundan saatlarla şeir deyərdi. Onun da başı bu dünyada daşdan-daşa çox dəymişdi. Çox yaşamadı. Vaxtsız və qəfil ölüm onu bizdən ayırdı.» (22)

Bu sətirlər həyatın hər üzünü görmüş, yaxşıya, yamana layiqincə qiymət verməyi bacaran bir insanın

776 нөмрәли аттестата әлавә.

# Мувәффәгиййәтләр билдиришиндән чыхарыш.

(Аттестатсыз гувәдән сагитдир).

Йолдаш Мустафаев Гасым 1945 илдә Ереван Азәрбайчанлы педагожи мәктәбинә дахил олуб, 1947 илдә һәмин мәктәбин там курсуну гуртармышдыр вә педагожи мәктәбиндә олдуғу заман ашағыда көстәрилән имтаһанлары вермишдир:

| | | | |
|---|---|---|---|
| Азәрб. дили вә методундан | 5 (беш) | Тәбиийят вә тәбиийят методундан | 5 (беш) |
| Азәрб. әдәбиййатындан | 5 (беш) | Физикадан | 5 (беш) |
| Эрмәни дилиндән | 5 (беш) | Педагожидән | 5 (беш) |
| Рус дилиндән | 5 (беш) | Психологиядан | 5 (беш) |
| Рус әдәбиййатындан | 5 (беш) | Һусн-хәттдән | 5 (беш) |
| Һесаб вә һесаб методундан | 5 (беш) | Шәкил вә шәкил методундан | 5 (беш) |
| Чәбрдән | 5 (беш) | Шәргн, мусиги вә методундан | 5 (беш) |
| Һәндәсәдән | 5 (беш) | Һәрби-физики һазырлыг вә методундан | 5 (беш) |
| Тарих вә тарих методундан | 5 (беш) | Сәнәтхана вә кәнд тәсәррүфатында практик ишләриндән | — |
| ССРИ Конституциясындан | 5 (беш) | | |
| Чоғрафия вә чоғрафия методундан | 5 (беш) | | |

Йол. Мустафаев Гасым Әли оғлу дәрс планында көстәрилмиш педагожи практикаларынын бүтүн нөв'ләрини кечиб 5 (беш) гиймәт алмышдыр.

Педагожи мәктәбин директору [signature]

М. Е.

6 Июль 1947 ил.

ürəyindən gələn sözlərdir. Bu cümlələr bir daha sübut edir ki, Qasım müəllimin xatirəsi onu tanıyanların ürəyində parlaq sima kimi yaşayır.

Q.Mustafayev ömrünü-gününü ali məktəblərlə bağlasa da, orta təhsil müəssisələrini bir an da olsun belə unutmurdu. İnstituta işə gələrkən vaxt tapan kimi yolunun üstündəki 7 saylı orta məktəbə baş çəkər, şagirdlərlə, müəllimlərlə görüşərdi. «Riyaziyyat bütün elmlərin açarıdır, ona orta məktəblərdə yiyələnmək lazımdır" - deyərdi. Orta məktəblərdə riyaziyyatın tədrisində boşluqları, çatışmazlıqları Qasım müəllim yaxşı bilirdi. Buna görə də orta məktəbdə riyazi analiz elementlərinin tədrisinə dair və fakültativ məşğələlərə aid ilk dərsliklər, orta məktəblərdə xətti proqramlaşdırmanın tədrisinə aid ilk metodiki vəsaitlər onun qələmindən çıxmışdı. Qasım müəllim uzun illər Azərbaycan Televiziyasında «Orta məktəblərdə riyaziyyat» televiziya-tədris proqramının aparıcısı olmuşdur.

Bir alim kimi o, Respublikamızın riyaziyyatçıları arasında böyük nüfuza malik idi. Q.Mustafayev funksional analiz ixtisası üzrə Azərbaycanda tanınmış mütəxəssislərdən hesab olunurdu. Onun «Orta məktəblərdə riyazi analiz elementlərinin tədrisi» (Bakı, 1967), «Riyaziyyat terminləri lüğəti» (ingiliscə-rusca-azərbaycanca, prof. H.Ağayev, prof. F.Maqsudovla birgə; Bakı, 1979) və s. kitabları uzun illər çəkilən gərgin əməyin məhsulu idi. Qasım müəllimin yüzdən çox elmi,

elmi-metodiki məqalələri çap olunmuşdu. Və daha neçə-neçə əsəri öz çapını gözləyirdi.

Gözləyən təkcə əsərləri deyildi. Doğmaları, dostları, tələbələri, şagirdləri onu tez-tez görməyə can atır, onunla söhbətləşmək istəyirdilər. Qasım müəllim çətin məqamlarda adamlara dayaq olmağı bacaran insanlardan idi. M.Sadıqov «Qan yaddaşı» kitabının «Doğmaları yad gördüm» fəslində yazır: «1953-cü ilin o soyuq fevral gecəsində Naxçıvan DTK-sında Çuraşovun kabinetində dindiriləndən sonra elə bil içimdə nə isə qırılmışdı. Özümü ümidsiz və tənha hiss eləyirdim. Dərdimi yalnız Qasıma danışırdım». (22)

Qasım müəllim əsl insan, cəfakeş alim idi. Onun prinsipiallığı, ürəyinin təmizliyi, uşaq kimi saflığı bir çox hallarda ziyalı keyfiyyətiydi. Qasım müəllimə həmişə qardaş gözü ilə baxmışam. Hayıf ki, vaxtsız əcəl onu aramızdan tez apardı.» Nə yaxşı ki, dünyada dərd anlayan, xeyirxahlığa üz tutan insanlar az deyil. Elə bil bu kövrək misraları şair Qasım müəllim haqqında demişdir:

***Şöhrətə yetirən bağı bar imiş,***
***Ən uca dağların başı qar imiş,***
***Yaxşı ki, dünyada yaxşı var imiş,***
***Yoxsa tərk olardıq yaman əlində.***

Bəli, o sərt illərin dəhşətli rejimi çoxlarını doğru yoldan çəkilməyə, dostlarından, doğmalarından üz döndərməyə məcbur etmişdi. Lakin Qasım Mustafayev

kimi adamlar heç vaxt qaraya ağ deməmişdilər, həmişə darda sınanmışdılar, güvənc yeri, ümid yeri olmuşdular. Doğmalar da, yadlar da onu belə görüb, belə tanımışdılar. İndi də bax beləcə, ürəklərdə xatırlanır. (22)

**Professor Cəfər Cəfərovun xatirələrindən:** Qasım Mustafayevlə mənim ilk tanışlığım 1945-ci ildə olmuşdur. Mən İrəvan Pedaqoji Texnikumun I kursuna daxil olanda, Qasım müəllim II kursda  oxuyurdu. İrəvan Pedaqoji məktəbində Qərbi Azərbaycanın bütün rayonlarından tələbələr oxuyurdu. Yaxın rayonların uşaqları şənbə və bazar günləri evlərinə gedirdilər. Bizim (Qasım müəllimlə mənim) rayonlarımız nisbətən uzaq olduğunf görə (o, Amasiyadan, mən Əştərəkdən idik) yataqxanada qalırdıq və bir-birimizi daha yaxından tanıyırdıq, bundan əlavə biz yaşıd idik. Daha çox bir yerdə olurduq. Bizim dostluğumuz da buradan qaynaqlanırdı. Qasım bütün dərslərini əla qiymətlərlə oxuyardı, xüsusilə riyaziyyatı daha gözəl bilirdi. Hətta bir dəfə riyaziyyat müəllimimiz çətin bir məsələ vermişdi, özü də demişdi ki, “kim bu məsələni həll edə bilsə, ona əla qiymət yazacağam”. Mən həmin məsələni Qasıma verdim, həll edib qayıtardı. Səkkiz sualdan ibarət idi. Riyaziyyat dərsində bildirdim ki, mən həll eləmişəm. Yazı taxtasında yazdım və mənə əla qiymət verdi. Qasımı texnikumda barmaqla göstərərək deyərdilər: “Bax! Riyaziyyatı gözəl bilən bu oğlandır”.

Biz texnikumu bitirəndən sonra bir neçə il bir-birimizi görmədik. Müxtəlif institut və aspiranturada oxuduq. Hətta dissertasiyalar müdafiə edib, alimlik dərəcəsi də aldıq.

Mən APİ-də Qasım müəllim Akademiyanın Riyaziyyat İnstitutunda işləyirdik. Bir-birimizdən xəbərimiz yox idi. Yalnız onu eşitmişdim ki, Naxçıvan Müəllimlər İnstitutunda riyaziyyat müəllimi işləyir. Günlərin birində mən kafedramızda idim, Tarix kafedrasının əməkdaşı Xanım müəllimə (ADU-da işləyən görkəmli riyaziyyatçı Fərmanın anası idi. Fərman müəllimlə mən tanış idim. ADU-da bir dövrdə oxumuşduq). Xanım müəllimə söhbət əsnasında dedi ki, "Qasım müəllimlə Fərman APİ-yə gəlmişdilər". Mən soruşdum, "Hansı Qasım müəllim?", Xanım müəllim: "Riyaziyyatçı, Amasiyalı Qasım müəllim, özü də bizim institutda saat hesabı dərs deyir". 25 ildən çox idi ki, görüşməmişdim. Görsəm, tanımazdım, ona görə Xanım müəllimdən xahiş etdim. Bura gələndə xəbər etsin. Belə də oldu, biz bir-birimizlə köhnə dostlar kimi yenidən görüşdük. Bundan sonra bizim əsl dostluğumuz, mən deyərdim ki, qardaşlığımız başladı. Bu dostluq ailə dostluğuna çevirildi, hətta bir neçə tərəfdən uzaq qohumluğumuz da çatırdı. Bir çox hallarda görüşlərə, səfərlərə də birlikdə gedərdik. Bir dəfə Qasım müəllim dedi ki, "Cəfər, bilirsənmi, bizim tələbə yoldaşımız Budaq Budaqov Coğrafiya institutunda direktor müavini işləyir. Gedək bir görüşək". Mən razılaşdım. Budaq müəllimlə görüşə getdik. Çox səmimi və mehribanlıqla xeyli söhbət etdik. Bundan sonra Budaq müəllimlə tez-tez görüşərdik. Budaq müəllim müxtəlif mövzularda o qədər gözəl söhbətlər edirdi ki, həmin söhbətlərdən doymaq olmurdu. O, ədəbiyyatı xalqımızın

adət-ənənələrini də gözəl bilirdi. Onun “Çobankərə eli”, “Təbiət və poeziya” və s. kimi əsərləri də var idi. Hətta sonralar mən Budaq müəllim barədə “El Ağsaqqalı” adlı böyük bir məqalə də yazdım.

APİ-də qiyabi şöbə olduğuna görə tez-tez rayonlara məsləhətə gedərdik. Bir dəfə də Naxçıvana getmişdik. Mexmanxanada yer götürmüşdük. Məsləhətdən sonra ora gəldik. Birdən qərara gəldik ki, İrəvana gedək. Qasım müəllimin qaynanası, qayınları İrəvanda yaşayırdılar. Mənim dayım Mamedov Əhməd Muxtar oğlu İrəvanda Respublika Prokurorluğunda zona prokuroru işləyirdi. Axşam tərəfi idi. Irəvana gedən yola gəldik. Maşın gözləyirdik. Bir də gördük, Ermənistan saylı bir “QAZ-21” markalı avtomaşın dayanıb, yaxınlaşdıq, bildirdik ki, “bizi də apararsınızmı?”. Sürücü Qasım müəllimə diqqətlə baxdı və birdən, “Siz Qasım müəllim deyilsinizmi?” deyərək, onu qucaqladı və bildirdi ki, “mən sizin qulluğunuza hazıram. Əyləşin maşına”. Maşına mindik, bizi düz evlərinə Kiçik Vediyə apardı. Tez bir quzu kəsdi və bizə böyük bir qonaqlıq verdi. Bu Qasım müəllimin texnikumda bir qrupda oxuyan tələbə yoldaşı Orucov Oruc müəllim idi. Səhər bizi düz İrəvan şəhərinə apardı. Aprelin 24 idi. Biz bufetdə oturub, çörək yeyirdik. Xörək nə isə Qasım müəllimin xoşuna gəlmədi. Xörək paylayanı çağırdı və onunla mübahisə etməyə başladı. Onu güc-bəla ilə sakitləşdirdim və dedim, “sən nə edirsən? Bilirsənmi, bu gün ermənilər üçün nə günüdür? Bu gün “genasid”dir. Bizim ikimizi də öldürərlər, qanımız batar”, o, “doğurdan, düz deyirsən?” dedi.

2-3 gün İrəvanda qaldıq. Bizim keçmiş kəndimiz Hamamlı İrəvana yaxın idi. Biz Əhməd dayım ilə birlikdə kəndimizə getdik. Kənddə daş-daşın üstündə qalmamışdı. Hətta oxuduğum məktəbin də xarabalarını Qasım müəllimə göstərdim. Bizim həyətyanı sahəmizdə ermənilər bostan əkmişdilər. Bir erməni qadını lobya yığırdı. Ona dedim, "bilirsənmi, bura bizim sahə olub". Qadın kədərli-kədərli qeyd etdi ki, "balik (oğlum) biz də Gancadanığ. Man da Gancanın hasratını çəkirəm, gözəl şəhər idi".

Kəndin ayağında gözəl bir bulaq var idi. Bulaqdan su içdik. Qasım müəllim də sudan içdi və qeyd etdi, "pəh-pəh, nə gözəl sudur", mən əlavə etdim, "yağ yaxşı yağdır, heyif it dərisindədir".

Qasım müəllim Naxçıvan Pedaqoji İnstitutunda rektor işləyəndə Həşim Ağayevdən (APİ-nin rektorundan) xahiş etdik ki, Cəfər müəllimə Naxçıvan İnstitutunda IV kursda xüsisi kurs oxumaq üçün 1 ay icazə versin. Həşim müəllim etiraz etmədi. Mən Naxçıvana getdim. Hər gün dərsdən sonra şənbə və bazar günləri Naxçıvan Respublikasının görkəmli yerlərinin birində olurduq, gözəl günlərimiz keçdi. Sonra o, yenidən APİ-yə qayıtdı. Qasım müəllim sadə, təvəzökar, səmimi, mehriban, hamıya kömək əlini uzadan bir şəxs idi, bacarıqlı pe_ daqoq idi. 3 dildə: azərbaycan, rus, erməni dilində dərs deyərdi, dəyərli elmi əsərlərin müəllifi idi. 3 dildə - azərbaycan, rus, ingilis dillərində lüğət də tərtib etmişdi. Yeri gəlmişkən qeyd edim ki, lüğətin Azərbaycan dili

sözlüyünü mən redaktə etmişdim, həmin kitabda mənə öz təşəkkürünü də bildirmişdi.

Qasım müəllim qayğıkeş ailə başçısı idi. Onun 4 qızı vardı. Hamısı ali təhsil almışdı. Mən qızların həm nişanında, həmdə toylarında yaxından iştirak edirdim. Demək olar ki, biz 50 ildən çox idi, dosluq edirdik. Bir-birimizdən bir tük qədər də inciməmişdik.

Qasımın əziz xatirəsi heç vaxt yaddan çıxmayacaqdır. Ruhun şad olsun, Qasım müəllim!

Qasım müəllim ilə İrəvan Pedaqoji məktəbi haqqında hər görüşümüzdə söhbət salanda necə də yana-yana danışırdı.

# HƏMİD ƏLİYEV



Həmid Zeynalabdin oğlu Əliyev 1924-cü ildə Qaraqoyunlu mahalının Əmirxeyir kəndində anadan olmuşdur. Atası Zeynalabdin kişi Qaraqoyunlu mahalının sayılıb-seçilən, böyük nüfuza malik el ağsaqqalarından biri idi.

H.Əliyev Əmirxeyir kənd ibtidai məktəbini sonra isə 1936-cı ildə Çaykənddəki yeddi illik məktəbi bitirdikdən sonra elə həmin ildə İrəvan azərbaycanlı pedaqoji texnikumuna daxil olur. 1939-cu ildə pedaqoji texnikumu bitirdikdən sonra 1940-ci ildə Azərbaycan Pedaqoji İnstitutunun tarix fakultəsinə daxil olmuşdur. 1941-ci ildə İkinci Dünya Müharibəsinin başlaması Həmid müəllimin təhsilini davam etdirməyə imkan vermir. O, 1942-ci ildə ordu sıralarına çağrılır. 1943-cü ilə qədər Şimali Qafqaz cəbhəsindəki döyüşlərdə fəal iştirak edir və döyüşlərin birində ağır yaralanır. Müalicəsi başa çatdıqdan sonra təhsilini davam etdirir.

1945-ci ildə ali təhsilini başa vurduqdan sonra Kras_ noselo (Çəmbərək) rayonuna qayıdır və Toxluca kənd orta məktəbinə direktor təyin olunur. 1947-ci ilə qədər burada çalışdıqdan sonra Gölkənd məktəbinə direktor təyin olunur. Onun elmə olan həvəsi onu 1949-cu ildə

Moskva Beynəlxalq Əlaqələr İnstitutunun aspiranturasına aparır. 1953-cü ildə aspiranturanı bitirən Həmid müəllim 1954-cü ildə dissertasiya müdafiə edərək, tarix elmləri namizədi alimlik dərəcəsi alır.

1955-ci ildən Azərbaycan Dövlət Pedaqoji İnstitutunda və Bakı Dövlət Universitetində dərs demişdir.

1967-ci ildə doktorluq dissertasiyası müdafiə edərək tarix elmləri doktoru elmi adına layiq görülür.

1968-ci ildə professor elmi vəzifəsinə seçilən Həmid müəllim 1991-ci ilə qədər beynəlxalq icmalçı kimi də fəaliyyət göstərmişdir.

1959-cu ildən AMEA-nın Şərqşünaslıq və Tarix İnstitutunda çalışan Həmid müəllimin rəhbərliyi altında 10 elmlər doktoru və 20 elmlər namizədi müdafiə edərək, alimlik elmi dərəcəsi almışdır.

H.Əliyevin Azərbaycanda Türkologiya elminin inkişafında böyük xidmətləri olmuşdur. Həmid müəllimin 100-dən artıq elmi əsəri və 10-dan artıq monoqrafiyası çap edilmişdir. Türkologiya elminin inkişafındakı xidmətlərinə görə respublikanın "Əməkdar mədəniyyət işçisi" adına layiq görülmüş və bir sıra orden və medallarla təltif edilmişdir. Onun təltif edildiyi ordenlər içərisində "Birinci dərəcəli Vətən Müharibəsi", "Qırmızı Əmək Bayrağı" ordenləri vardır.

Həmid müəllim təkcə böyük türkoloq alim kimi deyil həm də yüksək bədii yaradıcılıq qabiliyyətinə malik idi. 1988-ci ildə ermənlərin azərbaycanlılara qarşı törətdikləri qətliamları, azərbaycanlıları öz doğma yerdlarından

“Ermənistan”dan zorla, silah gücünə qovulmasını o özünün qələmə aldığı “Qaraqoyunlu” poemasında bədii lövhələrlə əks etdirmişdir.

Görkəmli alim Həmid Əliyev 2005-ci ildə Bakı şəhərində vəfat etmişdir.

# NƏZƏR PAŞAYEV



Nəzər Paşayev 1908-ci ildə Böyük Vedidə anadan olmuşdu. 1915-ci ildə atasını itirən Nəzər müəllim 1920-23-cü illərdə uşaq evində yaşamış, 1923-25-ci illərdə Goravan kəndində, 1925-27-ci illərdə isə Böyük Vedi kəndində ki, uşaq bağçasında təlimatçı işləmişdir.

1927-ci ildə İrəvan Azərbaycanlı Pedaqoji Texnikumuna daxil olan Nəzər Paşayev 1930-cu ildə həmin tədris ocağını bitirmişdir. Elə həmin ildə Böyük Vedi kəndindəki kəndli gənclər məktəbinə müdir təyin edilmişdir. 1932-ci ildə Vedi rayon partiya komitəsinin və "Ermənistan" Maarif Komissarlığının göndərişi ilə indiki Azərbaycan Dövlət Pedaqoji Universitetinə qəbul olunmuş, 1936-cı ildə isə oranı bitirmişdir. 1936-1939-cu illərdə İrəvan Azərbaycanlı Pedaqoji məktəbində və İrəvandakı Pedaqoji İnstitutun qiyabi şöbəsində tarix fənnini tədris etmişdir.

Elə həmin illərdə İrəvandakı Kirov rayon Partiya Komitəsində təlimatçı kimi fəaliyyət göstərmişdir. 1939-cu ildə Azərbaycan Dövlət Universitetinin aspiranturasına daxil olan Nəzər Paşayev həm də Müəllimləri Təkmilləşdirmə İnstitutunda dərs demişdir.

1942-ci ilin aprelində aspiranturanı yarımçıq qo-

yub müharibəyə getmiş, 1946-cı ildə cəbhədən geri qayıtdıqdan sonra isə təhsilini davam etdirərək, həm də Azərbaycan Dövlət Universitetində tarix fənnini tədris etmiş və 1949-cu ildə dissertasiya müdafiə edərək tarix elmləri namizədi adına layiq görülmüşdür.

12 mart 1958-ci ildə dosent elmi vəzifəsinə seçilmişdir. 1947-1959-cu illərdə Azərbaycan Qiyabi Pedaqoji İnstitutunda, 1959-cu ildən ömrünün sonuna kimi isə indiki Azərbaycan Dövlət Pedaqoji Universitetində "Azərbaycan Tarixi" kafedrasının müdiri vəzifəsində çalışmışdır. Nəzər Abdulla oğlu Paşayev 1960-cı illərdə doktorluq dissertasiyası müdafiə edərək tarix elmləri doktoru, professor dərəcəsinə qədər yüksəlmişdir.

# QƏŞƏM ASLANOV



Qəşəm Novruz oğlu Aslanov 1935-ci ildə Ulu Göyçənin Kəsəmən kəndində anadan olub. 1947-ci ildə İrəvan Pedaqoji Texnikumuna daxil olan Qəşəm müəllim 1948-ci ildə deportasiyası ilə əlaqədar olaraq Xanlarda Pedaqoji məktəbi, Bakıda Dövlət Universitetini, Moskvada Ali Partiya məktəbini bitirib. Qəşəm müəllimin həyatı, fəaliyyəti, keçdiyi yol çoxlarına bir örnəkdir.

Basarkeçərdə rayon komsomol komitəsinin birinci katibi (1959), Basarkeçər rayon partiya komitəsi katibinin idealoji iş üzrə müavini (1962), Azərbaycan KP MK-nın məsul təşkilatçısı (1968), "Azərbaycan gəncləri" qəzetinin redaktoru (1970), Şuşa rayon partiya komitəsinin birinci katibi (1972), 1975-1984-cü illərdə İsmayıllı və Abşeron rayon partiya komitələrinin birinci katibi işləmişdir.

Böyük ziyalı, ictimai xadim Qəşəm müəllimin yazıçı-publisist kimi ədəbi fəaliyyəti də hər zaman çox geniş olmuşdur. Qəşəm müəllim həm də xeyli sayda bədii, publisistik əsərlərin müəllifidir.

1984-cü ildə avtomobil qəzası nəticəsində həlak olmuşdur. Məzarı Bakı şəhərindəki ikinci fəxri xiyabandadır. Qəşəm müəllim bu gün də minnətdarlıqla yad edilməkdədir.

## ŞƏFİQƏ MƏHƏRRƏMOVA



**Məmmədəli Məhərrəmov və Şəfiqə Məhərrəmova**

Dünyada millətlərin böyük yüksəlişlərə nail olması bir daha təsdiq edir ki, bu nailiyyətlər səmərəli müəllim əməyi, onun yorulmaz səyi nəticəsində mümkün olmuşdur.

Bütün şəxsi marağını, səy və bacarığını ancaq azərbaycanlı balalarının maariflənməsi uğrunda mübarizəyə sərf edən görkəmli və fədakar müəllimlərdən biri də Şəfiqə xanım Məşədi Ələsgər qızı Məhərrəmova idi. Ş.Məhərrəmova 1925-ci ildə Azərbaycanın qədim mə-



Şəfiqə Məhərrəmova müəllimlər qurultayında, Moskva, 1959.



**Məmmədəli Məhərrəmov şagirdləri ilə birlikdə**

dəniyyət mərkəzlərindən biri olan İrəvan şəhərində məşhur bir ailədə anadan olmuşdur. Şəfiqə xanımın ailəsi İrəvanın Daşlı küçəsində yaşayırdı. İrəvan müəllimlər seminariyası da həmin küçədə yerləşirdi Atası Məşədi Ələsgər Hüseynqulu oğlu İrəvanın ən məşhur tacirlərindən idi. Onun Çin, Almaniya, İran və s. ölkələrlə ticarət əlaqələri var idi. Şəfiqə xanımın ana nənəsi Hacı Səkinə İrəvanın ən tanınmış mülkədarı Hacı Mehdi Ağanın qızı olub. İrəvanda Hacı Mehdi Ağanın 50-yə qədər mülkü, dükanları, dəyirmanı və s. əmlakları olub. Hacı Mehdi İrəvanda məşhur Avşarlar tayfasından idi. 1918-20-ci illərdə erməni şovinistlərinin azərbaycanlılara qarşı törətdikləri qətliamlar zamanı Avşarlar tayfasının bir qismi Türkiyəyə, bir qismi Bakıya,

bir qismi isə İrana köçməyə məcbur olur. Bu tayfadan xeyli sayda ziyalılar yetişmişdir. Xalqımızın görkəmli ziyalısı, xalq artisti Muxtar Avşarov da həmin nəslin layiqli nümayəndələrindən biridir.

1920-ci ildə noyabr ayının 29-da "Ermənistan"da sovet hakimiyyəti qurulduqdan sonra Afşarovlar ailəsi də öz doğma yurduna geri dönür. Hacı Mehdi Ağa ermənilər tərəfindən zəbt edilmiş mülklərinin yalnız 7-ni güc-bəla ilə geri ala bilir.

1940-ci ildə İrəvan Pedaqoji Texnikumuna daxil olan Şəfiqə xanım 1943-cü ildə texnikumu əla qiymətlərlə başa vurduqdan sonra Amasiya rayonunda ilk əmək fəaliyyətinə başlayır.

1948-53-cü illər deportasiyası zamanı Şəfiqə xanımın da ailəsi Azərbaycana köçürülmüş, amma onun valideyinləri bir müddət Azərbaycanda yaşadıqdan sonra yenidən öz doğma ocağına Ağbaba-Şörəyel mahalının Güllübulaq kəndinə, qayıtmışlar. Şəfiqə xanımın pedaqoji fəaliyyətinin yenidən ən məhsuldar, ən parlaq səhfələri yaranır, o sözün əsl mənasında burada yenidən maarif guşəsi yaradır. Şəfiqə müəllimə Güllücə kəndində işlədikdən sonra pedaqoji fəaliyyətini Ağbaba mahalının Oxcuoğlu və Güllübulaq kənd məktəblərində davam etdirir. Həmin kəndlərdə həm də Qadınlar Şurasının sədri olub. 1961-ci ildə Moskvada müəllimlər qurultayının nümayəndəsi olan Şəfiqə xanım pedaqoji və ictimai fəaliyyətinə görə orden və medallara layiq görülüb. 1973-cü ildə "Əməkdar müəllim" fəxri adını almışdır.

Yarım əsrə yaxın Qərbi Azərbaycanda milli maarifimizin inkişafı uğrunda çalışan yüzlərlə azərbaycanlı balalarının savadlanması, ali təhsilə yiyələnməsi üçün heç bir qüvvə və bacarığını əsirgəməyən maarif fədaisi Şəfiqə xanım Məhərrəmova və həyat yoldaşı Məmmədəli müəllim bu gün də minnətdarlıqla yad edilirlər.

# HƏSƏNOV İBRAHİM ƏZİZ OĞLU



Həsənov İbrahim Əziz oğlu 1927- ci ildə azərbaycanlıların tarixi və qədim yurd yerləri olan Qərbi Azərbaycanın füsunkar bölgəsi, Göyçə mahalının kiçik Məzrə kəndində, zəngin bir ailədə dünyaya göz açmışdır. Bu tarixi gerçəklikdir ki, Göyçə mahalı bu günkü qondarma Ermənistan dövlətinin bir çox yerləri kimi, 1918- ciilədək Azərbaycanın ərazisində olmuşdur.

Ailəsi haqqında kiçik bir tarixi faktı deməklə onun necə bir ailədə və mühitdə böyüyüb başa çatması təssəvürü yaratmaq olar. Babası Kərbəlayı Həsən dövrünün çox tanınmış şəxsiyyəti olmuşdur.

Türkiyənin İğdır şəhərində təhsil almış Kərbəlayı Həsən kişi cəsarəti, mərdliyi, prinsipiallığı və milli təəsübkeşliyi ilə sayılıb-seçilirdi. O, Göyçə mahalında yeddi kəndin hakimi və kəndxudası olmuşdur. XIX əsrin sonunda və XX əsrin əvvələrində erməni daşnaklarının xarici havadarlarının dəstəyi ilə bölgədə yaratmış olduqları milli münaqişələr zamanı Kərbalayı Həsən heç bir təhlükədən və qüvvədən qorxmayaraq, onlar qarşısında hər zaman qətiyyət və qorxmazlıq nümayiş etdirmiş, erməni xəyanətindən və təhlükəsindən azərbaycanlıları qorumağa çalışmışdır. Hər zaman arxadan zərbə vurmaq

və xəyanət etmək xislətinə malik olan erməni daşnakları, mənfur niyyətlərini həyata keçirmək yolunda Kərbəlayi Həsənin onlara hər zaman maneə olduqlarını bilirdilər.



**İbrahimin atası Əziz bəy**

Odur ki, o, nəyin bahasına olursa-olsun aradan götürülməli idi və ona tələ hazırlanırdı və izlənilirdi. Çox təəssüf ki, Kərbalayı Həsən bunu bilsə də, heç vaxt qorxmazdı və tək gəzərdi. Bir gün 1906-cı ildə Kərbəlayı Həsən kişi günün günorta çağında at belində gedərkən, qəfildən həmin qüvvələr tərəfindən arxadan xəncərlə vurularaq,

qətlə yetirilmişdir. Belə bir mühitdə və zamanda İbrahim Həsənovun uşaqlıq və gənclik həyatı çox mürəkkəb və ziddiyyətli keçmiş, bütün hallarda o uğur qazanmağın ağır zəhmətdən və çətin yollardan keçdiyini bilirdi.

Həsənov İbrahim uşaq yaşlarından təhsilə və elmə böyük marağı var idi və bu onun ailəsinin diqqətini çəkmişdi. Hələ 14-15 yaşında olarkən İrəvandakı Pedaqoji Texnikuma daxil olmuş və oranı əla qiymətlərlə bitirmişdir. O, Texnikumda oxuduğu illərdə tələbə olmasına baxmayaraq, həmkarların sədri olmuş, İrəvanda pedaqoji təhsili ilə bərabər, mühasibatlıq ixtisasına da yiyələnmişdir. O. zəngin İrəvan ədəbi mühitində təhsil aldığı müddətdə ölkəmizin ictimai həyatında, eləcə də Azərbaycan elmində və təhsilində xüsusi xidmətləri olan Budaq Budaqov, Həsən Zeynalov, Yusif Yusifov kimi ziyalı insanlarla tələbə yoldaşı olmuşdu. Eyni zamanda, azərbaycan türklərinin ən qədim məskəni olan İrəvan tarixinin və maddi mənəvi irsinin xəyanətkar qonşularımız tərəfindən məhv edilməsini hər zaman ürək ağrısı ilə söyləyirdi.

Gənc məzun İbrahim Həsənovun istedadlı olmasını və təşkilatçılığını nəzərə alaraq, bir başa yaşadığı kənddə 8 illik məktəbə direktor təyin edilmişdir.

Çox qısa müddətdən sonra o, 19 yaşında Basarkeçər rayonunun Şorca kəndində o dövr üçün böyük hadisə hesab edilən kolxoz sədri vəzifəsinə təyin olunmuşdur. Lakin bu vəzifələrə təyin olunmasına baxmayaraq, onun üçün əsas amal və məqsəd təhsilini daha yüksək pillələrdə

davam etdirmək olmuşdur. Nəhayət Həsənov İbrahim öz seçimi üçün qərarını verir və bu məqsədlə 1951-ci ildə indiki Bakı Dövlət Universitetinin fəlsəfə fakultəsinə daxil olmuşdur. Sonralar isə, o ən gözəl və ali peşə hesab etdiyi müəllim sənətinin ali təhsilini almaq üçün Pedaqoji Universitetə daxil olur və fərqləmə diplomu ilə bitirir. Ümumiyyətlə harada oxumağından aslı olmayaraq, onun üçün bir qiymət olmuşdur: Əla

Xudu Məmmədov, Teymur Bünyadov, Səfiyar Musayev, Əbdüləli Kərimov kimi görkəmli ziyalı insanlar Bakıda oxuduğu illərdə onun ən yaxın tələbə yoldaşları və yataqxana dostları idi. Yataqxanada bir otaqda qaldığı görkəmli alim və ziyalı Xudu Məmmədov özünün Qoşa Qanad əsərini şəxsən özü əziz tələbəlik dostuna təqdim etmişdi.

Həsən İbrahimov bu amalla çalışdığı vəzifələrdə də, insanlara xidmətində də hər zaman ən yüksək xidməti özünün xöşbəxtliyi hesab etmişdir. O tutduğu bütün vəzifələrdə eyni zamanda müxtəlif ictimai işlərdə vicdanla çalışmışdır. Bu mənada Bakıda ali təhsilini bitirdikdən sonra təyinatla işləməyə gəldiyi Qazax Müəllimlər İnstitutunda müəllim işləməklə bərabər, institutun həmkarlar təşkilatının sədri də olmuşdur 1948- ci illərdə erməni daşnaklarının Moskvadan- Siyasi Büro ilə gizlicə azərbaycanlılara qarşı apardığı etnik təmizləmə onu çox narahat edirdi.

1953- cü ildə İnstitutdakı nüfuzu və hörmətinə baxmayaraq, Qərbi Azərbaycandakı milli məsələlərin

ildən-ilə gərginləşdiyini gördüyündən, O, yenidən Kiçik Məzrə kəndinə dönməyi qərara almışdır. Burada ilk gündən bir neçə kəndin birləşdiyi Kiçik Məzrədə kiolxoz sədri və kənddə Molla Pənah Vaqif adına məktəbin direktoru vəzifəsində işləyir.

Hətta çox gənc yaşlarında nümunəvi direktor və təhsil işçisi kimi "Əməkdar müəllim" adına layiq görülür. O dəfələrlə təhsil işçilərinin respublika və ittifaq qurultayı-



nın nümayəndəsi seçilmişdir. Qərbi Azərbaycanda çalışdığı illərdə o dövrdə respublikamızda çox tanınan və müxtəlif partiya və dövlət vəzifələrində çalışan Yunis Rzayev, Həbib Həsənov, Qəşəm Aslanov, Tapdıq Əmiraslanov, Mahmud Hacıyev kimi ziyalılar onun ən yaxın dostları və silahdaşları idi.

XX əsr erməni millətçilərinin türk-azərbaycan millətinə qarşı total hücuma keçdiyi bir əsr kimi yadda qalacaqdır. Hər fürsətdə irqçi və düşmənçilik siyasəti aparan qondarma dövlətin idarə ediciləri, eyni zamanda orada bütün toponimlərin dəyişdirilməsi və kütləvi olaraq erməniləşdirilməsi siyasəti də həyata keçirmişlər. Qərbi Azərbaycanın tam erməniləşməsi siyasətinə sözsüz ki, Moskva böyük dəstək verirdi.



**İ.Həsənov ailə üzüvləri ilə birlikdə**

1970- ci illərdə Qərbi Azərbaycan əhalisinin azərbaycanlı, eləcə də Kiçik Məzrə kəndinin tam azərbaycanlılardan ibarət olmasına baxmayaraq, məktəbin adının dəyişdirilərək, hansısa erməni millətçisinin adının verilməsi qərarı alınmışdır. Məktəbin direktoru Həsənov İbrahim bu qərarla heç cürə barışa bilmirdi. Onun ümidini

bağladığı yeganə şəxs, o dövürdə Azərbaycan KPMK katibi xalqımızın ümummilli lideri Heydər Əliyev idi. Ona görə heç tərəddüd etmədən hər zaman özünə və xalqına arxa hesab etdiyi Heydər Əliyevə teleqram vasitəsi ilə müraciət etmişdir. Ən qısa zamanda onun müraciətinə bu Böyük Şəxsiyyətdən cavab gəlmişdir. Xalqımızın Ulu Öndəri Heydər Əliyevin ittifaqda və bölgədəki nüfuzunun nəticəsi idi ki, onun müdaxiləsi ilə İrəvanın düşmənçilik mövqeyindən qəbul etdiyi qərar bir gün içərsində ləğv edildi. Həsənov İbrahim ömrünün sonunadək bu hadisəni unutmadı və unutdurmadı.

Həsənov İbrahim, sonralar ailəsinin Qazax rayonun Ağstafa şəhərinə (o zaman hər iki rayon bir inzibati idarəçilikdə idi) köçməsi ilə əlaqədar 1974-cü ildən ömrünün sonuna qədər Ağstafada yaşadı. Burada yaşadığı dövrdə O, 1 saylı məktəbin direktoru, Qazax rayon Təhsil Şöbəsinin müdiri, müəllif məktəbi olduğu Qaçaq Kərəm qəsəbəsinin direktoru vəzifəsində çalışmışdır.

## KÖVSƏR TARVERDİYEVA



Tarverdiyeva Kövsər Məhəmməd qızı, 1914-cü ildə iyul ayının 14-də qədim İrəvanda bağçı ailəsində dünyaya gəlmişdir. İlk təhsilini 9-cu sinifə qədər məşhur dramaturq-maarifçi Həşim bəy Vəzirov adına məktəbdə almış, sonra İrəvan Pedaqoji Texnikumuna keçirilib və 1931-ci ildə oranı bitirmişdir.

Azərbaycan dilində ali məktəb olmaması səbəbindən 1931-ci tədris ilində erməni dilində Tibb İnstitutuna daxil olub. İrəvanda gələcək perspektivin olmadığını görən K.Tariverdiyeva 1932-ci ildə ailəsi ilə Bakıya köçür və bununla əlaqədar olaraq təhsili yarımçıq qalır.

Bakıda 1933-cü ildə keçmiş Lenin adına Hacı Zeynalabdin Tağıyevin inşa etdiyi toxuculuq fabriki nəzdində olan məktəbdə müəllim işləmiş və 1933-cü tədris ilində Nəsrəddin Tusi adına Pedaqoji Universitetinin dil-ədəbiyyat fakultəsinə daxil olub və 1937-ci ildə oranı bitirmişdir. Bir müddət tələbəlik illərində Azərnəşrdə korrektor, sonra da Bakı Dövlət Universitetinin kitabxanasında kitabxanaçı işləmiş və 1937-ci ildən 1939-cu ilə qədər dil-ədəbiyyat fakultəsinin dekanı olmuşdur. 1939-cu ildə Azərbaycan EA aspiranturasına daxil olub, 1942-ci ildə oranı bitirmişdir. 1944-cü ildə Azərbaycan Tibb

İnstitutuna daxil olmuş 1949-cu ildə oranı bitirmişdir. 1952-ci ildə dissertasiyasını uğurla müdafiə edib filologiya elmləri namizədi alimlik dərəcəsi almışdır. 1952-ci ildən 1954-cü ilə qədər Pedaqoji Universitetin qiyabi şöbəsində məktəbəqədər tərbiyə fakultəsinin dekanı vəzifəsində işləmişdir. Bir neçə dil bilməyi nəticəsində müxtəlif jurnallar və dövrü mətbuat orqanlarında yüzə yaxın, altmış çap vərəqindən artıq elmi-kütləvi məqalələr və monoqrafıyaları nəşr edilmiş və bir çox tərcümələr etmişdir. K.Tarverdiyeva 52 il fasiləsiz olaraq ancaq H.Tusi adına Pedaqoji Universitetdə çalışmışdır. Müəllim kadrlarının yetişdirilməsində uzun illər səmərəli fəaliyyətini nəzərə alaraq iki dəfə Azərbaycan SSR Ali Sovetinin fəxri fərmanları, xalq maarifi sahəsində uzun müddətli səmərəli xidmətə görə “Əməkdar Ali məktəb” işçisi kimi fəxri adla təltif olunmuşdur. “Qafqazın müdafiəsi uğrunda” Böyük Vətən müharibəsində fədakar əməyə görə, “Əmək veteranı” və b. medallar almışdır.

Kövsər xanım həyatda qazandığı nailiyyətlərdə İrəvan Pedaqoji Texnikumun böyük rol oynadığını xüsusi qeyd edərdi.

## NƏRİMAN YUSİFOV



Nəriman Yusifov 1927-ci ildə Qərbi Azərbaycanın Vedibasar mahalının Böyük Vedi kəndində anadan olub.

Nəriman Yusifov 6 yaşında ikən Böyük Vedidəki orta məktəbin I sinfinə getmişdir. Xalq qəhrəmanı Abbasqulu bəy Şadlinskinin kiçik oğlu Məmmədlə, vedililərin yaxşı tanıdıqları Ovçu İslamla, Leonid Adurovla bir sinifdə oxuyub. O, 1940-cı ildə altıncı sinfi əla qiymətlərlə bitirib, Qərbi Azərbaycanın tanınmış ziyalısı, böyük qardaşı Bəhlul Yusifovun rəhbərlik etdiyi İrəvan Azərbaycanlı Pedaqoji Məktəbinə daxil olur. Ağır müharibə illərində orada oxuya-oxuya doğma kəndlərindəki orta məktəbdə müəllimlik fəaliyyətinə başlayır. Eyni zamanda kolxozun idarəsində hesabdar, yayda isə yaylaqdakı fermanın anbar müdiri işləyir. Nəriman Yusifov 1945-ci ildə İrəvandakı Pedaqoji İnstitutun coğrafiya fakültəsinə daxil olur.

Nəriman Yusifov 1946-cı ildə Azərbaycan Dövlət Universitetinin biologiya fakültəsinə qəbul edilir. Amma buna baxmayaraq yarım ildən sonra təhsilini hüquq fakültəsində davam etdirmək qərarına gəlir. O, oxuduğu illərdə məktəblərin birində tarix müəllimi, Azərbaycan

LKGİ MK-da təlimatçı kimi çalışır. 1950-ci ildə ali təhsilini başa vurur.

N.YusifoV 1950-1960-cı illərdə Qarabağın Vilayət. (Xankəndi rayonu üzrə) Prokurorunun köməkçisi, Bakı şəhəri Orconikidze rayon prokurorunun köməkçisi, Bakı şəhər prokurorluğunda müstəntiq, Bakı şəhər Caparidze



rayon prokuroru, şəhər prokurorluğunda şöbə prokuroru, Bakı şəhər Dzerjinski rayon prokurorluğunda müstəntiq, Bakı şəhər Oktyabr rayon prokurorluğunda müstəntiq, Bakı şəhər Artyom rayon prokuroru vəzifələrində işləmişdir.

Hüquq elmləri namizədi Nəriman Yusifov 1963-cü ilin oktyabr ayında indiki AMEA-nın Fəlsəfə İnstitutunda elmi işçi və baş elmi işçi vəzifəsində çalışmışdır. N.Yusifov uzun müddət SSRİ Ali Sovetində hüquq bölməsinin müdiri vəzifəsində işləmişdir.

1977-ci ildə Bakı Şəhər Prokuroru, 1978-ci ildə isə Ədliyyə Naziri vəzifəsinə təyin edilmişdir. (6)

N.Yusifov İrəvan Pedaqoji məktəbinin onun ömür kitabının da ən gözəl səhifələrindən birini təşkil etdiyini həmişə qeyd etmişdir.

## ZƏHRA ƏLİYEVA



Zəhra Cabbar qızı Əliyeva 1928-ci ildə yanvar ayının 28-də Azərbaycanın qədim mədəniyyət mərkəzlərindən biri olan İrəvan şəhərində anadan olmuşdur. Zəhra xanımın mənəvi inkişafında atası Cabbar Bağır oğlu Əliyevin, anası Münəvvər Rza bəy qızı Sultanhüseynbəyovanın da böyük təsiri olmuşdur. Zəhra xanım uşaqlıq və gənclik illərini İrəvanda keçirmişdir. O, 1942-ci ildə İrəvan şəhərində nümunəvi məktəb sayılan Haşımbəyin məktəbini bitirdikdən sonra elə həmin ildə İrəvan Pedaqoji məktəbinə daxil olmuşdur. Pedaqoji məktəbdə oxuduğu müddətdə müəllim və tələbə kollektivinin dərin rəğbətini qazanan Zəhra xanım məktəbin komsomol komitəsinin katibi seçilmişdir. Pedaqoji məktəbi əla qiymətlərlə bitirən Zəhra xanım 1945/46-cı illərdə Zəngibasar rayonunun Aşağı Necili kəndindəki yediillik məktəbdə müəllim işləmişdir. Elmə böyük həvəsi olduğu üçün təhsilini və biliyini artırmağa hər zaman ciddi səy göstərirdi. Bu məqsədlə də o, 1946-cı ildə İrəvan Pedaqoji İnstitutunun (Azərbaycan şöbəsinə) Azərbaycan dili və ədəbiyyatı şöbəsinə qəbul olur.

1948-ci ildə azərbaycanlıların "Ermənistan"dan deportasiya edilməsi ilə əlaqədar İnstitutun azərbaycanlı

şöbəsi də ləğv olunaraq indiki Azərbaycan Dövlət Pedaqoji Universitetinə köçürülmüşdür. ADPU-də təhsilini davam etdirən Zəhra xanım 1950-ci ildə ali təhsilini başa vurduqdan sonra Yasamal rayonundakı 51 nömrəli fəhlə-gənclər məktəbində Azərbaycan dili və ədəbiyyatı müəllimi işləmişdir. 1953-1962-ci illərdə Yasamal rayonundakı 199 nömrəli məktəbdə işləyən Zəhra xanımın pedaqoji fəaliyyəti, qabaqcıl müəllim kimi təcrübəsi Bakı şəhərində geniş yayılmışdır. 1961-ci ildə AMEA-nın Dil və Ədəbiyyat İnstitutunun aspiranturasına daxil olan Zəhra xanım 1966-cı ildə uğurla dissertasiya müdafiə edərək filologiya elmləri namizədi alimlik dərəcəsinə layiq görülmüşdür.

Zəhra xanım müxtəlif vaxtlarda Maarif Nazirliyində metodist (1964-1967), proqram-metodika idarəsində orijinal dərsliklər üzrə elmi-metodik bölmələrin elmi katibi, baş məktəblər idarəsinin rəisi və s. vəzifələrdə çalışmışdır.

Öz pedaqoji və ədəbi fəaliyyətini milli mədəniyyətimizin, ədəbiyyatımızın inkişafına və zənginləşməsinə həsr edən Zəhra xanım 15 dərslik və metodik vəsaitin, 160-dan artıq elmi, publisistik, ədəbi-tənqidi və s. əsərlərin müəllifidir. Onun Rus, Ukrayna, Belarus, Türkmən, Qazax və başqa dillərdə nəşr olunan nüfuzlu mətbuat orqanlarında bir sıra əsərləri çap edilmişdir. Zəhra xanımın pedaqoji, ədəbi və ictimai fəaliyyəti hökumət tərəfindən yüksək qiymətləndirilmiş, 1971-ci ildə ”SSRİ maarif əlaçısı” döş nişanı, 1981-ci ildə “Şərəf nişanı”,

1988-ci ildə “Əmək veteranı” medalı və digər fəxri fərman və adlarla təltif edilərək mükafatlandırılmışdır. 1982-90-cı illərdə “Azərbaycan məktəbi” jurnalının baş redaktoru olmuş fədakar pedaqoq Zəhra xanımın elmi, pedaqoji fəaliyyəti bu gün də böyük hörmət və ehtiramla yad edilir.

## HƏSƏNOV HƏBİB RƏHIM OĞLU
## (1922-2004)



Həbib Rəhim oğlu Həsənov 1922-ci ilin avqustun 5-də “Ermənistan”ın Nor-Bayazit rayonunun Ağzıbir kəndində anadan olmuşdur. 1938-ci ildə 7-illik məktəbi bitirdikdən sonra İrəvan Azərbaycan Pedaqoji Məktəbinə daxil olmuşdur. 1940-42-ci illərdə Nor-Bayazit rayonu Ağqala kəndi 7 illik məktəbində müəllim, sonra isə məktəbin direktoru vəzifəsində çalışmışdır.

1943-47-ci illərdə həmin rayonun Ağzıbir kəndində məktəb direktoru işləmişdir. 1947-1949-cu illərdə Ermənistan Respublikasının 2 illik partiya məktəbində təhsil almışdır. 1949-50-ci illərdə Ermənistan Respublikasının Əzizbəyov rayonu partiya komitəsinin təbliğat-təşviqat şöbəsinin müdiri, 1950-53-cü illərdə “Sovet Ermənistanı” qəzetinin partiya həyatı şöbəsinin müdiri, 1953-56-cı illərdə Üçmüədzin partiya komitəsinin ikinci katibi, 1956-60-cı illərdə Amasiya rayonunun birinci katibi vəzifələrində işləmişdir. 1959-60-cı illərdə Moskvada Ali Partiya Məktəbinin müdavimi olmuşdur. 1960-74-cü illərdə «Sovet Ermənistanı» qəzetinin baş redaktoru vəzifəsində çalışmışdır. Mətbuat sahəsində

АРМ. ССР
МИНИСТЕРСТВО ПРОСВЕЩЕНИЯ
ГОС. ЗАОЧНЫЙ ПЕДАГОГИЧЕСКИЙ ИНСТИТУТ
Ереван, Амирян № 28

Фамилия, имя, отчество Гасанов Габиб Рагим оглы
Факультет Языко-литературный
Дата вступления 1944-45 уч. год.
Где окончил среднюю школу и когда Ереванский Аз. пед. учил. 1940-41 уч. г. Диплом № 2
Адрес Н. Баязетский р-н. с. Агзыбир Арм. ССР.

| Курсы | Предметы по курсам | Дата сдачи экзаменов | Фамилия, имя лектора | Оценка | Примечание |
|---|---|---|---|---|---|
| I курс. первый курс. I | 1 Азербайдж. яз. | | Фахрадова Ш. | Отл. | |
| | 2 Древн. Азерб. лит. | | Фахрадов Ф. | Отл. | |
| | 3 Осн. Марк. Ленин. | | Юсифов Ю. | Отл. | |
| | 4 Аз. лит. средн. век. | | Фахрадов Ф. | Отл. | |
| | 5 История Азерб. языка. | | Везиев З. | Отл. | |
| | 6 Фольклор | | Фахрадов Ф. | Отл. | |
| | 1 Русский яз. | | Полатова Н. | Отл. | |
| | 2 Армянский яз. | | Аветисян А. | зачтено | |
| | 3 Языковедение | | Везиев З. | Отл. | |
| | 4 Психология | | Багирова Т. | Отл. | |
| | 5 Теория литер. | | Раджабов И. | Отл. | |
| | 6 Совр. Азерб. язык. | | Везиев З. | зачтено | |
| | 7 | | | | |
| | 8 | | | | |
| | 9 | | | | |
| | 10 | | | | |
| второй курс. | 1 Азерб. язык. | | Фахрадова Ш. | Отл. | |
| | 2 Азерб. лит. XIX в. | | Фахрадов Ф. | Отл. | |
| | 3 Ист. Совр. Аз. языка. | | Везиев З. | зачтено | |
| | 4 Азерб. лит XX в. | | Фахрадов Ф. | зачтено | |
| | 5 Осн. Марк. Ленинизма | | Юсифов Ю. | Отл. | |
| | 6 Педагогика. | | Наджафова С. | Отл. | |
| | 7 Диалектология | | Везиев З. | зачтено | |
| | 8 Русский язык. | | Полатова Н. | Отл. | |
| | 9 Армянский яз. | | Аветисян А. | Отл. | |
| | 10 IV-пятил. план | | Мамедов И. | зачтено | |
| | 1 Школьн. гигиена | | Сулейманова З. | зачтено | |
| | 2 Ист. Азерб. язык | | Везиев З. | Отл. | |
| | 3 | | | | |
| третий курс. | 1 Мет. Аз. литер. | 8/VII-47. | Везиев З. | Отл. | |
| | 2 Азерб. язык | 16/VII-47. | Фахрадова Ш. | Отл. | |
| | 3 Русский язык | | Полатова Н. | Отл. | |
| | 4 Диалектология | | Везиев З. | Отл. | |
| | 5 Азерб. лит. XX в. | | Фахрадов Ф. | Отл. | |
| | 6 Азерб. лит. Совр. времен. | | Фахрадов Ф. | Отл. | |
| | 7 Русская литература | | Фахрадов Ф. | Отл. | |
| | 8 Худ. чтение. | | Везиев З. | зачтено | |
| | 9 | | | | |
| | 10 | | | | |
| | 1 | | | | |
| | 2 | | | | |
| | 3 | | | | |
| | 4 | | | | |
| V | 5 | | | | |
| | 6 | | | | |
| | 7 | | | | |
| | 8 | | | | |
| | 9 | | | | |
| | 10 | | | | |

səmərəli fəaliyyətinə görə “əməkdar jurnalist” adına layiq görülmüşdür.

1957-75-ci illərdə davamlı olaraq “Ermənistan KP MK-nın üzvü, Ermənistan SSR Ali Sovetinin 4-5-6-7-8-ci çağırışlarının deputatı, Ermənistan SSR Ali Soveti Rəyasət Heyəti sədrinin müavini olmuşdur.

1974-cü ildən Azərbaycanın Tovuz rayonu partiya komitəsinin birinci katibi, 1980-ci ildən Azərbaycan SSR Dövlət Meşə Təsərrüfatı Komitəsinin sədri, 1981-1989-cu illərdə meşə təsərrüfatı naziri vəzifələrində çalışmışdır. 1976-cı ildən Azərbaycan KP MK-nın üzvü, Azərbaycan SSR Ali Sovetinin 9-cu və 10-cu çağırışlarının deputatı seçilmişdir.

2 dəfə Qırmızı Əmək Bayrağı və digər orden və medallarla təltif edilmişdir.

1989-cu ildə Ümumittifaq təqaüdçü statusunda təqaüdə çıxmışdır.

1997-2004-cü illərdə Azərbaycan mətbuatında Qərbi Azərbaycan, Qarabağ münaqişəsi və s. mövzularda məqalələrlə müntəzəm çıxış etmişdir.

1997-ci ildə Azərbaycan Dövlət Nəşriyyatında H.Həsənovun ***«Silinməz adlar, sağalmaz yaralar»*** adlı kitabı nəşr olunmuşdur. Əvvəllər qatı açılmamış tarixi faktlarla zəngin olan bu əsərdə ilk dəfə olaraq qədim Oğuz diyarında - Qərbi Azərbaycanda son 200 il ərzində azərbaycanlıların soyqırımı faktı demoqrafik statistik məlumatlar əsasında sübuta yetirilmişdir. Dördillik gərgin əməyinin nəticəsi olan ***«Silinməz adlar, sağalmaz***

***yaralar»*** kitabının ərsəyə gəlməsi üçün o, həm şəxsi kitabxanasının nadir materiallarından, həm də dövlət arxivlərinin sənədlərindən geniş istifadə etmiş, əldə etdiyi statistika əsasında tam yenı və orijinal cədvəllər tərtib etmiş, nadir xəritələri üzə çıxarmış, 656 Azərbaycan kəndinin təsnifatını vermişdir.

Kitabda xalqımızın tarixinə edilən təcavüzdən, soyqırımdan, deportasiyadan söhbət açılır. Ermənistan ərazisində olan və bu gün adları silinmiş 650 Azərbaycan kəndlərinin təsnifatı ilə yanaşı bu ərazilərin qədimdən rəsmi adları tarixi qaynaqlardan tapılıb bərpa olunmuş, 1918-ci ildən sonra bu yerlərin ermənisayağı dəyişdirilmiş adları, onların hamısının coğrafi koordinatları göstərilmişdir. Bu təsnifatda verilmiş həmin kənd və rayonlarda yaşamış azərbaycanlıların iki yüz il ərzində, yəni 1831, 1873, 1886, 1905, 1914, 1931-ci illərdə tədricən və soyqırım illərində dəfələrlə azalan sayı göstərilir. Bu da Azərbaycan xalqına qarşı daşnaklar tərəfindən planlaşdırılmış genosidini təsdiqləyən tarixi faktdır.

Həbib Həsənov İrəvan Pedaqoji Texnikumunun adını həmişə fəxrlə çəkərdi.

# MƏSİM MƏMMƏDOV



1925-ci ildə Haçaparaq kəndində anadan olmuş, orta məktəbi bitirdikdən sonra İrəvan Pedaqoji Texnikumunda təhsilini davam etdirmişdir.

Atası müharibədən sonra həbs edildiyindən dörd qardaş və beş bacısının qayğısı evin böyük oğlu Məsim müəllimin üzərinə düşür.

M.Məmmədov 1947-ci ildə dayısı H.Məmmədovun köməkliyi sayəsində ali təhsil almaq üçün Bakıya gəlir və APİ-yə daxil olur. Institutu bitirdikdən sonra İrəvana qayıdır.

Orta məktəbdə müəllim işləyə-işləyə İrəvan Dövlət Pedaqoji İnstitutuna dəvət edilir. 1964-cü ildən 1988-ci ilə qədər orada çalışır və elmi axtarışlarını davam etdirir.

1974-cü ildə “Erməni dilində işlənən Azərbaycan sözləri” mövzusunda dissertasiya müdafiə etsə də, ermənilər bu işin təsdiqini xeyli gecikdirmiş və yalnız 1976-cı ildə o, filologiya elmləri namizədi alimlik dərəcəsi ala bilmişdir.

M.Məmmədov 12 monoqrafiya və iki kitab müəllifidir.

Xalqının, millətinin adi bir sözünün belə qoruyucusu olan M.Məmmədov Bakıda 20 Yanvar hadisələrindən az sonra dünyasını dəyişmişdir.

## NƏCƏFOV NƏCƏF HƏSƏN OĞLU
## (1935)



Nəcəf Həsən oğlu Nəcəfov Azərbaycan Jurnalistlər Birliyinin, Azərbaycan Yazıçılar Birliyinin üzvü, Əməkdar müəllim, akademik M.Mehdizadə və Qızıl qələm mükafatı laureatıdır. 1935-ci ildə Qərbi Azərbaycanın Amasiya rayonunun Oxçuoğlu kəndində anadan olmuşdur. 1942-1949-cu illərdə 7 illik məktəbdə oxumuş, sonra (İrəvan Pedaqoji məktəbi) Xanlar Pedaqoji Məktəbinə daxil olmuş, 1953-cü ildə həmin məktəbi bitirərək bir il Amasiya rayonunun Təpəkənd kənd 7 illik məktəbində müəllim işləmişdir. 1954-cü ildə Həsənbəy Zərdabi adına Gəncə Pedaqoji İnstitutuna daxil olmuş, 1959-cu ildə oranın tarix-filologiya fakültəsini fəqlənmə diplomu ilə bitirmişdir. 1959-1969-cu illərdə Şamaxı rayonunun Sündü, Nərimankənd orta məktəblərində müəllim, direktor müavini işləmişdir. 1969-cu ilin avqust ayında Azərbaycan Mərkəzi Müəllimləri Təkmilləşdirmə İnstitutuna işə dəvət edilmiş, orada metodist, kabinet müdiri vəzifələrində çalışmışdır. 1974-cü ilin iyun ayında Azərbaycan SSR Maarif Nazirliyinə Mərkəzi aparatına irəli çəkilmiş, 1976-1988-ci illərdə üç nazirlik birləşənə qədər nazirliyin kadrlar idarəsinin rəisi vəzifəsində çalışmışdır.

1988-1998-ci illərdə Təhsil Nazirliyində baş inspektor, Baş idarə rəisi və kadrlar idarəsi rəisinin müavini, Baş inspeksiyanın şöbə müdiri, 1998-2000-ci illərdə Təhsil Problemləri üzrə Respublika Elmi-Metodiki Mərkəzin direktoru vəzifələrində işləmişdir. 1995-ci ildən "Azərbaycan məktəbi" jurnalının redaksiya heyətinin üzvüdür.

1953-cü ildə ilk dəfə Xanlar rayonunun "Namuslu zəhmət" qəzetində məqalələr və şeirlərlə çıxış etmiş, sonra isə müxtəlif vaxtlarda "Kirovabad kommunisti", "Azərbaycan gəncləri", "Ədəbiyyat qəzeti", "Kommunist", "Bakinskiy raboçiy" qəzetlərində, "Ulduz", "Azərbaycan məktəbi", "Azərbaycan dili və ədəbiyyatı tədrisi", "Kimya və biologiyanın tədrisi", "Russkiy yazık v azerbaydjanskiy şkole" və b. mətbuat orqanlarında, həmçinin "Narodnoye obrazovaniye" jurnalında, "Uçitelskaya qazeta"da, Qazaxıstanın "Turan", Özbəkistanın ''Zərəfşan" qəzetlərində məqalələri dərc olunmuşdur. Orta ümumtəhsil məktəblərinin IX sinfi üçün "Ədəbiyyat", X və XI sinifləri üçün "Ədəbiyyat müntəxəbatı", təlimi rus dilində olan məktəblərin VII sinifi üçün "Azərbaycan dili", təlimi Azərbaycan və rus dilində olan ümumtəhsil məktəblərinin VIII-XI sinifləri üçün "İnsan və cəmiyyət" ("Çelovek i obşestvo") dərsliklərinin, ali məktəblər üçün "XX əsr Azərbaycan ədəbiyyatşünaslığı məsələləri" dərs vəsaitinin, ümumtəhsil məktəblərinin V-XI sinifləri üçün ədəbiyyat, ali məktəblərin filologiya fakültəsi üçün "XX əsr Azərbaycan ədəbiyyatı" proqramlarının həm

müəlliflərindəndir. 1987-ci ildə "Salman Mümtazın ədəbi və elmi fəaliyyəti" adlı monoqrafiyası çap olunmuşdur. 12 dərslik və kitabçanın elmi redaktorudur. "Çaşıoğlu" nəşriyyatı tərəfindən buraxılan klassiklərin əsərlərindən ibarət yüz cildli serialın redaksiya heyətinin üzvüdür.

Qəzet və jurnallarda 100-dən çox məqaləsi dərc olunmuşdur.

Türkiyə, İngiltərə, Hollandiya, İtaliya, həmçinin MDB məkanındakı ölkələrdə (Rusiya, Ukrayna, Belarus, Moldova, Özbəkistan, Qırğızıstan, Baltikyanı ölkələr) təcrübə mübadiləsində, yaradıcılıq ezamiyyətlərində olmuşdur.

1971-ci ildə Azərbaycan SSR Maarif Nazirliyinin "Qabaqcıl maarif xadimi", 1981-ci ildə "SSRİ Maarif Əlaçısı", 1958-ci ildə Ümumittifaq Komsomolunun "Xam torpaqlardan istifadəyə görə" döş nişanları ilə, 1987-ci ildə "Şərəf nişanı" ordeni ilə təltif edilmişdir. Qazaxıstan Komsomolunun, Təhsil Nazirliyi və digər təşkilatlarının fəxri fərmanlarına layiq görülmüşdür.

1975-ci ildə mollanəsrəddinçi Salman Mümtazın ədəbi və elmi fəaliyyətinə dair dissertasiya müdafiə edib, filologiya üzrə fəlsəfə doktoru adını almışdır.

(2000-ci ilin sentyabrından 2006-cı ilin oktyabrına qədər Azərbaycan Təhsil Nazirliyində dərslik və nəşriyyat şöbəsinin müdiri olmuşdur. 2006-cı ilin oktyabrından "Azərbaycan məktəbi" jurnalının baş redaktorudur. 2005-ci ildən Respublikanın Əməkdar müəllimidir. 2012-ci

ildən ADPU-nun "Azərbaycan dili və ədəbiyyatı tarixi" kafedrasının dosentidir.

Ailəlidir, dörd övladı, 8 nəvəsi vardır.

# SABİR XƏLİL OĞLU SƏFƏROV



İrəvan mahalının tanınmış ziyalılarından olan Sabir Şəfərov 1924-cü ildə Haçaparaq kəndində anadan olmuşdur.

1938-ci ildə İrəvan Pedaqoji Texnikumuna daxil olmuş, 1942-ci ildə oranı bitirərək orduya çağırılmışdır. O, cəbhəyə yollanmazdan əvvəl Bakı birinci piyada hərbi məktəbində altı aylıq kurs keçmiş, leytenant rütbəsi alaraq 1943-cü ildə vzvod komandiri kimi ön xəttə yollanmışdır. Sonradan rota komandiri kimi Şimali Qafqaz döyüşlərində, Ukraynanın və Belorusiyanın azad olunmasında rəşadət göstərmiş, döyüşlərdə üç dəfə ağır yaralanmış, "İkinci dərəcəli Vətən müharibəsi" ordeni, "Qafqazın müdafiəsi" və "Qırmızı Ulduz" medalları ilə təltif olunmuşdur.

Müharibədən qayıtdıqdan sonra 4 il Rostov-Don-da xüsusi nəzarətlə mühafizə olunan Semlyanski su hövzəsinin rəis müavini işləmiş, 1950-ci ildə doğma yurda qayıdaraq qonşu Qaraqışlaq kənd məktəblərində bir il tarixdən dərs demişdir. 1951-ci ildə Azərbaycan Pedaqoji İnstitutunun tarix fakültəsinə qəbul olunmuş, 1955-ci ildə İnstitutu bitirərək yenidən Qaraqışlaq kənd orta məktəbində müəllimlik fəaliyyətini davam etdirmişdir.

1967-1988-ci illərdə İrəvan Dövlət Pedaqoji İnstitutunda çalışan S.Səfərov 1974-cü ildə Azərbaycan EA-nın Fəlsəfə İnstitutunda dissertasiya müdafiə edərək fəlsəfə elmləri namizədi alimlik dərəcəsi almış, 1982-ci ildə isə dosent elmi dərəcəsinə layiq görülmüşdür. İndiyəcən onun fəlsəfə və sosialogiyaya dair 50-dən yuxarı elmi işi işıq üzü görmüşdür.

Uzun müddət o, Azərbaycan Texniki Universitetində və Müstəqil Azərbaycan Universitetində fəlsəfədən dərs demişdir.

## ABBAS TAHİR (ABBASOV TAHİR)



Abbas Tahir 1912-ci ildə Qəmərli rayonunun Məsimli kəndində anadan olmuşdur. İbtidai təhsilini birinci dərəcəli kənd məktəbində aldıqdan sonra 1926-cı ildə İrəvan Azərbaycanlı Pedaqoji Texnikumuna daxil olmuş, 1931-ci ildə isə texnikumu bitirmişdir.

1928-ci ildən ədəbi yaradıcılığa başlamış, həmin ildən İrəvanda Azərbaycan dilində işıq üzü görən yeganə mətbuat orqanı olan "Qızıl şəfəq" qəzetində və ədəbi almanaxlarda müntəzəm olaraq əsərləri dərc edilmişdir. O, həm də "Qızıl şəfəq" qəzetinin ən aktiv müxbirlərindən idi. Abbas Tahir İrəvanda fəaliyyət göstərən Proletar Yazıçılar birliyinin azərbaycanlı bölməsinin fəal üzvü kimi ədəbi mühitin inkişafında və formalaşmasında da fəal iştirak etmişdir. O, 1943-cü ildə İrəvan Pedaqoji İnstitutunun dil-ədəbiyyat fakültəsini bitirmişdir. "Ermənistan"da sovet hakimiyyəti qurulduqdan sonra azərbaycanlı şairlərin ayrıca kitab halında ilk dəfə nəşri Abbas Tahirə nəsib olmuşdu. Belə ki, 1934-cü ildə onun "İlham mənbəyi" adlı ilk şeirlər kitabı işıq üzü görmüşdür. 1947-ci ildə isə onun "Qələbə" baharı adlı şeirlər kitabı nəşr edilmişdir.

# TAPDIQ ƏMİRASLANOV



Qərbi Azərbaycanın tanınmış, görkəmli şəxsiyyətlərindən biri də Tapdıq Muxtar oğlu Əmiraslanov olmuşdur. O, 1918-ci ildə Ulu Göyçənin ulu kəndlərindən biri olan Zodda dünyaya gəlmişdir. Zod kəndi "hələ XIX əsrdə məktəb və ziyalıları ilə məşhur idi".

Tapdıq Əmiraslanov 1933-cü ildə İrəvan Pedaqoji Məktəbinə daxil olmuş, 1937-ci ildə həmin təhsil ocağını bitirdikdən sonra ali təhsilini İrəvandakı Azərbaycan Pedaqoji İnstitutunda davam etdirmişdir. O, bir müddət Zod kənd məktəbində müəllim və direktor vəzifələrində işlədikdən sonra, 1950-ci ildə Basarkeçər Rayon Partiya Komitəsinə şöbə müdiri vəzifəsinə irəli çəkilmişdir. 1954-cü ildə isə Rayonun Partiya Komitəsinin ikinci katibi vəzifəsinə təyin edilmişdir.

T.Əmiraslanov 1959-cu ildə Basarkeçər rayon maarif şöbəsinin müdiri təyin edilmişdir.

Tapdıq müəllimin səyi və diqqəti sayəsində azərbaycanlı məktəblərinin əksəriyyəti tam orta məktəbə çevrilmiş, məktəblərdə tədrisin keyfiyyəti yüksək səviyyəyə çatdırılmışdır. 1976-cı ildə dünyasını dəyişən Tapdıq müəllim bu gün də minnətdarlıqla yad edilir.

## ABBAS ƏLİ OĞLU MUSTAFAYEV



1930-cu ildə Çobankərə kəndində anadan olmuş, 1944-cü ildə Çobankərə kənd məktəbinin 7-ci sinfini, 1947-ci ildə İrəvan Pedaqoji Texnikumunu bitirmişdir.

1947-1948-ci illərdə Zəngibasar rayonunun Mehmandar kəndində müəllim işləmiş, 1948-ci ilin avqustunda Azərbaycanın Ağcabədi rayonuna deportasiya olunmuş, orada bir il müəllim işlədikdən sonra təzədən Vətənə qayıdıb, Qaraqışlaq və Haçaparaq kəndlərində müəllimlik etmişdir. 1951-ci ildə təhsilini davam etdirmək üçün Bakıya gələrək, APİ-nin tarix fakültəsinə daxil olmuş, ali təhsilini bitirib, geri qayıtmışdır. 1955-1957-ci illərdə Rehanlı kənd yeddiillik məktəbinin, 1957-1961-ci illərdə Haçaparaq kənd məktəbinin direktoru işləmiş, 1961-ci ildə Üçkilsə (Eçmiədzin) rayon partiya komitəsinə işə irəli çəkilmişdir. 1963-1965-ci illərdə Bakıda Ali Partiya Məktəbinə oxumuş, 1966-1969-cu illərdə Qaraqışlaq sovxozunun direktoru olmuşdur. Bu müddətdə kəndi xeyli inkişaf etdirmiş, yeni tipli orta məktəb tikdirib, istifadəyə vermişdir.

1969-cu ildə yenidən təşkil edilmiş Zəngibasar RİK sədrinin birinci müavini, 1970-1978-ci illərdə raykomun katibi işləmişdir.

1979-1984-cü illərdə Dəmirçi Kənd Təsərrüfatı Texnikumunun direktoru olan A.Mustafayev burada həm də sovxoza direktorluq edir. Texnikumdakı iki fakültə çoxaldılıb, yeddi fakültəyə çatdırılır.

1984-cü ildə dəyişmə yolu ilə Azərbaycan Kənd Təsərrüfatı Nazirliyində Əkinçilik və Yemçilik İdarəsinə rəis təyin edilmiş, 1990-ci ildə fərdi pensiyaya çıxmışdır. (4)

## CABBAR ƏLİ OĞLU QULİYEV



1922-ci il mayın 19-da Haçaparaq kəndində anadan olmuşdur. Irəvan Pedaqoji Texnikumunu bitirdikdən sonra Böyük Vətən müharibəsinə yola düşmüş, bir sıra cəbhələrdə döyüşmüş, müharibədən qayıtdıqdan sonra müəllim işləmişdir.

Heç bir rəssamlıq təhsili olmasa da,bu sənətə sonsuz məhəbbəti C.Quliyevi fırça sənəti ilə məşğul olmağa sövq etmiş, az vaxtda bir-birindən gözəl sənət əsərləri yaratmışdır.

1961-ci ildən 1988-ci ilə qədər İrəvan Dövlət Pedaqoji İnstitutunun azərbaycanlı şöbəsində təsviri sənət, incəsənət tarixi və estetikadan dərs demiş, 1967-ci ildə "Əməkdar rəssam" fəxri adına layiq görülmüşdür.

C.Cabbarlı adına İrəvan Dövlət Dram Teatrında 10-dan artıq tamaşaya bədii tərtibat vermiş, 1972-ci ildə Bakıda İncəsənət İnstitutunu fərqlənmə diplomu ilə bitirmişdir.

1988-ci ildə erməni daşnakları tərəfindən doğma yurddan qovulan rəssam təkcə el-obasını itirmədi, on illər boyu yaratdığı iki mindən çox tablosu da düşmən əlində qaldı. Bir çox soydaşları kimi, o da Bakı şəhərinə pənah gətirdi. Burada məskunlaşdı.

Bir neçə il sonra rəssamın daha 130 əsəri Xocalıda

məhv oldu. Lakin C.Quliyev yenə də yorulmadan çalışdı, yüzlərlə yeni əsərlər yaratdı. Əvvəllər olduğu kimi, sonralar, elə indinin özündə də Cabbar Quliyev yaradıcılığında Qərbi Azərbaycanın müxtəlif mənzərələri, tarixi abidələri, şəxsiyyətləri mühüm yer yer tutur. Bunu rəssamın məşhur "Ağrı dağı", "Cəfərabad türbəsi", "Qarasu çayı", "Zəngi çayı", "Qaçqınlar", "Göyçə gölü", "Aşıq Ələsgər", "Miskin Abdal" və s. talobları da təsdiq edir. O, həmişə qeyd edərdi ki: "Mənim rəssamlığa olan həvəsinin alovlanmasında İrəvan Pedaqoji məktəbində keçirilən rəsm dərslərinin böyük rolu olmuşdur".

# CƏLİL QULİYEV



Cəlil Əli oğlu Quliyev 1907-ci ildə Zəngibasar rayonunun Xacaparaq (Zəhmət) kəndində anadan olmuşdur. O, Zəhmət kənd ibtidai məktəbini bitirdikdən sonra təhsilini davam etdirmək üçün İrəvan Azərbaycanlı Pedaqoji məktəbinə daxil olur. O, oxuduğu müddətdə dərs əlaçısı kimi müəllim və tələbə kollektivinin dərin rəğbətini qazanır.

1929-cu ildə texnikumu əla qiymətlərlə bitirdikdən sonra Zəhmət kənd orta məktəbinə müəllim təyin olunur. Onun Zəhmət kənd ilk partiya təşkilatının katibi kimi fəaliyyəti sayəsində Zəhmət kənd kolxozu Zəngibasar rayonunda ən varlı kolxozlar sırasına keçmişdir.

Cəlil müəllim həm də İrəvanda Azərbaycan dilində nəşr edilən “Zəngi” qəzetinin ən fəal müxbirlərindən biri olmuşdur.

Cəlil Quliyev 1935-ci ildə İrəvamda yeni açılmış Ali Kommunist Kənd Təsərrüfatı məktəbinə daxil olur. 1936-cı ildə Ücmüədzin rayon partiya təşkilatının instruktoru vəzifəsinə təyin edilir. 1937-ci ildə Zəngibasar rayon komsomol komitəsinin katibi vəzifəsinə seçilir. 1937-ci ilin sonralarında Zəngibasar rayon partiya komitəsinin 3-cü katibi vəzifəsinə təyin edilir.

C.Quliyev Zəngibasar rayonun ictimai həyatında hər zaman fəal iştirak etmiş və onun xidmətləri bu gün də minnətdarlıqla yad edilir.

## NƏRİMAN SÜLEYMAN OĞLU KAZIMOV



1926-cı ildə Böyük Vedi kəndində anadan olmuşdur. 1939-cu ildə İrəvan Pedaqoji Texnikumuna daxil olmuş, müəllim kadrlarına böyük tələbat olduğundan 1941-ci ildən həm də Vedi rayonuna müəllim göndərilmişdir. 1942-ci ildə texnikumu bitirən N.Kazımov Şirazlı, Qaralar, Goravan, Taytan, Böyük Vedi kəndlərində müəllim, dərs hissə müdiri vəzifələrində işləmişdir.

1951-ci ildə Azərbaycana deportasiya olunmuşlar.

Sonralar təhsilini Bakıda APİ-nin Fizika-riyaziyyat fakültəsində davam etdirən N.Kazımov 1955-ci ildə həmin fakültəni fərqlənmə diplomu ilə bitirir və İnstitutda qalıb müəllim işləyir.

1975-ci ildə dissertasiya müdafiə edərək pedaqoji elmlər namizədi alimlik dərəcəsi alır. 12 elmi kitabın, 50-yə qədər elmi-metodik məqalənin müəllifidir.

N.Kazımov elmdə əldə etdiyi bu uğurların bünövrəsinin məhz İrəvan Pedaqoji məktəbində qoyulduğunu dəfələrlə qeyd edərdi.

## HƏSƏNOV TAPDIQ



Tapdıq Həsənov 1945-ci ildə İrəvan Azərbaycan Pedaqoji məktəbinə qəbul olmuşdur. Yüksək səviyyəli təhsil almış, Tələbə yoldaşlarından təhsilinə, intizamına görə fərglənərək, ikinci kursda məktəbin komsomol təşkilatının ikinci katibi seçilmişdir. O zaman məktəbin komsomol komətəsinin birinci katibi tarix müəllimi Rəziyyə İsmayılova olmuşdur. Məktəb partiya təşkilatının katibi isə hərbi müəllim Cəfər Ələkbərov idi.

Tapdıq müəllim təhsildə, intizamda, təşkilatı işlərdə hər zaman fərqləndiyinə görə 1947-ci ildə komsomol təşkilatının ikinci katibi vəzifəsindən məktəbin Həmkarlar Təşkilatının sədri vəzifəsinə yüksəlmişdir.

Tapdıq müəllim bir neçə dəfə İrəvan şəhəri Kirov rayon komsomol komitəsinin Plenumuna seçilmişdir. Dəfələrlə yaxşı oxuduğuna, təşkilatçılıq bacarığına görə məktəb rəhbərliyinin təşəkkürünə, tərifnaməsinə layiq görülmüşdür.

Tapdıq müəllim yaxşı oxuduğuna görə məktəbi bitirdikdən sonra məktəbin nəzdində təşkil olunmuş ibtidai məktəbə müəllim təyin edilmişdir. Amma 1949-cu ildə Pedaqoji məktəb deportasiya qurbanı olaraq Azərbaycanın Xanlar rayonuna köçürüldü.

O zaman İrəvan Erməni Pedaqoji İnstitutunun nəzdində Azərbaycan dilində fakültələr fəaliyyət göstərirdi. Burada azərbaycanlı müəllimlərdən Zaman Vəliyev, Fərhad Fərhadov, İsmayıl Şükürzadə, Əli Babayev və başqaları dərs deyirdi. Yenə də elmə olan böyük və təhsil illərində qazandığı müvəffəqiyyətlər, təhsilini davam etdirmək istəyi Tapdıq müəllimi bu ali məktəbə daxil olmağa vadar etmişdi. Burada Azərbaycan bölməsində tarix fakültəsində oxuyan zaman o yenidən deportasiya ilə üzləşməli olmuşdu. Deportasiya ilə əlaqədar olaraq həmin fakültələr də Bakıya, o zaman ki, Lenin adına Azərbaycan Pedaqoji İnstitutuna köçürüldü. Deportasiya ilə əlaqədar Xanlara gedib, müəllim kimi işləməkdən imtina edən Tapdıq Həsənov Bakıya gələrək, Budaq Budaqov, Maral Qəribova, Rza Əsgərovla birlikdə təhsilini davam etdirməyi üstün tutmuşdu. Budaq Budaqov coğrafiya, Maral Qəribova, Rza Əsgərov ədəbiyyat fakültələrində təhsilini davam etdirsələr də, Tapdıq müəllim maddi vəziyyətlə və ailəsi ilə əlaqədar olaraq burada da institutu yarımçıq tərk edərək, Sabirabad rayonunda müəllim kimi fəaliyyət göstərməyə başlamışdı. 2 illik Sabirabadda əldə etdiyi müəllimlik təcrübəsindən sonra yenidən doğma yurdu "Ermənistan"a qayıdan gənc Tapdıq Həsənov Zəngibasar rayonunun Zəngilər məktəbində müəllimlik fəaliyyətini davam etdirdi. Ancaq təhsilinin yarımçıq qalması fikri onu hər zaman narahat edirdi və nəhayət təhsilini qiyabi də olsa davam etdirməyi qərarlaşdıraraq Pedaqoji İnstituta geri qayıdır və ali təhsilini başa vurur.

Ancaq Qərbi Azərbaycanda yaşayan həm yerlilərimizin başına gələn fəlakətlər bu dəfə də Tapdıq müəllimdən uzaq ötüşmədi. Üçüncü dəfə deportasiya ilə üzləşərək, 1952-ci ildə Bərdə rayonuna köçürüldü. Bu dəfə həmişəlik ana Vətənindən uzaq düşən Tapdıq Həsənov ailəsi ilə birlikdə Bərdə rayonu Kətəlparaq kəndində məskunlaşaraq, 50 il burada kənd məktəbində tarix müəllimi kimi fəaliyyət göstərmişdir. Hər zaman təşkilatçılıq bacarığı və aktiv fəaliyyəti ilə diqqət çəkən Tapdıq müəllim burada işlədiyi illərdə  də ictimaiyyətçi müəllim, baş müəllim və metodist müəllim olmuş, dəfələrlə rayon partiya komitəsinin plenumlarında iştirak etmiş, kənd və rayon sovetinə seçilmişdir. SSRİ və Azərbaycan SSR Maarif Nazirliyinin Fəxri Fərmanları ilə təltif olunmuşdur.

## FƏRİDƏ MƏMMƏDOVA

Fəridə Məmmədova 1929-cu ildə İrəvan şəhərində sənətkar ailəsində anadan olmuşdur. O, ibtidai və yeddillik təhsilini İrəvandakı Kirov adına azərbaycanlı məktəbində almışdır. O, yeddillik məktəbi bitirdikdən sonra azərbaycanlı pedaqoji texnikumuna daxil olur və 1945-ci ildə oranı uğurla bitirir. F.Məmmədova həmin ildən İrəvan şəhərindəki, Əzizbəyov adına azərbaycanlı məktəbində işləyir. O, azərbaycanlı balalarına dərin savad və bilik verməkdə heç bir qüvvə və səyini əsirgəmir. Fəridə xanım dərs dediyi illər ərzində onlarla həkimin, alimin, mühəndisin tərbiyəçi müəllimi olmuşdur. Bütün ömrünü  milli maarifimizin inkişafına, azərbaycanlı balalarımızın savadlanmasına, tərbiyəsinə həsr etmiş bu maarif fədaisinin maarif dolu həyat kitabının səhfələri hər dəfə gözümüz önündə canlandıqca bu səhfələri dönə-dönə oxumaq istəyirsən.

## PAŞA DURSUN OĞLU ƏLİYEV



Paşa Dursun oğlu Əliyev 1921-ci ildə Ağbaba mahalının Sultanabad (1935-Şurabad) kəndində anadan olmuşdur. Arpagölün sahilində olan bu kəndin əhalisi 1918-ci ildə Türkiyənin Qars və Çıldır ərazilərinə köç etmiş və bir daha geri qayıtmamışlar. Paşa müəllimgilin ailəsi də qohum - əqrabası ilə birlikdə qaçqın kimi bu boş qalan kəndə yerləşmişdir. Ona Paşa adının verilməsi də müəyyən bir tarixlə bağlıdır. Camal Paşanın Tiflisdə ermənilər tərəfindən öldürülməsi ilə əlaqədar olaraq Dursun kişi yeni doğulan körpələrə - əmisi oğluna Camal, öz oğluna isə Paşa adını vermişdi. Paşa müəllim hələ balaca ikən atası Dursun kişi günahsız olaraq repressiyaya məruz qalmış, o, anasının himayəsi altında böyümüşdür.

O, Sultanabad 7 illik məktəbini bitirəndən bir neçə il sonra İrəvan-Azərbaycan Pedaqoji Texnikumuna qəbul olunmuşdur. Rus-alman savaşının başlandığı zaman təhsilini yarımçıq qoyaraq orduya səfərbər olunmuş və Uzaq Şərqdəki hərbi hissələrin birində xidmət etmişdi. Dəfələrlə yaponlara qarşı döyüşlərdə iştirak etmiş, orden və medallarla təltif olunmuşdu. 1945-ci ildə ordudan tərxis olunduqdan sonra texnikumda təhsilini davam

etdirmişdi. Texnikumu bitirdikdən sonra Sultanabad 7 illik məktəbində pedaqoji fəaliyyətə başlamışdı.

Onların ailəsi 1948-ci ildə yenidən deportasiyaya məruz qalmışdır. Sultanabad kəndini Göyçayın Alpout kəndinə köçürdükdən sonra ermənilər Arpagölün sahəsini genişləndirərkən Sultanabad kəndi və qədim qəbiristanlığı gölün suları altında qaldı. 1953-cü ildə kəndin əhalisi iqlim şəraitinə dözməyərək tamamilə geri qayıdır və ermənilərin mane olmalarına baxmayaraq, gölün sahilində kiçik kənd evləri tikib orada yaşayırlar. Sonralar kənd adamları imkanları artdıqca yenitipli evlər tikib 80 evli gözəl bir qəsəbə yaratmışdılar.. Lakin kəndin əhalisi 1989-cu ilin əvvəlində yenə də ermənilərin terrorçu hərəkətləri nəticəsində qaçqın düşdülər.

Sultanabad kəndinin adını dəyişdirib Şurabad qoysalar da, əslində Şura hökuməti bu kəndi "abad" yox, 3 dəfə bərbad etmişdir. Paşa müəllim də öz ailəsi ilə birlikdə Gəncə şəhərində məskunlaşdı. O, burada təqaüdə çıxdı.

Paşa müəllim Göyçayda da pedaqoji fəaliyyətini davam etdirmişdir. 1954-cü ildə Ağbabaya qayıtdıqdan sonra yenə də Sultanabadda məskunlaşmışdır. Müəllim işləyə-işləyə APİ-nin Azərbaycan dili və ədəbiyyatı fakültəsini bitirib ali təhsil almışdır. Quzukənd, Düzkənd və Balıqlı səkkizillik məktəblərinin və Təpəköy kənd orta məktəbinin direktoru işləmişdir. 1969-cu ildən ta 1988-ci ilədək 500-dən çox şagirdi olan Təpəköy kənd orta məktəbində dərs hissə müdiri kimi çalışmışdır. Paşa müəllim rayonda çox böyük nüfuzu olan şəxsiyyətlərdən

biri idi. Çöhrəsində gülüş, dilində zarafat olardı. O, Azərbaycan dili və ədəbiyyatı fənnini dərindən bildiyi kimi, həm də digər fənləri – tarix, fizika, biologiya, riyaziyyat və s. fənləri yaxşı bilir, ixtisas müəllimlərinə öz sözünü deyə bilirdi. Coğrafiya fənnini onun kimi bilən tapılmazdı. Coğrafiyanı dərindən mənimsəməkdə isə texnikumun adlı-sanlı coğrafiya müəllimi Ələşrəf Bayramovun fəaliyyətini həmişə qiymətləndirərdi. Digər fənləri bilməyinin səbəbini ondan soruşduqda Paşa müəllim deyərdi ki, müxtəlif fənləri belə bilməyim İrəvan Pedaqoji Texnikumunda aldığım təhsillə bağlıdır. O, texnikumun şöhrət qazanmasında onun savadlı və tələbkeş direktorları Bəhlul Yusifovu və Həbib Məmmədzadəni daha çox xatırlayardı.

Ümumiyyətlə, Paşa müəllim pedaqoji fəaliyyəti dövründə ana dilimizin şirinliyini, "Dədə Qorqud"dan qopub gələn milli ruhu, özündərki, yurd sevgisini və digər əxlaqi-mənəvi keyfiyyətləri minlərlə gənc nəslə aşılayan bir şəxsiyyət, bir müəllim kimi onu tanıyanların, xüsusilə sabiq şagirdlərinin qəlbində əbədi yaşayacaqdır.

## AĞABALA QULAMALI OĞLU BABAYEV



A.Babayev 1916-cı ildə Gığı kəndində anadan olmuşdur. O 1937-ci ildə Gığı natamam orta məktəbini bitirib, İrəvan Pedaqoji məktəbinə daxil olmuşdur. Oranı bitirdikdən sonra 1940-ci ildən A.Babayev Qafan rayonun Xələc kəndindəki ibtidai məktəbə müəllim təyin edilir. Bir il sonra onu Kürüd kəndindəki ibtidai məkətəbə təyin edirlər. 1942-ci ildə oradan Vətən müharibəsinə gedir, cənubi-qərbi döyüş meydanlarında Hitler quldurlarına qarşı aparılan mübarizədə iştirak edir.

1943-cü ildə o ağır yaralanır və qolunun birini itirir. Öz doğma kəndi olan Gığıya qayıdır və yenə də pedaqoji fəaliyyətə başlayır. O, 1943-50-ci illərdə Gığı orta məktəbində müəllim, 1950-ci ildən başlayaraq ömrünün sonuna qədər məktəb direktoru işləmişdir. Ağabala Babayev istehsalatdan ayrılmadan Bakı qiyabi pedaqoji institutunda öz təhsilini davam etdirmiş və 1952-ci ildə həmin məktəbi bitirmişdir.

A.Babayev ən yaxşı müəllim, təcrübəli və bacarıqlı pedaqoq olmaqla özünün bütün şüurlu həyatını yetişməkdə olan nəslin təhsilinə tərbiyə olunmalarına həsr etmişdir. Pedaqoji iş sahəsindəki xidmətlərinə görə ona 1954-cü ildə Ermənistan SSR əməkdar müəllim fəxri adı



**İrəvan Pedaqoji məktəbinin məzunları Nurəli Qurbanov və Ağabala Babayev**

verilmişdir. O, bir neçə medallarla təltif edilmişdir.

A.Babayev ictimai işlərdə böyük fəallıqla iştirak etmiş, dəfələrlə Ermənistan KP Qafan rayon komitəsinin üzvü, rayon sovetinin deputatı, Gığı kənd soveti deputatı və icraiyyə komitəsinin üzvü seçilmiş, on ildən artıq təbliğatçı kimi işləmişdir.

# HƏSƏNOVA SƏRİYYƏ MİRZƏXAN QIZI



Həsənova Səriyyə Mirzəxan qızı 1921-ci ildə Ermənistan SSR-nin Qafan rayonun Yuxarı Gödəkli kəndində anadan olub. 7 illik məktəbinin I sinfinə qəbul olub. 1935/1936-cı dərs ilində həmin məktəbin VII sinfini bitirib.

1936/1937-ci dərs ilində Yerevan Pedaqoji Texnikumuna daxil olub, 1938/39-cu dərs ilində həmin məktəbi əla qiymətlə bitirib. 1939/1940-cı dərs ilindən 1947/48-ci dərs ilinə qədər Yuxarı Gödəkli 7 illik məktəbində müəllim və dərs hissə müdiri vəzifəsində çalışıb. 1947/1948-ci dərs ilindən Oxtar 8 illik məktəbində müəllim və dərs hissə müdiri vəzifəsində çalışıb. Sonra isə 1966-1967-ci dərs ilində həmin məktəbə məktəb direktoru təyin olunub. 1965-ci ildə Ermənistan SSR-nin "Əməkdar müəllim" adı almışdır. 1942/43-cü dərs ilində "Əlaçı müəllim" adı almışdır.

1941/45-ci ildə Böyük Vətən Müharibəsinin "Əmək veteranı" medalı almışdır. 1949-cu ildə "Əməkdən fərqlənmə" medalı almışdır.

1941-ci ildən Sov.İKP-nın üzvüdür. 1951-ci ildə Azərbaycan Qiyabi Pedaqoji İnstitutunun dil-ədəbiyyat fakultəsini bitirmişdir.

Dəfələrlə kənd sovetinə deputat seçilib, sovet və partiya işində fəal çalışmışam.

1979-cu ildən də "Əmək veteranı"dır.

O, İrəvan Pedaqoji Texnikumunun məzunu olması ilə həmişə fəxr edərdi və deyərdi: "Mən aldığım dərin biliyimə görə İrəvan Pedaqoji məktəbinin müəllimlərinə (borcluyam) minnətdaram".

# BAYRAMOV ŞƏRİF



Bayramov Şərif Dilican rayonun Haqqıxlı kəndində 1917-ci ildə anadan olmuşdur. Şərif ibtidai təhsilini Haqqıxlı kəndində 1925-ci ildə yeddillik təhsilini isə Çaykənd məktəbində 1930-cu ildə başa vurmuşdur. Bayramov Şərif yeddillik təhsilini bitirəndən sonra İrəvan şəhərində fəaliyyət göstərən N.Nərimanov adına Türk (azərbaycanlı) pedaqoji texnikumuna gəldi. Şərif bu texnikumda 3 il nümünəvi bilik aldı. O, həmin texnikumu bitirib doğma kəndlərinə müəllim göndərildi. 1936-cı ildən Haqqıxlı kəndində müəllimlik fəaliyyətinə başladı, az sonra Haqqıxlı yeddillik məktəbinə direktor təyin edildi. 1938-ci ildən 1945-ci ilə kimi məktəbdə yeni abu-hava yaratdı, məktəb bacaraqlı, yüksək səviyyəli müəllim kadrları ilə təmin edildi. Dərslər bütün fənlər üzrə yüksək səviyyədə tədris edilir, valideynlərin məktəbə, təhsilə olan münasibəti, möhkəm əlaqələri daha da yüksəldi, möhkəmləndi. Haqqıxlı məktəbi indiyə qədər Məmmədalı məktəbi adlanırdısa, indi Şərif məktəbinə çevrildi. Şərif müəllimin məktəbdə yaratdığı sağlam psixoloji şərait kollektivin işə münasibətini qat-qat artırmışdı. Müəllimlər şagirdləri inamla, qayğıkeşliklə, tələbkarlıq metodu ilə

öyrədirdilər. Bu illərdə bu məktəbi bitirənlərin hamısı orta və orta ixtisas məktəblərinə qəbul olurdular və qəbul olduqları məktəblərdə onlar fərqlənirdilər. Xüsusən bu məktəbi bitirənlərin əksəriyyəti riyaziyyat elminə yüksək meyli olan riyazi bilikli şagirdlər idi. Həqiqət naminə demək lazımdır ki, bu məktəbin yetirmələrindən olan riyaziyyat müəllimi kimi. Nəbiyev Məhəmməd, Yahyayev Məhəmmədəli, İsmayılov İsmayıl və başqaları da Qaraqoyunlu da məşhur olmuşdur. Həqiqi mənada cəsarətlə, tərəddüd etmədən demək olar Haqqıxlı məktəbi kimi qaraqoyunluda geniş müəllim kadrları hazırlayan ikinci bir məktəb yox idi. Bu məktəbin məzunlarından ali təhsil almış 260 nəfər müəllim təkcə İcevan rayon məktəblərində deyil, Krasnoselo, Basarkeçər, Qazax rayon məktəblərində də müəllim işləyirdilər. Bu təkcə Bayramov Şərifin deyil, həm də kollektivin işə vicdanlı münasibətinin nəticəsi idi.

Bayramov Şərif prinsipial, həqiqətpərəst, vicdanlı, təmiz ruhlu bir müəllim – rəhbər idi. Əliəyrilərə, mənsəbpərəst və rüşvətxorlara qarşı qəti mübarizə aparan Şərif Bayramov naməlum şəxslər tərəfindən 1945-ci ilin mart ayında qətlə yetirilmişdir. O, İrəvan Pedaqoji məktəbini "Mənim darülfunum" adlandırardı.

# MİRABBAS MİRSƏFƏR OĞLU HEYDƏROV



Mirabbas Mirsəfər oğlu Heydərov 1930-cu il martın 16-da Dəmirçi kəndində anadan olmuşdu. Atası Kərbəlayi Mirsəfər 1935-ci ildə vəfat etmiş, atasını itirdikdən sonra balaca Mirabbas mehrini əmisi Mirhəşimə salmış, lakin az sonra 1940-ci ildə Mirhəşim də müharibəyə gedib qayıtmamış və balaca Mirabbas qanlı-qadalı müharibə illərində, təhsilini davam etdirməklə bərabər, həm də kolxozda işləmişdir.

1948-ci ildə İrəvan Pedaqoji Texnikumunu, 1952-ci ildə Azərbaycan Dövlət Pedaqoji Texnikumunu, 1952-ci ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunu bitirmiş, riyaziyyat müəllimi ixtisasına yiyələnən Mitabbas mü_əllim 1961-ci ilə qədər Qaraqişlaq, Dəmirçi kənd məktəblərində, Uluxanlı qəsəbəsindəki orta məktəbdə müəllim işləmiş, camaat arasında qazanmış olduğu nüfuza görə sonuncu tarixdə yaşadığı doğma kəndə kolxoz sədri seçilmişdir.

Qısa müddət ərzində kolxozçuların maddi rifahını yaxşılaşdırmaq məqsədi ilə bir çox sahələrdə əmək məhsuldarlığını artırmağa nail olur. Qüvvədən düşmüş sahələrin su ilə təmin olunmasını yaxşılaşdırmaq üçün artezian quyuları qazdırır, kolxozçuları səfərbərliyə ala-

raq həmin sahələrdə bol məhsul yetişdirir, kolxozun əlavə gəlirləri hesabına kəndə yol çəkdirir, uşaq bağçası, mağaza, rabitə məntəqəsi, orta məktəb binası tikdirib istifadəyə verdirir, uzun illərdən bəri anbar kimi istifadə olunan məscidin açılıb, dindarların, kənd adamlarının ixtiyarına verilməsinə nail olur.

1969-cu ildə öz istəyi ilə işdən azad olunub, Zəngibasar rayon Xalq Maarif Şöbəsinə müfəttiş təyin edilir, məktəblilər arasında rayon olimpiada komitəsinin sədri və respublika olimpiada komitəsinin azərbaycanlı bölməsinin rəhbəri olur.

Əlsiz-ayaqsızların, köməksizlərin dayağı olan Mirabbas Ağa sözün əsl mənasında bir el ağsaqqal kimi ad çıxarmışdı. Onun rayonun Dini İdarəsində sədr müavini olması dini problemlərin həll olunmasına müsbət təsir göstərirdi. Milli zəmində olan münaqişələrin yatırılmasında çox böyük əməyi olmuşdu.

1988-ci hadisələrindən sonra vətən itkisi ağrısına dözməyən Mirabbas ağa 1993-cü il dekabrın 6-da Bakıda dünyasını dəyişmiş, onu tanıyan, sevən insanlara gözəl əməllər, ən başlıcası isə, öz əməllərini davam etdirən övladlar qoyub getmişdir. Mirabbas müəllim İrəvan Pedaqoji məktəbinin adını həmişə fəxrlə çəkərdi.

# CEYRAN ZEYNALOVA



Keçən əsrin 40-ci illərində Qərbi Azərbaycanın Ağbaba bölgəsində milli maarifimizin tərəqqisi yolunda xalqımızın qeyrətli, qabaqcıl ziyalıları ilə çiyin-çiyinə bir azərbaycanlı qadın ziyalısı da çalışırdı. Bu ziyalı qadın ömrünün 40 ildən artıq hissəsini azərbaycanlı balalarının təlim-tərbiyəsinə, onların gələcək inkişafına həsr edən Ceyran Mamed qızı Zeynalovadır.

Ceyran Mamed qızı Zeynalova 1924-cü ildə fevral ayının 20-də qədim İrəvan şəhərində qulluqçu ailəsində anadan olmuşdur. 1931-ci ildə M.F.Axundov adına orta məktəbin birinci sinfinə qədəm qoyan C.Zeynalova, 1940-ci ildə təhsilini davam etdirmək üçün İrəvan azərbaycanlı pedaqoji texnikumuna daxil olur.

1942-ci ildə Böyük Vətən Müharibəsi illərində bölgələrdə azərbaycanlı müəllimlərinə böyük ehtiyac olduğundan pedaqoji texnikumun sonuncu kursunda təhsil olan qabaqcıl tələbələr vaxtından əvvəl bölgələrə müəllim kimi göndərilirdi. Ceyran xanım Zeynalova da 1942-ci ilin noyabr ayında Ağbaba mahalının Düzkənd kəndinə tam olmayan 7 illik orta məktəbinə riyaziyyat müəllimi təyin edilir. 1943-cü ilin avqust ayının ortalarına qədər burada çalışan Ceyran xanım 1943-cü ilin

avqust ayından Göllü kənd ibtidai məktəbinə müdir-müəllim təyin edilir. 15 avqust 1944-cü ildən Amasiya rayon mərkəzindəki orta məktəbdə riyaziyyat müəllimi vəzifəsində çalışmışdır.

Ceyran xanım müəllimlik sənətinə əsaslı yiyələnmək üçün 1944-cü ildə İrəvan Dövlət Pedaqoji İnstitutunun fizika-riyaziyyat fakultəsinə daxil olur. Amma ailənin ağır iqtisadi vəziyyəti onun təhsilini davam etdirməsinə imkan vermir. O, pedaqoji fəaliyyəti ilə yanaşı rayonun ictimai həyatında da fəal iştirak edirdi.

Ceyran xanım 1960-1965-ci illərdə Amasiya rayonun qadınlar şurasının sədri və bir neçə dəfə rayon sovetinin deputatı seçilmişdir.

1960-cı ildə IV müəllimlər qurultayının nümayəndəsi seçilmiş və həmin qurultayda "Şərəf nişanı" ordeni ilə təltif edilmişdir. 1962-ci ildə "Ermənistan"da qabaqcıl müəllimlərin respublika müşavirəsində nümayəndə kimi iştirak etmişdir.

1962-70-ci illərdə Amasiya rayon Ticarət heyətinin üzvü olmuşdur. "Ermənistan" ticarət işçilərinin XI-XII qurultayının nümayəndəsi, həmin qurultaylarda "Ermənistan" Kooperasiya Şurasının üzvü seçilmişdir. 1966-cı ildə müəllimlər günü münasibətilə fədakar əməyinə, pedaqoji fəaliyyətinə görə "Əməkdar müəllim" adına layiq görülmüş, 1979-cu ildə isə "Əmək veteranı" medalı ilə təltif edilmişdir.

## ŞAHQULİYEV SURXAY ƏHMƏD OĞLU



Şahquliyev Surxay 1930-ci ildə Dərələyəz mahalının Gabud kəndində anadan olmuşdur. Atası Əhməd kişinin təhsili olmasa da o, dini rəvayətlərin, folklorun mahir bilicisi kimi tanınırdı. S.Şahquliyev Gabud kəndində ibtidai məktəbi, qonşu Gomur kəndində isə yeddiillik məktəbi bitirmişdir. 1948-ci ildə İrəvan Pedaqoji Texnikumunu bitirdikdən sonra əvvəlcə Gabud kəndində, sonra isə Gomur kəndində müəllim işləmiş, 1968-ci ildə Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsini qiyabi yolla başa vurmuş, 1953-1970-ci illərdə Gomur kənd orta məktəbində dərs hisə müdiri, 1970-1987-ci illərdə isə kiçik fasilələrlə Gabud kənd səkkizillik məktəbində direktor, Əzizbəyov rayon təhsil şöbəsində Azərbaycan məktəbləri üzrə metodist vəzifələrinə işləmişdir.

1950-ci illərin əvvəllərindən şerləri dövri mətbuatda, o cümlədən "Sovet Ermənistanı" qəzetində, habelə "Əbədi Ermənistan" almanaxlarında dərc olunmuşdur. O, Xaçmaz rayonun Xudat kəndində müəllim işləyir. Ədəbi fəaliyyətini davam etdirən şair Qubadakı "Ay işığı" ədəbi məclisinin üzvüdür və eyni adlı almanaxda onun şerləri dərc olunmuşdur. S.Şahquliyev lirik janrda, həm də satirik üslubda yazan şair kimi tanınır.

Nəsil səcərəsi XVII əsrin 70-ci illərinə qədər məlum olan Surxay müəllimin əcdadları Dərələyəz mahalının Məlikşah kəndindədir. 1828-ci il Türkmənçay müqaviləsindən sonra İrandan buraya köçürülən ermənilərlə bir yerdə yaşamamaq üçün onun əcdadları həmin kənddən şərqə doğru – əvvəlcə Söylan, sonra Paşalı, nəhayət Gabud kəndinə köçmüşlər. Söylan və Paşalıdan köçmələrinin səbəbi də ermənilərin buraya gəlməsi olmuşdur.

O, Dərələyəz mahalının nüfuzlu ziyalılarından olmuşdur. Onun övladları da yüksək səviyyəli ziyalılardır.

# İSGƏNDƏR HACIYEV



İsgəndər Qurbanəli oğlu Hacıyev 29 fevral 1905-ci ildə anadan olmuşdur. O, Kəsəmən kənd məktəbini bitirdikdən sonra 1930-32-ci illərədə bu məktəbdə direktor işləmişdir. İ.Hacıyev 1932-37-ci illərdə Satanaxaç kəndində ibtidai məktəbin direktoru vəzifəsində çalışmışdır.

1939-cu ildə İrəvan Pedaqoji Texnikumunu qiyabi bitirən İ.Hacıyev 1937-1940-ci illərdə Canəhməd kəndində, 1940-ci ildən İkinci Dünya müharibəsinə gedənə qədər İnəkdağı kəndində məktəb direktoru işləmişdir.

İ.Hacıyev 1944-cü ildə müharibədən II dərəcəli əlil kimi qayıtmış və 1971-ci ilə kimi Kəsəmən kəndindəki orta məktəbdə direktor işləmişdir. Sonralar isə 1987-ci ilə qədər müəllimlik etmişdir.

İ.Hacıyev 1956-cı ildə S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin tarix fakültəsini bitirmişdir. 1950-ci ildə ona Ermənistan SSR-nin Əməkdar müəllimi adı verilmişdir. Müharibədə və arxa cəbhədə fəal iştirakına görə 18 ədəd orden və medallarla təltif olunmuşdur. Ermənistan SSR Maarif Nazirliyi tərəfindən təşəkkürlər almışdır.

İ.Hacıyev 28 sentyabr 1992-ci ildə Bakı şəhərində vəfat etmişdir.

## CUMAYIL MƏRDANOV



Cumayıl Alı oğlu Mərdanov 1918-ci il sentyabrın 16-da Göyərçin kəndində anadan olub. Rəhmətlik anası danışarmış ki, "qaçaqaç (1918-ci ilin qışı nəzərdə tutulur) zamanı Cumayılı dalımda apardım". O, ibtidai məktəbi Göyərçin kəndində, 7 illik məktəbi isə Çaykənddə bitiribdir. Sonra İrəvan şəhərindəki Azərbaycan Pedaqoji məktəbinə daxil olmuş və 1938-ci ildə 20 yaşında həmin məktəbi bitirmişdir. Həmin dövrdə İrəvan Pedaqoji texnikumu çox nüfuzlu təhsil ocaqlarından biri hesab edilirdi və bu məktəbi bitirənlərin Ermənistanda yaşayan azərbaycanlıların təhsil almasında çox böyük rolu olub. Texnikumu bitirdikdən sonra 20.08.1938-ci il tarixdən 21.06.1941-ci il tarixə qədər Göyərçin kənd ibtidai məktəbində əvvəl müəllim, sonra məktəb direktoru vəzifəsində çalışır. 1941-ci ildə İkinci Dünya müharibəsinin başlanması ilə əlaqədar hərbi xidmətə çağırılır. İlk hərbi hazırlığı Türkiyə ilə sərhəddə yerləşən keçmiş Qarakilsə (o zamankı Leninakan) şəhərində keçir. Cumayıl məllim danışardı ki, Qarakilsədə təlim-məşq toplantısı zamanı əslən Göyərçindən olan Bayramov Gözüqara gecə vaxtı ona yaxınlaşıb deyir ki, "Cumayıl, buradan Türkiyəyə keçmək üçün imkan var,

biz bu axşam sərhədi keçəcəyik istəsən sən də gəl”. O bu təkliflə razılaşmayıb və deyib ki, “mən ata-anamın yeganə oğluyam, onları qoyub gedə bilmərəm”. Gecə ikən Gözüqara və bir neçə şəxs sərhəddi keçib, Türkiyəyə gediblər”. Bu hadisəni bilib, vaxtında xəbər vermədiyinə görə Cumayıl məllimi çox incidiblər. İlk cəza olaraq onu müharibənin ən qızğın yerinə – cərimə batalyonuna göndərirlər, nəticə də 1942-ci ildə o qolundan yaralanaraq hospitala düşür. Aldığı xəsarətə görə tərxis olunaraq kəndə qayıdır. Kəndə qayıtdıqdan sonra da Dövlət Təhlükəsizlik orqanları onu uzun müddət sorğu-suala tutur, incidirlər. Cumayıl məllim 20.08.1942-ci il tarixdən 01.09.1945-ci il tarixədək Göyərçin kəndində müəllim işləyir, daha sonra 01.02.1945-ci il tarixdən 20.02.1948-ci ilə qədər Göyərçin Kənd Sovetinin sədri vəzifəsində çalışmışdır. 1945-ci ildə Cumayıl məllim Mələk xanımla ailə qurur. 1948-1950-ci illərədə o Göyərçin kənd kolxozunun sədri vəzifəsində çalışır.

1950-ci ildə Salah və Göyərçin kəndlərini birləşdirib, adını Salah kolxozu qoyurlar. Cumayıl məllim 1950-ci ildən 1958-ci ilə qədər fasiləsiz olaraq həmin kolxozun sədri vəzifəsində işləyir. 1957-ci ildə o zamankı Kirovabad Kənd Təsərrüfatı Akademiyasının aqronomluq fakultəsinə daxil olur və 1963-cü ildə oranı qiyabi yolla bitirir. Onun həmin instituta qəbul olunmasında qohumu Pirvəli Həsənovun və institutun fizika müəllimi Çingiz Əsgərovun xüsusi rolu olub.

Cumayıl müəllim 1958-ci ilin fevralından 1959-cu

ilə qədər Salah kənd 7 illik məktəbinin dərs hissə müdiri, 1959-cu ildən 1960-cı ilə qədər Polad kəndində kolxoz sədri vəzifəsində çalışmışdır. 1960-1973-cü illərədə Salah kənd kolxoz sədri vəzifəsində fəaliyyət göstərir və 1973-cü ildən 1981-ci ilə qədər Salah kənd sovetinin sədri vəzifəsində çalışır.

1950-ci illərdə Cumayıl müəllim Ermənistanın qabaqcıl işçiləri sırasında Moskvaya Xalq Təsərrüfatının nailiyyətləri sərgisinə göndərilmişdir.

Bu, o dövr üçün çox böyük hadisə idi. Dəfələrlə Ermənistan Kommunist Partiyasının qurultaylarının nümayəndəsi olmuşdur. 1971-ci ildə o dövrün ən nüfuzlu ordenlərindən biri olan "Şərəf nişanı" ordeni və bir neçə medalla təltif edilmişdir. 1982-ci ilin fevralın 26-dan 1989-cu ilin martın 6-na qədər yuxarıda adını qeyd etdiyimiz nazirlikdə İnzibati-təsərrüfat şöbəsinin rəisi vəzifəsində işləmişdir.

## NOVRUZƏLİ MİRZƏYEV



Novruzəli Mirzəyev 1926-cı ildə Qərbi Azərbaycanın Əştərək rayonunun Hamamlı kəndində anadan olmuşdur. 1940-ci ildə Hamamlı kənd 7 illik məktəbini bitirmiş və həmin ili İrəvan Azərbaycan pedaqoji məktəbinin qiyabi şöbəsinə daxil olmuşdur. 1941-ci ildə Müharibə başlandığına və Hamamlı kəndində fəaliyyət göstərən müəllimlərin əksəriyyəti müharibəyə göndərdiklərinə görə N.Mirzəyevi pedaqoji məktəbi qurtarmamasına baxmayaraq, müəllim təyin etmişlər. 1944-ci ildə onu da əsgərliyə çağırmışlar. Sovet ordusu sıralarında Berlinə qədər getmişdir. Müharibə bitdikdən sonra 1945-1946-cı illərdə Berlin şəhərində serjant rütbəsi ilə xidmət etmiş və nümunəvi xidmətinə görə bir neçə medalla təltif olunmuşdur. Novruzəli Mirzəyev İrəvan pedaqoji məktəbinin tələbəsi olduğuna görə onu əsgərlikdən vaxtından əvvəl azad etmişlər. 1946-cı ildə Vətənə qayıtdıqdan sonra 1956-cı ilə qədər öz müəllimlik peşəsini davam etdirmiş, 1948-ci ildə pedaqoji məktəbi bitirmişdir. O, 1949-cu ildə Hamamlı kəndinin başqa sakinləri ilə birlikdə Erməni millətçi hököməti tərəfindən Salyan rayonuna departasiya olunmuşdur. Həmin ili Salyan rayonun Seyidsadıxlı kənd məktəbinə müdir

təyin olunmuşdur. Ömrünün axırına qədər həmin kənd məktəbində fəaliyyət göstərmişdir.

1956-cı ildə 30 yaşında ikən əsgərlikdə tapdığı ağır xəstəlik təzədən baş qaldırmış və yenidən yatağa düşmüş, uzun sürən xəstəlikdən vəfat etmişdir.

N.Mirzəyev gözəl insan, bacarıqlı pedaqoq idi. Bundan əlavə, sanki ona ilahi vergisi verilmişdi, əlindən hər bir iş gəlirdi. Məsəslən, kənddə südçəkən maşın, Novruzəlini çağırırdılar, saat, patifon, uşaqların velosipedi, qıfıl xarab olurdu Novruzəlini tapırdılar. O, çox alicənab bir şəxs idi. Heyif ki, o, dünyasını tez dəyişdi. 3 körpə balası yetim, yoldaşı isə 26 yaşında dul qaldı. Ömrünün axırına kimi çətinliklə övladlarını böyütdü.

Novruzəli müəllim qısa ömrü ərzində istər Qərbi Azərbaycanın Hamamlı, istərsə də Salyan rayonun Seyidsadıxlı kəndində yüzlərlə şagirdlərə dərs demişdir. Hazırda onun şagirdlərindən həkim, mühəndis, müəllim vəzifələrində çalışanlar, hətta dosent, professor dərəcələrinə qüksələnlər çoxdur. Yetişdirələnləri Novruzəli müəllimin haqqında ağzıdolusu danışırlar. Müəllimlərinin humanistliyindən, alicənablığından, müəllimlik ustalığından söhbət açırlar. Əlbəttə, İrəvan pedaqoji məktəbinin belə yetişdirmələri minlərcədir.

# ƏHMƏD ZEYNALOV



Əhməd Zeynalov 1934-cü ildə Qərbi Azərbaycanın Əştərək rayonun Hamamlı kəndində anadan olmuşdur. Atası Həşim Zeynalov 1943-cü ildə yaşının 50-dən çox olmasına baxmayaraq, zorla II Dünya Müharibəsinə göndərilmişdir. Əsgərliyə apardıqları gündən savadsız olduğuna görə, heç bir məktub-kağız göndərmədən, xəbərsiz-ətərrsiz itgin düşmüş, ta bu günə qədər ailəsi ondan bir xəbər-ətər ala bilməmişlər. əhməd müəllim 7 illik kənd məktəbini bitirdikdən sonra 1947-ci ildə İrəvan pedaqoji texnikumuna daxil olmuşdur.

İrəvan pedaqoji məktəbi Qərbi Azərbaycanda Azərbaycan dilində ixtisaslı kadrlar hazırlayan yeganə təhsil ocağı idi. Bu texnikumdan başqa Qərbi Azərbaycanda istər müəllim ixtisası, istərsə də başqa ixtisaslar hazırlayan bir dənə də olsa təhsil ocağı olmamışdır. Bu texnikum sanki qaranlıq zülmətdə işıq saçan yeganə bir ulduz idi ki, fəaliyyət göstərdiyi yarım əsr ərzində Qərbi Azərbaycandan olan bir çox görkəmli şəxslərin, o cümlədən də Əhməd müəllimin qaynaqlandığı ilk elmi-mənəvi məbəd olmuşdur. əhməd müəllim texnikumda təhsil aldığı dövrdə ailəsi 1948-53-cü illərdə Mikoyan və Stalin cütlüyünün Azərbaycanlılara qarşı yerit-

dikləri soyqırım siyasətinin nəticəsində Qərbi Azərbaycandan Azərbaycanın Salyan rayonuna departasiya olunmuşdur. O, texnikumu bitirdikdən sonra Salyan rayonun Çuxanlı kəndində müəllim işləmişdir. 1954-cü ildə ADU-nin Filologiya fakültəsinə daxil olmuş, 1959-cu ildə oranı fərqlənmə diplomu ilə bitirmişdir. Bir neçə il Salyan rayonun Şorsulu kəndində dil və ədəbiyyat müəllimi işləmiş. 1966-cı ildə Arbatan kənd orta məktəbinə direktor göndərilmişdir. Düz 44 il fasiləsiz olaraq həmin məktəbdə direktor işləmişdir. O da maraqlıdır ki, onun işlədiyi bu müddət ərzində nə bir müəllim, nə bir şagird, nə də bir valideyn heç bir təşkilata Əhməd müəllimdən bir dəfə də olsa şikayət etməmişlər. 44 il 100-ə yaxın müəllimi, 1000-ə yaxın şagirdi olan bir məktəbdə qüsursuz işləmək direktordan yüksək bacarıq, mükəmməl bilik, dərin ağıl, səbr tələb edir.



**Soldan: Tahir Cəfərov, Əhməd Zeynalov, Yolçu Cəfərov, Məcid Əliyev. İrəvan pedoqoji məktəbinin tələbələri**

Hər il məktəbi bitirən 60-70 şagirdin bir neçəsi qızıl medala layiq görülmüş, məktəbdən pərvazlanan bu balaların səsi-sorağı indi ölkəmizin bütün güşələrindən gəlir.

Əhməd müəllimin gəlmə olmasına baxmayaraq, kənd camaatı ilə o qədər qaynayıb-qarışmışdır ki, hamı onu öz doğması öz ağsaqqalı hesab edərək, xatirini əziz tuturlar və ona inanır. Onu Peyğəmblər övladı kimi qəbul edirlər. Kəndin elə bir xeyir-şəri olmaz ki, Əhməd müəllim başda əyləşməsin.

Vaxtı ilə A.P.Çexov demişdir ki, "indi çoxları ona görə əclaflıq edə bilmir ki, L.N.Tolstoy sağdır". Bu hikmətli kəlamı Əhməd müəllimə də aid etmək olar. Yaş senzi ilə əlaqədar təqaüdə gedərkən kənd əhalisi, valideynlər Əhməd müəllimin öz yerində qalıb, direktor işləməsini kütləvi şəkildə rayon rəhbərliyindən xahiş və təkidlə tələb etmişlər. Hətta təqaüdə getməsi haqqında əmr verilmiş olsa da, bir müddət məktəb direktorsuz qalmış Əhməd müəllin ictimai əsaslarla fəaliyyətini davam etdirmişdir. Əhməd müəllim gözəl ailə başçısıdır. Doqquz övladı var, hamısı ali savadlıdır, 4-ü həkim, qalanları müxtəlif ixtisas sahibləridir.

Əhməd müəllimin 58 illik pedaqoji, 44 illik direktor fəaliyyəti layiqincə qiymətləndirilmişdir. Belə ki, o, təhsil işçilərinin bütün qurultaylarında bir nümayəndə kimi iştirak etmiş, "Şərəf nişanı", "Qırmızı Əmək Bayrağı" ordeni, "Şərəfli əməyə görə" medalı, "Qabaqcıl təhsil işçisi" döş nişanı ilə təltif olunmuşdur. Sənə can sağlığı arzu edirik, Əhməd müəllim!

# ƏLİYEV İBAD

*Qocalmışam, yorulmuşam, bilmirəm,*
*Tək qalmışam, ağlasam da, gülmürəm.*
*Yatanda da yuxularda görmürəm.*
*O dağlara, o ellərə bağlıyam.*
***İbad Əliyev***



İbad Əliyev 1929-cu ildə Qərbi Azərbaycanın Göyçə mahalının Ağbulaq kəndində dünyaya göz açmışdır.

1930-cu ildə Göyçə mahalında kollektivləşmə başlayanda atası yeni yaranan bu təsərrüfata daxil olmaq istəmədiyinə görə, 1932-ci ildə ailəsi ilə birlikdə İrəvan şəhərinə köçür və orada yaşamalı olurlar. Ancaq kəndlə əlaqəni də kəsmirlər. Ibad orada qalıb, kənd məktəbində oxuyur. Kənd 7 illik məktəbini bitirdikdən sonra 1945-ci ildə İrəvan pedaqoji məktəbinə daxil olur. Ailələri İrəvan şəhərində yaşadıqları üçün onun texnikumda yaxşı oxuması üçün əlverişli şərait yaranır (Bəlkə də atası uşaqlarının gələcəyini düşünərək, İrəvan şəhərinə köçmüşdür). Amma İbadın oxuması üçün bu əlverişli şərait uzun sürmür, elə həmin ili atası qəflətən vəfat edir, bu ölüm ailəni sarsıdır. Həmin gündən onun və ailələrinin ağır və əzablı günləri başlayır. Amma bu

acınacaqlı vəziyyətə baxmayaraq, İbad texnikumu əla qiymətlərlə bitirir. Ailəni şəhərdə dolandırmaq çətin olduğuna görə İbad təyinatını Göyçə mahalının Toxluca kənd orta məktəbinə alır. 1948-50-ci illərdə həmin məktəbdə müəllim işləyir. 1950-ci ildə onu əsgərliyə aparırlar. 1950-1953-cü illərdə Sovet Ordusu sıralarında qulluğunu başa vurduqdan sonra, öz kəndləri Ağbulağa qayıdır, orada yenidən müəllimlik fəaliyyətinə başlayır. Təhsilini davam etdirmək üçün 1956-cı ildə N.Yusi adına Bakı pedaqoji universitetinə daxil olur və 1962-ci ildə universiteti bitirərək, riyaziyyat fənni üzrə ali təhsil alır. 1964-1975-ci illərdə Ağbulaq kənd orta məktəbində təlim üzrə direktor müavini, 1975-1986-cı illərdə məktəb direktoru vəzifəsində çalışır. Direktor işlədiyi müddətdə yeni məktəb binasının tikilməsi üçün nazirlikdən proyekt almağa nail olur və yeni məktəb tikdirir. Bu məktəb böyüklüyünə, şagird yerliyinə və təchizatına görə Qərbi Azərbaycanda ikinci məktəb sayılırmış.

1986-cı ildə iş qabiliyətinə və siyasi fəaliyyətinə görə rayon partiya komitəsinin tələbi ilə irəli çəkilərək, sovxoza azad partiya təşkilat katibi və rayon partiya komitəsi bürosuna üzvü seçilir. Ancaq burada da işləmək ona qismət olmur. 1988-ci ildə ermənilərin kütləvi qaydada azərbaycanlıları öz vətənindən qovub çıxarması onların ailəsindən də yan keçmir. Odur ki, köçüb, Bakıda məskunlaşmalı olurlar.

1990-1993-cü illərdə Bakıda "Ümumittifaq elmi tədqiqat lahiyə qaz" institutunda mühəndis vəzifəsində

çalışır. Lakin burada da uzun müddət işləyə bilmir, çünki institut öz fəaliyyətini dayandıraraq ləğv edilir, bununla da İbad müəllimin əmək yolu sona çatır. Ömürlük qocalıq məzuniyyətinə çıxmalı olur.

Dörd uşaq atası olur, hamısı oxumuş ali təhsilli uşaqlardı. Heyif ki, 2009-cu ildə yeganə (tək) qızımı, 2011-ci ildə həyat yoldaşımı itirir. Demək olar ki, tək qalır. Yəqin ki, taleyinə belə ağrılı, acılı günlər yazılıbmış.

İbad müəllim İrəvan pedaqoji məktəbində təhsil illərini xatırlayarkən qeyd edir ki, texnikum Qərbi Azərbaycanda pedaqoji kadrların hazırlanmasında yeganə müstəqil təhsil ocağı olmuşdur. Bir növ Qərbi Azərbaycanın "Qori" seminariyasını xatırladırdı.

## İSTƏMİRƏM

*Dünya yenə məni çəkir sınağa,*
*Daha gülmək-ağlamaq istəmirəm.*
*Yollarım dirənib zilə, dağa, dalana,*
*Daha geri qayıtmaq istəmirəm.*

*Fikir gəzir qarış-qarış başımda,*
*Dolanır həm yazımda, həm qaşımda.*
*Ədalət görmədim ahıl yaşımda*
*Bundan belə ədalət istəmirəm.*

*Təmiz fikrin doğru sözün olmasa,*
*Yalan gələr, doğru grdər bilinməz.*
*Günəş sönər, zülüm çökər dünyaya,*
*Zülüm verən dövranı istəmirəm.*

*İnanmıram qara dönə ağ ola,*
*Bülbül uça, güllər sola, zay ola.*
*Ana ölə, ata qala, yad ola,*
*Daha dərdimə dərman istəmirəm.*

*İtirmişəm Göyçə kimi elimi,*
*Baldan şirin doğru deyən dilimi,*
*Atamı, anamı, Göyçə gölümü,*
*Daha başqa gülüstan istəmirəm.*

# QOCALIQ

*Tez gəlməyini gözləməzdim,*
*Sən nə tez gəldin, ay qocalıq.*
*Gəncliyimi aldın əlimdən,*
*Qəddar oldun sən, ay qocalıq.*

*Nə qış qanırsan, nə də yaz-yay,*
*Hey gəzirsən eli-obanı,*
*Kasıbı varlıdan seçirsən,*
*Salırsan azara, qocalıq.*

*Bəzən uşaq kimi baxırsan,*
*Küsüb, qaş-qabağını asırsan,*
*Qohumdan-qardaşdan qaçırsan,*
*Elə bil düşüb yas, qocalıq.*

*Get-gedə hörmətdən düşürsən,*
*Daxilən qovrulub-bişirsən,*
*Yemirsən-içmirsən, əsirsən,*
*Sanki qışdır gəlib, qocalıq.*

*İbad, solubdur bağlarım,*
*Bağlanıbdır, kəsilibdir bütün yollarım,*
*Ötüb getdi cavan çağlarım,*
*Zəfər çaldın sən, ay qocalıq.*

**İbad Əliyev**

# ZEYNALOV ORUC HƏMZƏ OĞLU



Oruc Zeynalov 1921-ci il may ayının 17-də Qərbi Azərbaycanın Əştərək rayonun Hamamlı kəndində anadan olmuşdur. Ibtidai təhsilini həmin kənddə aldıqdan sonra Zəngibasar rayonun Mehmandar kəndində 7 illik məktəbdə oxumuşdur. Məktəbi uğurla bitirərək, 1948-ci ildə İrəvan pedaqoji məktəbinə daxil olmuşdur. 1941-ci ildə texnikumu əla qiymətlərlə başa vurmuşdur. Yeri gəlmişkən qeyd edək ki, 1940-ci ildə texnikumun 15 illik yubileyi ilə bağlı göstərilən 34 nəfər əlaçı tələbələrin siyahısında Həbib Həsənov, Zəhra Hüseynova, Əli Qədiməliyev, İsrəfil Şahverdiyev və s. tələbələrlə yanaşı Oruc Zeynalov və II Dünya Müharibəsinə getmiş, itgin düşmüş qardaşı Zeynal Zeynalovun adları da çəkilmişdir.

İrəvan pedaqoji məktəbi o dövrdə Qərbi Azərbaycanda müəllim ixtisası verən yeganə mötəbər təhsil ocağı olmuşdur. O dövrə qədər Qərbi Azərbaycana müəllim kadrosu, demək olar ki, Azərbaycan Respublikasından dəvət olunurdu. Irəvan pedaqoji texnikumu fəaliyyətə başladıqdan və ixtisaslı müəllimlər yetişdirildikdən sonra Qərbi Azərbaycan məktəblərini müəllimlərlə təmin edən yeganə təhsil müəssisəsi olmuşdur.

Oruc Zeynalov bu texnikumu 1941-ci ildə bitirərək, bir neçə ay Əştərək rayonun Təhkiyə kəndində müəllim işləmişdir. 1941-ci ildə II Dünya Müharibəsi (Vətən müharibəsi) başlayar-başlanmaz onu orduya çağırırlar. Bir ay Bakıda , 6 ay Tiflisdə qulluq etdikdən sonra 1942-ci ilin may ayında ön cəbhəyə yola salınır. Xarkov şəhəri istiqamətində İzyum şəhəri uğrunda gedən qanlı döyüşdə yaralanır, 8 hərbi xəstəxanaya (hospitala) göndərilir. 3 ay orada müalicə aldıqdan sonra Həştərxana köçürülür və axırıncı müalicəsini Uralda Çkalov şəhərində davam etdirir, sağaldıqdan sonra Leninqrad cəbhəsinə göndərilir. Soyuq, şaxtalı bombaların yağış kimi yağdığı. Bir qış günündə Leninqrad cəbhəsinə çatırlar. Gündüz mümkün olmadığına görə gecə ikən sualtı qayıqlarla buz bağlamış, Ladoqa gölündən Leninqrad şəhərinə çıxarılırlar. Orucun dediklərindən: “Leninqrad mühasirədə idi, hər adama gün ərzində 100-150 qram qara çörək verilirdi”. Oruc Zeynalov Leninqrad şəhərində kəşfiyyatçı dəstəsində fəaliyyətə başlayır, ön xətdəki ağır döyüşlərdə iştirak edir. Orduda olarkən o, 1944-cü ilin yanvarında “Döyüş xodmətlərinə görə” medalı (general Çerpanovun özü təqdim etmişdir), 1944-cü ilin axırı “Leninqradın müdafiəsinə görə” medalı, 1945-ci il “Böyük Vətən müharibəsində qələbə” ordeni ilə təltif olunmuşdur.

1945-ci ildə ordudan təxris olunaraq öz doğma kəndləri Hamamlıya dönmüş, 1949-cu ilin noyabrına kimi həmin kənd 7 illik məktəbində direktor vəzifəsində işləmişdir. 1947-ci ildə Bakı şəhərində fəaliyyət göstərən

Bakı Qiyabi Pedaqoji İnstitutunun dil və ədəbiyyat fakültəsinə daxil olur.

1949-cu ilin noyabrında Oruc müəllimin ailəsi Hamamlı kənd əhalisi ilə birlikdə Salyan rayonuna departasiya olunur. Əvvəlcə Marışlı kənd 7 illik məktəbində müəllim işləmiş, 1952-ci ildə attestasiya komissiyasından keçərək, əvvəlcə Çuxanlı kənd məktəbində 1955-ci ildə isə Sarvan kənd orta məktəbində direktor vəzifələrində çalışmış. 1958-1991-ci illər ərzində Seyidsadıxlı kənd orta məktəbində direktor işləmiş. Nəhayət, 1991-2003-cü illər ərzində, başqa sözlə təqaüdə çıxarılana qədər Marışlı kənd orta məktəbində cərgəvi müəllim kimi fəaliyyətini başa vurmuşdur. Hal-hazırda 96 yaşında Marışlı kəndində ömür sürür, Oruc müəllimə can sağlığı arzu edirik.

## CAHANGİR RÜSTƏMOV



Cahangir Rüstəmov 1911-ci ildə Qafan bölgəsinin Şəhərcik kəndində yoxsul bir ailədə anadan olub. Bəndəli kişinin üç uşağından biridir. Ilk təhsilini kənd məktəbində alır. 1927-ci ildə İrəvan Türk Pedaqoji Texnikumuna daxil olub və 1931-ci ildə müəllimlik ixtisası alıb. Texnikumda Nurəli Qurbanov Həsənalı Həsənov, Əbil Rzayev, Bəhlul Bayramov və başqaları ilə birlikdə oxumuşdur.

1931-ci ildən sonra, bir neçə il Yuxarı Girətağ kənd məktəbində dil və ədəbiyyatdan dərs deyib. Bir müddət Gödəkli yeddiillik məktəbinin direktoru vəzifəsində işləyib. 1941-ci ilə kimi, alman-sovet savaşının başlandığı ilə qədər Şəhərcik məktəbinin müəllimi olub.

1941-ci ildə müharibəyə göndərilir, qayıdıb bir il müxtəlif işlərdə çalışır. Sonra O öz müəllimlik peşəsinə qaydır və ömrünün axırına kimi, öz sənətindən ayrılmır. 1940-ci ilin 13 noyabrında ona xalq maarifi sahəsindəki xidmətlərinə görə, "Əməkdar müəllim" fəxri adı verilmişdi. Sona qədər də bu adı şərəflə daşıdı.

Fikrət Bəndəliyev atası haqqında söyləyir: Atamın adı gələndə hər yerdə mənə hörmət və ehtiram göstərirdilər. Bir hadisə heç vaxt unudulası deyil; instituta yenicə qəbul

olunmuşdum. Partiya tarixindən bizə Bəhlul Yusifov dərs deyirdi. İlk dərsdə jurnaldan soyadlarımızı bir-bir oxuyub, ayağa qaldırdı və hansı bölgədən olduğumuzu xəbər aldı. Biləndə ki, mən Qafan bölgəsindənəm, dedi:

– Mən İrəvan Türk Pedaqoji Texnikumunun direktoru olanda Qafandan yaxşı tələbələrim vardı. Sən kimin oğlusan?

Cavab verdim ki, Cahangir Rüstəmovun.

Gözlüyünü çıxarıb, bir daha mənə nəzər saldı:

– Cahangir Rüstəmov mənim ən yaxşı tələbələrimdən idi. Indi sağdırmı?

Başımın hərəkəti ilə sağ olduğunu bildirdim. Atam haqqında xoş sözlər eşitdiyimdən uçmağa qanadım yox idi. Bəhlul müəllim bizə bir il dərs dedi. Məni görəndə atamı soruşar, salam söyləməyi tapşırardı...

Atam cəmi əlli bir il yaşadı. Görünür, keçdiyi yolun əzab-əziyyəti, məşəqqətli çağlar onun sağlamlığını vaxtından əvvəl, əlindən almışdı.1962-ci ildə dünyasını dəyişdi. Onun dəfn gününü yaxşı xatırlayıram: bölgənin ziyalıları axışıb gəlmişdilər. Onun nə qədər hörmət və ehtirama layiq görüldüyünün bir daha şahidi oldum.

Məzarlıqda bir neçə adam danışdı. Hərə ürək ağrısı ilə öz sözünü söylədi. Bölgənin tanınımış maarif işçisi Bahadur İsmayılov göz yaşı içərisində dedi:

– Mən arzu etmişdim ki, Cahangirin çiynində gora gedim, ancaq tərsinə oldu. Həyatda elələri var ki,yaşasalar da, ölüdürlər, elələri də var ki, ölsələr də, daim yaşayırlar. Cahangir bu gün bizim aramızdan getsə belə, o hər zaman

diridir, o bizim aramızdadır, o heç vaxt unudulmayacaq!..

Fikrət Bəndəliyev sözünə ara verib, köks ötürdü:

– İndi neçə ildir ki, atam dünyasını dəyişib. Onun nəvə-nəticələri var. Onlara babaları haqqında iftixarla söhbət açıram...

Bölgənin tanınmış jurnalisti Abdulla İbrahimov isə öz müəllimi haqqında ürək sözlərini belə ifadə etdi:

– Cahangir Rüstəmov sevimli müəllimlərimdən biri olub. 30-cuillərdə mən Yuxarı Girətağ kənd məktəbində oxuyurdum. O zaman Cahangir müəllim bizə dil və ədəbiyyatdan dərs deyirdi. Təmkinli danışığı, səmimi rəftarı vardı. Onun dərslərini böyük səbrsizliklə gözləyirdik. Şagirdlərə elə qayğı ilə yanaşardı ki, elə bilərdin, valideyn öz övladını dindirir, ona öyüd verir, davranış öyrədir. Mən həyatda Cahangir müəllimdən çox şey öyrənmişəm, onun məzarı önündə baş əyirəm. Əlvida, əziz müəllimim, rahat uyu!

## NURƏLİ QURBANOV



Qərbi Azərbaycanda milli maarifimizin inkişafında böyük xidmətləri olanı ziyalılardan biri də Nurəli Qurbanovdur. Nurəli Məmmədəli oğlu Qurbanov 1910-cu ildə Qafan rayonun Şəhərcik kəndində anadan olmuşdur. O, texnikumda oxuduğu müddətdə öz ədəbi, ictimai fəallığı, dərin biliyi ilə də öz həmkarlarından seçilirdi. O, İrəvanda Azərbaycan dilində nəşr olunan "Zəngi" (sonralar isə "Qızıl şəfəq" adı ilə nəşr edilmişdir) qəzeti səhifələrində dövrün ictimai, mədəni və s. sahələrinə aid xeyli sayda məqalələri dərc edilmişdir. Nurəli müəllim "Qızıl şəfəq" qəzetinin Qafan bölgəsi üzrə ən fəal müxbirlərindən biri idi. Nurəli müəllim 1936-38-ci illərdə Qafanda nəşr edilən "Mis uğrunda" qəzetinin redaktor müavini işləmişdir. O, ensiklopedik biliyə, analitik təfəkkürə malik bir ziyalı idi. Nurəli Qurbanov 1927-ci ildə İrəvan Pedaqoji Məktəbinə daxil olmuş 1930-cu ildə həmin məktəbi uğurla başa vurmuşdu. Pedaqoji məktəbi bitirdikdən sonra öz doğma vətəni Qafan rayonuna qayıdaraq, Azərbaycanlı balalarının təhsilə, elmə yiyələnməsində böyük səy göstərmişdi. Onun səyi nəticəsində Qafan rayonundan olan bir sıra gənclər İrəvan Pedaqoji məktəbində təhsil almış və

sonralar maarifimizin inkişafına öz töhfələrini vermişlər. Cahangir Rüstəmov, Əbil Rzayev, Ağabala Babayev, Həsənalı müəllim, Həsən Şəkərəliyev və başqaları onun təşəbbüsü nəticəsində İrəvan Pedaqoji məktəbində təhsil almışlar. Nurəli Qurbanov hələ Pedaqoji məktəbdə oxuyarkən İrəvanda Azərbaycan Ədəbi mədəni mühitinin inkişafında fəal iştirak edirdi. O, EYPC-nin nəzdində yaradılmış Azərbaycanlı şöbəsində gənc yazıçı kimi iştirak edirdi. 30-cu illərdə Nurəli müəllimin İrəvanda



**Pedaqoji Texnikumun Tələbələri, İrəvan 1930**
**Nurəli Qurbanov, Cahangir Rüstəmov, Əbil Rzayev, Həsənalı Həsənov, Bəhlul Bayramov**

Azərbaycan dilində yəşr olunan ədəbi Almanaxlarda

işıq üzü görmüş hekayə və əsərlərin müəllifidir. Nurəli müəllim Qafan rayonunun bir sıra kəndlərində müəllim direktor  və s. vəzifələrdə çalışmışdır. Onun çalışdığı məktəblər Qərbi Azərbaycanda ən qabaqcıl məktəblər kimi tanınırdı. Nurəli müəllim nəyin ki Qafanda, bütün Qərbi Azərbaycanda tanınmış müəllimlərdən biri idi. Nurəli müəllimin fədakar əməyi bu gün də minnətdarlıqla yad edilir. Nurəli müəllimin işıqlı həyat yolunu bu gün də onun övladları davam etdirirlər.

# MƏMMƏDOV ŞAHVƏLƏD
# (1922-1994)



Məmmədov Şahvələd Teymur oğlu 1922-ci ildə Qərbi Azərbaycanın Sisyan rayonunun Murxuz kəndində anadan olmuşdur. Sofulu 7 illik məktəbini bitirdikdən sonra 1938-ci ildə İrəvan Pedaqoji Texnikumuna daxil olmuş və həmin texnikumu 1939-cu ildə bitirmişdir.

İlk müəllimlik fəaliyyətinə Sisyan rayonunun  Qizil Şəfəq ( Şixlar ) kəndində başlamış, sonralar isə həmin rayonun Vağudi, Dəstəgird kəndlərində müəllimlik etmişdir. Əsgəri xidmətini Gürcüstan Respublikasında Qori şəhərində yerləşən 124-cü Qırmızı Qvardiya atıcılıq polkunda keçmişdir. Hərbi xidmətdə yaralandıqdan sonra ordudan tərxis olunub, Murxuz, Ağudi, Ərəfsə və Sofulu kəndlərində məktəb direktoru işləmişdir.  1952-ci ildən Sisyan rayon partiya komitəsində təbliğatçı və rayonda çıxan "Kommunizm yolu" qəzetində ədəbi işçi kimi  fəaliyyət göstərmişdir.

1956-1958-ci illərdə Murxuz kəndində kolxoz sədri vəzifəsində işləmişdir. 1958-ci ildən 1988-ci ilə kimi – azərbaycanlılarln Ermənistandan deportasiyasına qədər Sofulu və Murxuz kənd məktəbində direktor işləmişdir.

Ş.Məmmədov texnikum təhsili ilə kifayətlənməyib.



**İrəvan Pedoqoji məktəbinin məzunları. 1939-cu il**

1948-ci ildə Naxçıvan Müəllimlər İnstitutuna daxil olmuş və oranı müvəffəqiyyətlə başa vurduqdan sonara 1957-ci ildə indiki Azərbaycan Dövlət Pedaqoji Universitetinin filologiya fakultəsinə daxil olmuş 1962 –ci ildə oranı bitirmişdir .

Ş. Məmmədov rayon ictimaiyyətinin dərin hörmətini qazanmış bir el ağsaqqalı kimi onu tanıyanların yaddaşında qalmışdır.

Ş. Məmmədovdan bir övlad qalıb-Sevinc xanım. Sevinc xanım da atasının yolunu davam etdirir və hal-hazırda Sumqayıt şəhərində dil ədəbiyyat müəllimi işləyir.

Ş. Məmmədov 1994-cü ildə Sumqayıt şəhərində vəfat etmişdir.



**Şahvələt Məmmədov tələbə yoldaşı Mokayıl Hüseynovla 1939-cu il.İrəvan**

Şahvələd Teymur oğlu Məmmədov onu tanıyanların xatirəsində əbədi yaşayacaq və dərin minnətdarlıqla yad edilir.

## MƏZUN SÖZÜ: BÖYÜK TƏHSİL MƏBƏDİ– İRƏVAN PEDAQOJİ MƏKTƏBİ

1920-40-ci illərdə Qərbi Azərbaycanda müəllim kadrları çatışmırdı. Buraya müəllimlər ya Azərbaycan Respublikasından göndərilirdilər, ya da köhnə mollaxanalarda oxumuş, latın əlifbasını bilənlər müəllim təyin edilirdilər.

Yaxşı yadımdadır, 1938-ci ildə mən I sinfə gedəndə yerli kadr olmadığına görə bizim məktəbimizə Azərbaycandan iki nəfər müəllim göndərmişdilər, soyadları yadımda deyildir, birinin adı Məhəmmədhüseyn, digərininki isə Məhəmmədəli idi. Məhəmmədhüseyn bizim sinifdə dərs deyirdi. Iki il işlədikdən sonra onlar öz vətənlərinə-Azərbaycana qayıtdılar. Bunların yerinə kəndimizə 2 müəllim təyin etdilər. Bunlardan biri Əli adlı yaşlı müəllim idi. Əli müəllim qeyd edirdi: "Mən keçmişdə mollaxanada oxumuşdum, az-çox ərəb əlifbası ilə yazıb-oxumağı bacarırdım. Belə bir elan eşitdim: "Hər kim latın əlifbası ilə yazıb oxumağı bilirsə, rayon maarif şöbəsinə müraciət etsin. Bir gecə səhərə kimi yatmayaraq, latın əlifbası ilə yazmağı, oxumağı öyrənib, səhər tezdən maarif şöbəsinə getdim. Məni yoxladılar və bura müəllim göndərdilər".

O zaman Qərbi Azərbaycanda müəllim sarıdan belə bir acınacaqlı vəziyyət hökm sürürdü. Xüsusilə müharibə dövründə vəziyyət daha ağır idi. Müəllim çatışmırdı.

Hətta 7-ci sinfi bitirən oğlan və qızlar müəllim təyin olunurdular.

Deməli, belə bir acınacaqlı vəziyyəti 1924-cü ildə İrəvan şəhərində açılmış Azərbaycan pedaqoji texnikumu tədricən aradan qaldırırdı. Bu texnikum Qərbi Azərbaycanda yeganə müstəqil müəllim hazırlayan təhsil ocağı idi. O, bir növ Qori Seminariyasını xatırladırdı. O dövrdə, ondan da bir qədər sonra Qərbi Azərbaycanda fəaliyyət göstərən müəllimlərin 60-70 faizi həmin texnikumun məzunları olmuşlar. Bununla yanaşı, Qərbi Azərbaycandan yetişən ən görkəmli alim, yazıçı, şair, musiqişünas və rəssamların da bir qismi həmin texnikumun məzunları olmuşlar. Mənim xoşbəxtliyim onda olmuşdur ki, 1945-ci ildə mən də bu texnikumun tələbəsi oldum. Düzdür, 1945-ci ilə qədər texnikumun təşkili və inkişafı çox ağır və keşməkeşli olsa da, uzun sürən mübarizələrin nəticəsində yaradılsa da, texnikum münasib 4 mərtəbəli çox saylı auditoriyaları olan bir binada yerləşirdi. Çox yüksək səviyyəli müəllim kollektivinə, Qərbi Azərbaycanın bütün güşələrindən gəlmiş tələbə kontingentinə malik möhtəşəm bir təhsil ocağına çevrilmişdir. 1945-ci ildə görkəmli şəxsiyyət olan, sonralar AZİ-nin professoru vəzifəsində fəaliyyət göstərən (məşhur tarixçi alim Yusif Yusifovun atası) Bəhlul Yusifov texnikumun direktoru idi. 1946-cı ildə Bəhlul Yusifov azad edildi. Əvvəl Həbub, sonra Əsgər Cəfərov texnikumun direktoru oldular. Köçmə dövrində Əsgər Cəfərov idi. Texnikumda Sadiq Heydərzadə, Əyyub Babayev, Təvəkkül Kərimov, Mehdi

Kazımov, Şölə Fərhadova, Məmməd Həsənov, Ələşrəf Bayramov, Həbib Məhəmmədzadə, Bülbül Kazımova, Miryusif Mirbabayev, Abbas Orucov, Raziyə İsmayılova, Surə Babayeva, Zaman Vəliyev, Yusif Ramazanov, Cəfər Ələkbərov və s. yüzlərlə bu kimi humanist, alicənab, obyektiv, savadlı, bacarıqlı müəllimlər çalışırdı.

Texnikum binasının I mərtəbəsində təcrübə bazası kimi ibtidai sinif şagirdləri təhsil alırdı, II-III mərtəbələrdə texnikum tələbələri üçün auditoriyalar yerləşirdi. Axırıncı mərtəbə ümumi yataqxana idi. Texnikumda fənn, tar, rəqs, rəsm, ədəbi yaradıcılıq dərnəkləri fəaliyyət göstərirdi. Texnikumun rəhbərliyi, müəllimlər tez-tez yataqxanaya baş çəkirdilər.tələbələrin dərslərə hazırlanması, məişət vəziyyətləri ilə maraqlanırdılar. Bir haşiyə çıxmaq istəyirəm. Həftənin hansısa bir günü idi. Mən bir az tez yatmışdım. Gördüm, bir nəfər məni silkələyir və "yoldaş tələbə, yoldaş tələbə" deyə, məni səsləyir. Gözümü açdım, baxdım, bu direktor Əsgər Cəfərov idi. Bir az yumşaq və bir az da amiranə tərzdə: "Yoldaş tələbə, belə tez yatmazlar! Səhərki dərslərini hazırlamısanmı?" dedi, "Bəli, hazırlamışam", dedim. O əlavə edərək «Səhər dərsə getməmiş konspektlərini də götürüb yanıma gələrsən,- dedi. Səhər getdim, konspektlərimi yoxladı, bir-iki sual verdi və dedi: "Dərsə get, tələbə belə tez yatmaz".

Texnikumda gözəl abı-hava hökm sürürdü. Rəhbərliyin texnikumu lazımi səviyyədə idarə etməsi, müəllimlərin əksəriyyətinin elmi adları olmasa da, dərin bilikli, müsbət mənada ağır təbiətli, təmkinli tələbələrlə

humanistcəsinə davranmaları, ağır bir dövr olmasına baxmayaraq, gözü-könülləri tox olmaları, tələbələrin əksəriyyətinin nisbətən yaşlı olmaları (hətta tələbələrə bron da verilirdi) texnikumun məzuniyyətlərini daha da artırır. O, səviyyəli bir instituta bənzəyirdi. Qərbi Azərbaycan əhalisi tərəfindən mötəbər bir təhsil məbədi kimi qəbul edilirdi. Onun müdavimlərini kənd camaatı çox hörmətlə qarşılayırdı, hətta tətil vaxtları kəndlərinə gələn tələbələri sıra ilə bütün kənd ailələri qonaq çağırar və əzizləyərdilər, o cümlədən bu sətirlərin müəllifini və onunla təhsil alan həmkəndli tələbə yoldaşlarını da. Texnikumun məzuniyyətləri hədindən çox idi. əsərdə bu barədə ətraflı bəhş olunacaqdır. Xüsusilə müharibədən sonrakı illərdə istər müəllim, istərsə də tələbələrdə yüksək əhval-ruhiyyə və təhsilə maraq daha da artmışdı. Hamı həvəslə çalışırdı. Sanki həyat tamam bambaşqa olmuşdu. Texnikumda bir canlanma, gələcəyə böyük inam var idi. Atalar demişkən, "sən saydığını say, gör fələk nə sayır". Sabir demişkən, "biz belə bir təmənnada ikən". Texnikumun Azərbaycana köçürülmə xəbəri bir bomba kimi partladı, elə bil tələbə və müəllimlərin üzərinə qaynar su çiləndi. Texnikumda hökm sürən bu cahcəlal və həyat eşqi birdən-birə ölgünləşdi, sönməyə başladı. Hamının üzündə bir hüzn, bir kədər və bir solğunluq müşahidə edilirdi. Bu minvalla İrəvan pedaqoji məktəbi Stalin-Mikoyan siyasətinin qurbanı olaraq, Azərbaycanın o zamanınkı Xanlar rayonuna köçürüldü. Çox keçmədi ki, orada da bir erməni barmağının olması nəticəsində

bağlandı. Bu texnikumdan əsər-əlamət belə qalmadı. Sanki belə bir müqəddəs təhsil ocağı olmamışdır. Belə bir gözəl, müqəddəs təhsil ocağı da sönərdimi?! Təəssüflər olsun, söndü! Mən bir çox təhsil ocaqlarında: Qazax müəllimlər İnstitutunda, Bakı Dövlət Universitetində, APİ-nun Aspiranturasında, Marksizm-Leninizm Universitetində oxumuşam. Irəvan Pedaqoji Məktəbini bitirməyimlə qürur duyur və daha çox fəxr edirəm!

***Cəfər Cəfərov,***
***professor***

## İrəvan Pedaqoji məktəbini bitirmiş məzunların siyahısı (siyahı tam deyil)

1. Əli Fərəcov – İrəvan
2. Sona Bağırova – İrəvan
3. Zəhra Əliyeva – İrəvan
4. Kövsər Tarverdiyeva – İrəvan
5. Fəridə Məmmədova – İrəvan
6. Şəfiqə Məhərrəmova – İrəvan
7. Qadir Məmmədov – Zəngibasar, Uluxanlı
8. Tağı Bağırov – Zəngibasar, Uluxanlı
9. Musayev Abbas – Zəngibasar, Uluxanlı
10. Cəfərqulu Əsgərov – Zəngibasar, Uluxanlı
11. Həqiqət Məmmədova – Zəngibasar, Uluxanlı
12. İsmayıl İsmayılov – Zəngibasar, Uluxanlı
13. Əsəd Məmmədov – Uluxanlı
14. Nəriman Məmmədov – Zəngibasar, Zəngilər kəndi
15. Məsim Məmmədov – Zəngibasar, Hacaparax
16. Məhərrəm Bayramov – Zəngibasar, Aşağı Necili
17. Budaq Budaqov – Zəngibasar, Çobankərə kəndi
18. Abbas Mustafayev – Zəngibasar, Çobankərə kəndi
19. Cabbar Quliyev – Zəngibasar, Zəhmət kəndi
20. Cəlil Quliyev – Zəngibasar, Zəhmət kəndi
21. Tapdıq Həsənov – Zəngibasar, Dəmirçi kəndi
22. Mirabbas Heydərov – Zəngibasar, Dəmirçi kəndi
23. Fərhad Fərhadov – Zəngibasar, Rəncbər kəndi
24. Cabbar Məmmədov – Zəngibasar, Zəhmət kəndi

25. Kərim Qafarov – Zəngibasar, Uluxanlı
26. Ceyran Zeynalova – İrəvan
27. Nigar Vəliyeva – Zəngibasar, Qaraqışlaq kəndi
28. Feyzulla Məmmədov – Zəngibasar, Aşağı Necili kəndi
29. Nəriman Əliyev (Fəxri) – Vedibasar, Böyük Vedi kəndi
30. Yusif Yusifov – Vedibasar, Vedi kəndi
31. Süleyman Məmmədov – Vedibasar, Xalisa kəndi
32. Nəriman Yusifov – Vedibasar, Böyük Vedi kəndi
33. Nəzər Paşayev – Vedibasar, Böyük Vedi kəndi
34. Nəriman Kazımov – Vedibasar, Böyük Vedi kəndi
35. Cəfər Cəfərov – Əştərək rayonu, Hamamlı kəndi
36. Zərifə Budaqova – İrəvan
37. Abbas İsmayılov – Göyçə mahalı, Ardanış kəndi
38. Həbib Həsənov – Nor-Bayazit, Ağzıbir kəndi
39. Abbas Tahir – Qəmərli rayonu, Məsimli kəndi
40. Tapdıq Əmiraslanov – Göyçə mahalı, Zod kəndi
41. Cümayıl Mərdanov – Qaraqoyunlu, Göyərçin kəndi
42. Nurəli Qurbanov – Qafan rayonu, Cığı
43. Cahangir Rüstəmov – Qafan rayonu, Şəhərcik kəndi
44. Əbil Rzayev – Qafan rayonu
45. Həsən Şəkərəliyev – Qafan rayonu, Pürülü kəndi
46. Həsənalı Həsənov – Qafan rayonu
47. Bəhlul İmaməliyev – Qafan rayonu
48. Ağabala Babayev – Qafan rayonu
49. Qasım Mustafayev – Ağbaba, Güllübulaq
50. Nəcəf Nəcəfov – Ağbaba, Oxçuoğlu
51. Matan Tanrıverdiyev – Zəngibasar, Yuxarı Necili

52. Məmmədəli Məhərrəmov – Ağbaba, Güllübulaq
53. Həbib Bayramov – Sisyan, Urud kəndi
54. Əliş Qarayev – Qafan rayonu, (Cığı) Mahmudlu kəndi
55. Həbib İsmayılov – Qafan rayonu, Cığı
56. Əhməd Ələkbərov – Qafan rayonu, Şəhərcik kəndi
57. Həbib Paşayev – Qafan rayonu, Pəyhan kəndi
58. Əhməd Azadəliyev – Qafan rayonu, Cığı kəndi
59. Əbülfət Rəhimov – Göyçə mahalı, Zaid kəndi
60. Qəşəm Aslanov – Göyçə mahalı
61. Həmid Əfəndiyev – Qaraqoyunlu, Çaykənd kəndi
62. Hüseyin Osmanov – Qaraqoyunlu, Çaykənd kəndi
63. Nəsir Mahmudov – Göyçə mahalı, Ardanış kəndi
64. Nəbi Hətəmov – Qaraqoyunlu, Çaykənd kəndi
65. Həmid Abdullayev – Qaraqoyunlu, Yanıqpəyə kəndi
66. Nəsib Nəsibov – Qaraqoyunlu, Əmirxeyir kəndi
67. İskəndər Nəsibov – Qaraqoyunlu, Əmirxeyir kəndi
68. Sərvaz Osmanov – Qaraqoyunlu, Çaykənd kəndi
69. Qulu Əhmədov – Qaraqoyunlu, Çaykənd kəndi
70. Mustafa Mahmudov – Qaraqoyunlu, Çaykənd kəndi
71. Islam Qarayev – Qaraqoyunlu, Çaykənd kəndi
72. Səməd Kərimov – Qaraqoyunlu, Çaykənd kəndi
73. Həmid Əliyev – Qaraqoyunlu, Əmirxeyir kəndi
74. Qilas Məmmədova – Qaraqoyunlu, Yanıqpəyə kəndi
75. Səriyyə Həsənova – Qafan rayonu, Yuxarı Gödəkli kəndi
76. Şəmşəd Əliyev – Qaraqoyunlu, Əmirxeyir kəndi
77. Məsmə Məmmədova – Qaraqoyunlu, Çaykənd kəndi
78. Balı Sərdarov – Qaraqoyunlu, Çaykənd kəndi

79. Qurban Həsənov – Qaraqoyunlu, Hakıxlı kəndi
80. Qasım İbrahimov – Qaraqoyunlu, Hakıxlı kəndi
81. Şərif Bayramov – Qaraqoyunlu, Hakıxlı kəndi
82. Salman Həsənov – Qaraqoyunlu, Hakıxlı kəndi
83. Zeynal Məmmədov – Qaraqoyunlu, Hakıxlı kəndi
84. Mehdi Əliyev – Qaraqoyunlu, Əmirxeyir kəndi
85. Binnət Məmmədov – Qaraqoyunlu, Çaykənd kəndi
86. Rəşid Talıbov – Qaraqoyunlu, Çaykənd kəndi
87. Tahir Bayramov – Zəngibasar, Aşağı Necili kəndi
88. İsmayıl Rəhimov – Zəngibasar,Sarcalar kəndi
89. Qasım Məmmədov – Zəngibasar, Rəncbər kəndi
90. Kərim Zeynalov – Zəngibasar, Yuxarı Necili kəndi
91. Məmmədhüseyn Əliyev – Zəngibasar, Yuxarı Necili kəndi
92. Mayıl Ağamalıyev – Dərələyəz, Cabud kəndi
93. Surxay Şahquluyev – Dərələyəz, Cabud kəndi
94. Adil Axundov – Vedibasar
95. Mehdi Bəşirov – Zəngibasar
96. Əbülfət İbrahim –İrəvan
97. Paşa Maninski –İrəvan
98. İmanqulu Kərimov –
99. Əmir Abasquliyev –
100. Əli Qədiməliyev – Zəngibasar
101. Muxbar Bayramov
102. Zəhra Hüseynova
103. Oruc Zeynalov – Əştərək, Hamamlı kəndi
104. Cəfər Paşayev
105. Müseyib Allahverdiyev

106. Zeynal Zeynalov – Əştərək, Hamamlı kəndi
107. İsrafil Şahverdiyev
108. Fərman Həsənov
109. Firudin Nəbiyev
110. Eyvaz İsmayılov
111. Hüseyn Məmmədov
112. Nəcibə Fəhradova
113. Bulud Zeynalov, Əştərək
114. Qurban İsmayılov
115. Cabbar Həsənov
116. Əhəd Rəcəbov
117. Müzəffər Namazov
118. Bəhram Rzayev
119. Hidayət Hacıyev
120. Ələsgər Mustafayev
121. Möhsün Abbasov
122. Möhsün İbrahimov
123. Teymur Haqverdiyev
124. Pərviz Tağızadə
125. Səməd Əliyev, əştərək-Hamamlı kəndi
126. Qasım Əsgərov-Qafan
127. Əhəd Rəcəbov
128. Əbülfət İsmayılov
129. Foqiyə Əsgərova
130. Ələsgər Əbdilov
131. Zibeydə Həsənova
132. Rüstəm Tağıyev
133. Məsim Əkbərov

134. Əbil Rizayev – Qafan rayonu
135. Nadir Talıbov
136. Tamam Yusubova
137. Firudin Quliyev
138. Əyyub Babayev
139. Səfəralı Məhərrəmov
140. Cəlil Əliyev – Vedibasar
141. Nəsir Əliyev – Ağbaba
142. Bəhlul Hüseynov – Ağbaba
143. Məhəmməd Əliyev
144. Tacirə Bağırova – İrəvan
145. İdris Mahmudov
146. Məcid Əliyev-Əştərək
147. Oruc Abbasov
148. Yaqub Bayramov
149. Əhməd Kələşov
150. Lətifə Axundova
151. İsmət Hacıyeva
152. Feyzullah Ramazanov
153. Əyyub Bayramov
154. Qulu Məhərrəmov
155. Nadir Məmmədov
156. Mahmud Məmmədov
157. Musa Mehdiyev
158. Səkinə Məmmədova
159. Səfər Əliyev
160. Səfurə Əliyeva
161. Fəridə Əliyeva

162. İmamverdi Hacıyev-Ardanış kəndi
163. Karlen Heydəro-İrəvan şəhəri
164. Həsən Hüseynov
165. Vəli Həsənov
166. Abbas İsmayılov  Göyçə mahalı
167. Cəfər Elyasov
168. Məmməd Həsənov
169. Musa Elyasov
170. Cəfər Əliyev
171. Rəşid Ramazanov
172. Seyfulla Kərimov
173. Süleyman Məmmədov -Vedibasar
174. Paşa Əliyev – Ağbaba
175. İsgəndər Hacıyev – Göyçə, Kəsəmən kəndi
176. İbad Əliyev – Göyçə, Ağbulaq kəndi
177. Yusif Kazımov – İrəvan
178. Məmməd Əzizov – Zəngibasar, Mehmandar kəndi
179. Tağı Camalov
180. Həsən Həsənov
181. Mirisa Əliyev-Qəmərli
182. Şamil Həsənov – Qəmərli rayonu
183. Musa Bağırov – Vedibasar, Bağçacıq kəndi
184. Siddiqə Məmmədova – Vedibasar, Böyük Vedi kəndi
185. Rza Kərimov – Vedibasar, Böyük Vedi kəndi
186. Əli Kərimov – Vedibasar, Böyük Vedi kəndi
187. İslam Kərimov – Vedibasar, Böyük Vedi kəndi
188. Bəhmən Kərimov – Vedibasar, Böyük Vedi kəndi

189. Rəhman Hüseynov – Vedibasar, Goravan kəndi
190. Yaqub Qasımov – Vedibasar, Xalisa kəndi
191. Əjdər Kazımov – Zəngibasar
192. Cəmaləddin Bəşirov – Vedibasar, Kolanlı kəndi
193. Əli Məmmədov – Vedibasar, Kolanlı kəndi
194. Səməd Məsimov – Vedibasar, Kolanlı kəndi
195. Allahverdi Haqverdiyev – Vedibasar, Körpü kəndi
196. Əmir Quliyev – Vedibasar, Qaraxac kəndi
197. Əli Həsənov
198. Həsən Həsənov
199. Əhəd Əliyev – Vedibasar, Kolanlı kəndi
200. Əziz Əliyev – Vedibasar, Bağçacıq kəndi
201. Əyyub Süleymanov – Vedibasar, Bağçacıq kəndi
202. Ələkbər Əliyev – Vedibasar
203. Ələkbər Ələkbərov – Əştərək, Hamamlı kəndi
204. Oruc Zeynalov – Əştərək, Hamamlı kəndi
205. Novruzəli Mirzəyev – Əştərək, Hamamlı kəndi
206. Əhməd Zeynalov – Əştərək, Hamamlı kəndi
207. Səməd Qarayev – Qafan, Gərd kəndi
208. Həsənalı Həsənov – Qafan, Şəhərcik kəndi
209. Bəhlul Bayramov – Qafan, Şəhərcik kəndi
210. Həbib İsmayılov – Qafan
211. Bəhlul İmaməlıyev – Qafan
212. Paşa Əliyev – Ağbaba, Sultanabad kəndi
213. Dadaş Orucəliyev – Qafan rayonu
214. Əjdər Mərdənov – Əştərək, Hamamlı kəndi

## SON SÖZ:
## TƏHSİLİMİZİN TARİXİ YADDAŞI – İRƏVAN PEDAQOJİ MƏKTƏBİNƏ BİR ABİDƏ

Azərbaycan və azərbaycanlıların təhsil tarixini öyrənmək hər vaxt aktual məsələlərdən biri sayılmışdır. Çünki gələcəyə işıq salan ziyalılarımız məktəblərdən pərvazlanmış, maarif işığı ilə öz xalqının yolunu işıqlandırmışlar. Xüsusilə, Azərbaycandan qıraqda yaşayan azərbaycanlıların təhsil alması, bu işin təşkili üçün müəllim kadrların hazırlanması məsələsi XX əsrin əvvəllərində çox çətin məsələlərdən biri olmuşdur. Bu baxımdan prof. Cəfər Cəfərov və dos. Cəlal Allahverdiyevin birgə hazırlayıb ərsəyə gətirdikləri "Təhsil tariximizdən İrəvan Pedaqoji məktəbi" (2017) adlı kitabı təhsilimizin tarixini öyrənmək baxımından maraq doğurur.

XX əsrin əvvəllərində daha da güclənən maarif intibahı Azərbaycanın şəhər və kəndlərinə, eləcə də ucqarlarına çataraq hamıda təhsil almaq arzusu yaratmış, müəyyən bir elmə yiyələnmək marağını artırmışdır. Lakin müəlliflərin göstərdiyi kimi, məktəb açmağın, əsas problemlərindən biri və ən əsası müəllim kadrların, eləcə də dərslik, dərs vəsaitləri və proqramların olmaması idi. Bu məsələlər əsas etibarı ilə Qərbi Azərbaycanın əsas mədəni- maarif mərkəzində yaşayan İrəvan ziyalılarını və bu elitaya daxil olan maarifçi şəxsiyyətləri daha çox narahat etmiş və kitabın müəllifləri İrəvanda, eləcə də İrəvandan ucqarlar-

da hələ 1830-cu illərdən başlayaraq Azərbaycan dilində məktəblərin açılmasını arxiv sənədləri ilə əsaslandırırlar. Yenitipli məktəblərin açılması elə-belə asan olmamışdır. Əliqulu xan İrəvanski, Pənah xan Makinski, Məhəmməd Şahtaxtinski, Fazil İrəvani, Haşımbəy Nərimanbəyov, Firudin Köçərli, Cəlil Məmmədquluzadə, Bala Əfəndiyev, Cahangir Ələkbərbəyov, Rza Şeyxzadə, Rza Axundov, Rza Vəlibəyov və digər maarifçilərin çox gərgin əməyi nəticəsində ilk məktəblər intişar tapmış, minlərlə qız və oğlan savad almış və bilik əldə etmişlər. Xain ermənilər məktəblərin açılmasına hər vaxt qərəzli münasibət bəsləmiş və azərbaycanlılara qarşı ayrı seçkilik etmişlər. Xüsusilə, onlar İrəvanda, həm də İrəvan ətrafında olan kəndlərdə, eləcə də ucqarlarda yeni-yeni məktəblərin həm keyfiyyətcə, həm də kəmiyyətcə artmasına dözə bilmir, müxtəlif yollarla ona mane olurdular. Yenitipli məktəblərin açlımasına dəstək verən, təhsili, təlim-tərbiyəni təşkil edən, təşkilatlandıran azərbaycanlı ziyalılara "pantürkist", "xalq düşməni", "antisovet ünsürü" kimi böhtan atılır və represiyaya məruz qoyurdular.

Onların arasında Saleh Güllücunski, Mustafa Hüseynov, Abbas Azəri, Mir Abbas Ağa, Abdulla Mirzəyev, Əkbər Rizayev kimi Hüseyn Salmanov, Səttar ağa Kəngərlinski, İbrahim Əliyev, Mirzə Əsgərov və digər ziyalılar var idi.

1930-1937-ci illərdə Mir Hüseyn Mir Bağırov, Jala Qazıyeva, Mir Yusif Mir Babayev, Xədicə Kəngərlinski,

Telman Nəzərli, Nəriman Fəxri, Möhsün Rəcəbov, Sadıx Sadıxov, Mir Sadiq Mir Heydərzadə, Məmməd Mir Bağırov, Səcidə Qayıbova, Ruqiyə Mir Bağırov, Nəsib Əfəndiyev və digərləri erməni-bolşevik repressiyasından xilas olmaq üçün məcburiyyət qarşısında İrəvanı tərk etmişlər. Doğrudan da, göstərilən bu şəxslər İrəvanın elitası, maarif və mədəniyyətin öncülləri idilər. Qərbi Azərbaycan təhsili onların çiyinlərində, dərin zəkaları, uzaqgörənliyi nəticəsində yaranmışdır. Latın qrafikalı əlifbaya keçmək, savadsızlığın aradan qaldırılması məsələlərində də bu ziyalıların böyük rolu olmuşdur.

1948-ci ildən sonra da ermənilər azərbaycanlılara qarşı "köçürmə" adlı repressiya törətmişlər. Qərbi Azərbacan təhsilinin qaynaqları –Mehdi Kazımova, Mirəli Seyidov, Əsgər Əsgərzadə Yusif Kazımov, Bəhlul Yusifov, Bülbül Kazımov, Fəhrad Fəhradov, Həbib Məmmədzadə, Zaman Vəliyev və onlarla maarif fədailəri, o dövrün qabaqcıl ziyalıları, ədəbi-mədəni mühitin aparıcı nümayəndələri deportasiyaya məruz qalmışlar. Bütün bunlar əsil soyqırım idi.

Dəfələrlə, 1905, 1907, 1914, 1918, 1920-ci illərdə erməni terroruna məruz qalmış, müxtəlif bölgələrdə, İrəvanda və kəndlərdə yaşayan azərbaycanlılar pərən-pərən olmuş kəndlər dağılmış, on minlərlə insan soy- qırıma məruz qalmışdır.. Ermənistanda Sovet hökuməti qurulandan sonra qaçqınların bir qismi ev-eşiklərinə qayıtmış, onların ailələrində də təhsil almaq meyli yaranmışdır. Bolşevik cildinə girmiş erməni rəhbərliyi

aşkar olaraq onların bu arzu və istəklərinə qarşı çıxa bilmirdilər. Çünki, o dövrdə İrəvanda, MK aparatında işləyən azərbaycanlılar da çox idi. Onların dəstəyi ilə 1922-ci ildə ilk dəfə Ermənistan Xalq Maarif Komissarlığının nəzdində yaradılmış "Azsaylı xalqlar şöbəsi"nin müdiri, İrəvan gimnazisiyasının məzunu Mehdi Kazımovun təşəbbüsü ilə 1923-cü ilin noyabr ayında İrəvanda müəllim hazırlamaq üçün 2 aylıq pedaqoji kurs təşkil edilir. Kursu bitirənlər ucqar kəndlərə müəllim kimi göndərilirdilər. Bu ehtiyacı nəzərə alaraq, 1923-cü ildə Bakı şəhərinə 16, 1925-ci ildə isə 38 nəfər azərbaycanlı pedaqoji təhsil almağa göndərilir. Bununla iş bitmirdi. Ek (b) p. MK-nın nəzdində fəaliyyət gstərən "Azsaylı xalqlar şöbəsi"nin müdiri Bala Əfəndiyev EXMK-də fəaliyyət göstərən "Azlıqda qalan millətlər" bürosunun rəhbəri Mehdi Kazımov "Zəngi" qəzetinin redaktoru Mustafa Hüseynov və digər qeyrətli ziyalıların erməni şovinist dairələri qarşısında haqlı tələbləri, ciddi səyləri, siyasi-milli iradəsi, milli təəsübkeçliyi nəticəsində 15 oktyabr 1924-ci ildə İrəvan Erməni Texnikumunun binasında heç bir şəraiti olmayan 1 dərs, 2 yataqxana otağı, 30 nəfər tələbədən ibarət İrəvan Türk Pedaqoji Texnikumu fəaliyyətə başlayır. Halbuki o dövrdə İrəvanda hər bir şəraiti və xüsusi binası olan 7 erməni texnikumu fəaliyyət göstərmişdir.

Mehdi Kazımov, Bəhlul Yusifov, Mustafa Musayev müxtəlif vaxtlarda texnikuma rəhbərlik etmişlər. Onlar texnikumun yeni binasını, eləcə də texniki bazasını,

tədris vəsaitlərini və digər avadanlıqları əldə etmək üçün əzab-əziyyət çəkmiş, ancaq məqsədlərinə nail olmuşlar. Onlarda olan milli heysiyyət, təəssübkeşlik , qətiyyət, maarifçilik, ən əsası qeyrət hissi onları ruhlandırmış və gördükləri işdən həzz almışlar.

Kitabda bir daha qeyd edilir ki, Mehdi Kazımov, Bala Əfəndiyev, Mustafa Hüseynov, Əsgər Əsgərzadə, Ələsgər Bayramov, Bəhlul Kazımov, Yusif Məmmədəliyev, Nəzər Paşayev və digərlərinin texnikumun açılmasında, onun təşkilatlanmasında böyük rolları olmuşdur. O ziyalıların pedoqoji fəaliyyəti bizə də bəllidir. Yaşlı müəllimlərdən biz bunu dəfələrlə eşitmişik. Onların hər birinin pedaqoji fəaliyyəti haqqında kitab yazmaq olar. Amma nədənsə, bu sahəyə az fikir verilir. Minlərlə kənd uşaqlarını cilalayan, onu müəllim edən belə insanları unutmaq olmaz. Müəlliflərin gərgin əməyi nəticəsində texnikuma qəbul olunanların və məzunların sayı barədə yetərincə məlumat vermişlər. Bu statistik məlumatları toplamağın özü belə çətindir. Çünki texnikumun arxivi yoxdur. İrəvan Azərbaycan Pedaqoji Texnikumunun İrəvan dövrünün arxivi olmadığı üçün müəlliflər xeyli əziyyət çəkərək 1924-cü ildə İrəvanda Mərkəzi Komitənin orqanı kimi Azərbaycan dilində nəşrə başlayan “Zəngi”, 1929-cu ildən “Qızıl Şəfəq”, 1939-cu ildən 1989-cu ilədək fəaliyyət göstərən “Sovet Ermənistanı” adlı qəzetlərdən, qəzetlərdə texnikuma aid çap olunan elan, qəbul imtahanları, yubiley yazıları və digər statistik-hesabatlardan faydalanmışlar. Kitabın müəlliflərindən biri

olan prof. C.Cəfərov da həmin texnikumu 1948-ci ildə bitirmiş məzunlarındandır. Müəlliflər qeyd edir ki, İrəvan Azərbaycan Pedaqoji Texnikumuna 1925-ci ildə 32, 1926-cı ildə-32, 1927-ci ildə 32, 1928-ci ildə 28, 1929-cu ildə 32, 1930-cu ildə 30, 1931-ci ildə 21, 1932-ci ildə 60, 1935-ci ildə 120, 1936-cı ildə 175, 1941-ci ildə 262, 1947-ci ildə 62 nəfər tələbə qəbul olunmuşdur. Bununla belə qeyd edilir ki, 1947-ci ilə qədər texnikumu 1370 nəfər pedaqoji təhsilli gənc bitirmişdir. Onların arasında 100-dən çox qız olmuşdur. Texnikumun nəzdində 6 aylıq və 1 illik hazırlıq kursları da fəaliyyət göstərmişdir. Texnikumda oxuyanların coğrafiyası çox geniş olmuşdur. Belə ki, Lori-Pəmbək, Ağbaba, Dərəçiçək, Gümrü, Zəngəzur, Megri, Basarkeçər, Dilcan, Vedi, İrəvan və İrəvan ətrafındakı kəndlərdən yüzlərlə uşaq burada təhsil almışlar. 1935-1936-cı dərs ilində burada 11 qrupda 377 nəfər tələbənin təhsil aldığını müəlliflər qeyd edir.

Kitabda 1940-cı ildə İrəvan Azərbaycanlı Pedaqoji Texnikumun 15 illiyinin çox təntənəli şəkildə qeyd olunması göstərilir. Texnikum rəhbərliyinin tələbi və pedaqoj təhsil almaq istəyənlərin çoxluğunu nəzərə alaraq 1934-cü ildə təhsil ocağına 4 mərtəbəli yeni bina verilmiş, 2 və 3-cü mərtəbələrdəki 18 sinif otağında dərslər aparılmış, 4-cü mərtəbədə isə 75 nəfərlik yataqxana yerləşirdi. Kitabxana, yeməkxana və kino zalı da var idi.

Müəlliflər qeyd edirlər ki, 1922-1923-cü illərdə Qərbi Azərbaycanda 36, 1924-cü ildə 62, 1930-cu ildə 112, 1931-ci ildə 245 məktəb fəaliyyət göstərmişdir.

Bu məktəblərin artması nəticəsində pedaqoji işçilərə də ehtiyac duyulurdu. Ona görə də, orta ixtisas təhsilli müəllim hazırlığı gündəmdə dururdu.

İrəvan Pedaqoji Texnikumu təkcə tədris müəssisəsi kimi deyil, eyni zamanda İrəvanda Azərbaycan ədəbiyyat, mədəniyyəti və incəsənətinin inkişafı və formalaşmasında böyük rolu olmuşdur. Texnikumun əməkdaşları İrəvanda 20-ci illərdə Azərbycan dilində dərc olunan "Zəngi" qəzeti vasitəsilə yeni türk əlifbasının təbliği və tətbiqi işində böyük fəallıq göstərmiş, savadsızlığın aradan qaldırlması üçün bütün imkanlardan istifadə etmişlər. Bir çox yaradıcı ziyalılar və jurnalistlər burada formalaşaraq həyata atılmışlar.

Lakin 1930-cu illərdə "bəy", "xan", "qolçomaq", dindar, millətçi adı ilə onlarla tələbə pedaqoji məktəbdən xaric edilmiş, bir çox müəllim və işçilər repressiya olunmuşlar.

Əsərdə göstərilir ki, Azərbaycan elminə və maarifinə xidmət göstərmiş akademik B.Budaqov, AMEA-nın müxbir üzvü prof. Z.Budaqova, prof. C.Cəfərov, prof. Ə.Fərəcov, prof. Yusif Yusifov, prof.Süleyman Məmmədov, Fərhad Fərhadov, prof. Kövsər Tarıverdiyev, prof. Nəzər Paşayev, prof. Qurban Bayramov, dos. Qasım Mustafayev, dos. N.Yusifov, dos. Sabir Səfərov, dos. Zərifə Əliyeva, dos. Nəcəf Nəcəfov və adını unutduğumuz yüzlərlə alimlər bu məktəbdə təhsil almış, elm aləminə buradan pərvazlanmışlar. 1918-20-ci illərdə İrəvan şəhərində ermənilər tərəfindən dağıdılmış İrəvan

ədəbi mühiti məhz bu texnikum vasitəsilə bərpa olunmuş, yaradıcı ziyalıları bir yerə yığılmışlar.

Texnikumda mədəni kütləvi tədbirlərə geniş yer verilirdi. Belə ki, M.S. Ordubadi, Ə.Nəzmi, Mir Cəlal, Y.Çəmənzəminli, M.Rəfili, S.Rüstəm, S.Vurğun kimi yazıçı və şairlərlə yaddaqalan görüşlər keçirməklə pedaqoji məktəbin rəhbərliyi gələcək müəllimlərə mənəvi dəsdək olurdu. Tələbələrdə bədii təfəkkürün inkişafına, elmi-pedaqoji fəaliyyətə maraq yaradırdılar.

Müəlliflər yazır: «1927-ci ildə Ermənistan Proletar Yazıçılar cəmiyyətinin nəzdində Azərbaycan bölməsi fəaliyyət göstərmişdir. Pedaqoji Texnikumda oxuyan və işləyənlərin arasında cəmiyyətin poetik biçimli şeirlər, kiçik hekayələr yazan üzvləri vardır. Texnikumda müxtəlif istiqamətlərdə dərnəklər (tar, rəqs, alman dili, rus dili, teatr, xor, musiqi, rəssamlıq və s.) fəaliyyət göstərmişdir. Tələbələrin iştirakı ilə teatr tamaşaları hazırlanıb tamaşaya qoyulurdu».

Yadımdadır, Pedaqoji Texnikumun o zamankı məzunlarından olan Nəcəf Nəcəfov təyinatla Amasiya rayonunun Təpəköy kəndinin 8 illik məktəbinə müəllim göndərilmişdir. Bu sətirlərin müəllifinə də Azərbaycan dili və ədəbiyyatı fənnini o, tədris etmiş, bizi də bu sahəyə maraqlandırmışdır. Həmin məzunlardan mənim müəllimlərim olmuş Təpəköy kənd orta məktəbində çalışan Paşa Əliyev, İskəndər İsmayılov, Mustafa İbrahimov, Yolçu Aslanovla uzun müddət bir yerdə çiyin-çiyinə çalışmışam. Doğrudan da, onların əsil pedaqoq

olduqlarını, xüsusilə gözəl xətlə yazmalarının şahidi olmuşam. Onlar da 1988-ci ildə qaçqın kimi Azərbaycana pənah gətirmiş, bir müddət müəllim işləmişlər. Bir neçə ildir ki, dünyaların dəyişmişlər. Allah onlara rəhmət eləsin!

Amasiya rayonun Düzkənd orta məktəbində də pedoqoji məktəbin daha çox məzunları vardı: Abuzər Ələsgərov, Hacıbəy Abbasov, Allahqulu Əliyev, Telman Ramazanov, Nuru Şabanov, Musa Əşrəfov bu məktəbin məzunları olaraq tanınmış müəllimlər idi. Sonralar onlar müxtəlif ixtisaslar üzrə ali təhsil almışlar. Allahqulu müəllim uzun müddət kənd sovetinin sədri, Abuzər və Telman müəllim məktəb direktoru işləmişlər.

Əslən İrəvan şəhərindən olan, uzun müddət Güllübulaq kəndində müəllim işləyən, əməkdar müəllim Şəfiqə Afşarova, Oxcoğlu kəndindən Paşa Əliyev, Daşkörpü kəndindən Kamal Ələkbərov da pedaqoji məktəbin məzunları olmuşlar. Kamal müəllim Amasiya Rayon Təhsil şöbəsində metod kabinetin müdiri işləyirdi.

Amasiya rayonun bütün kəndlərində maarif və mədəniyyəti yayan İrəvan Pedaqoji məktəbinin məzunları olmuşlar.

Qərbi Azərbaycanda yüzlərlə elm adamını, minlərlə maarif fədaisi yetişdirən – İrəvan Pedaqoji Texnikumu ermənilərin mənfur siyasəti nəticəsində 1949-cu ildə Azərbaycanın Xanlar (Göygöl) rayonuna köçürülmüş, daha doğrusu, pedaqoji məktəbin müəllim və tələbələri

deportasiya olunmuşlar. Lakin burada da məktəbin tələbə və müəllim kollektivi erməni birinci katibin iradlarına rast gəlmiş, müasir universitetə bərabər olan bir pedaqoji məktəb bağlanmışdır. Orada dərs deyən müəllimlər yenidən pərən-pərən olmuşlar. Keçmiş Xanlar rayonunun şovinist birinci katibinin bilərəkdən, qərəzli münasibəti nəticəsində gənc müəllimlərə milli-mənəvi dəyərlər aşılayan, arabir də erməni xislətinə dözməyən və onlara qarşı mübarizə aparan bu maarif ocağımız söndürüldü. Texnikumun İrəvan mərhələsinin arxivi də belə Azərbaycana gətirilmədi. Çox heyf!

Ümumiyyətlə, nəinki İrəvan eləcə də, azərbaycanlılar yaşamış digər rayonların kəndlərində ədəbi-mədəni, ictimai-siyasi, mədəni-maarif mühitinin formalaşmasında İrəvan Azərbaycan Pedaqoji Məktəbinin məzunlarının böyük rolu olmuşdur. Müəlliflər də sağ olsunlar ki, belə bir faydalı iş görmüş, bu kitabı yazmışlar. Yaxşı olar ki, hələ gec deyil, məzun informatorlarla əlaqə saxlyıb məzunların siyahısını tərtib edib kitabın gələcəkdə daha geniş çapını hazırlasınlar. Bu kitab tək bir Pedaqoji Texnikumun tarixini yox, həm də pedaqoji fikrimizin, pedaqoji düşüncəmizin tarixini öyrənmək üçün faydalı bir əsərdir. Çünki əksər elmi-pedaqoji kitab və dərsliklərdə böyük ziyalılar yetişdirmiş bu təhsil ocağının – İrəvan Pedaqoji Texnikumu barədə məlumatlara rast gəlmirik. Gələcək nəsillər də bilməlidir ki, müəllim kadrlar yetişdirən belə bir texnikum olmuş, o da erməni-daşnaq

siyasəti nəticəsində müəllim və tələbələri ilə birlikdə deportasiyaya məruz qalmışlar.

Müəlliflərə yeni-yeni uğurlar arzulayıram.

**Aslan Bayramov,**
**professor**

# ƏDƏBİYYAT


1. Ə.Abdullayev. Qiyabi təhsilin yüksək keyfiyyəti uğrunda. “Qızıl şəfəq” qəzeti 1036, № 74.
2. Allahverdiyev Cəlal. Irəvan ədəbi mühiti. Bakı, “Elm” 2010.
3. Allahverdiyev Cəlal. Irəvan Pedaqoji Məktəbi. (Vedibasar) qəzeti, 16-31 yanvar 2014.
4. Ə.Bayramov, C.Sərdarov «Pedaqoji məktəbdə». “Sovet Ermənistanı” qəzeti, 1946, № 70.
5. Budaqov Budaq, Çobankərə eli. Bakı, Elm 1996.
6. Ələkbərli Əziz. Qərbi Azərbaycan I c, Vedibasar mahalı, Bakı “Ağrıdağ” 2000.
7. Ələkbərli Əziz. Qərbi Azərbaycan II c, Zəngibasar, Gərnibasar və Qırxbulaq mahalları, Bakı “Ağrıdağ” 2002.
8. Hacıyev Aydın. Fəhləlikdən alimliyə gedən yol. “Azərbaycan müəllimi” qəzeti, 25 mart 1997.
9. Ə.Heydərov, Bizim məktəbimiz “Sovet Ermənistanı” qəzeti 1941, № 273.
10. Xəlilzadə Flora. “Ötən günlər”, “Azərbaycan müəllimi” qəzeti, 25 aprel 1980.
11. İbrahimov Nurəddin, Medallar, Nərdivanlar. “Sovet Ermənistanı” qəzeti, 1980, № 82.
12. Xəlilov Buludxan, Birinci Beynəlxalq Türkoloji qurultay. Bakı, “Elm” 1999.
13. İbrahim və Lentroş, İkinci buraxılış münasibəti ilə. “Qızıl şəfəq” qəzeti 1930, №58.

14. İrəvan Türk Pedaqoji Texnikumuna qəbul şərtləri. “Zəngi” qəzeti, sentyabr 1926.
15. İrəvan Türk Pedaqoji Texnikumunun gedişatı. “Zəngi” qəzeti, 12 fevral 1926.
16. Mərdanov Misir, Azərbaycanın təhsil tarixi. I, II, III cild. Bakı, Təhsil, 2011
17. Kazımov Mehdi; Savad məntəqələri. “Zəngi” qəzeti, 31 mart 1926.
18. Məhərrəmov Ziyəddin. Xatirələrdə yaşayan Əli müəllim 80. “Günəş” nəşriyyatı, Bakı 2006.
19. Maarif sahəsində “Zəngi” qəzeti, 31 mart, 1928.
20. Müəllim və məktəb işlərimiz. “Zəngi” qəzeti, 7 oktyabr 1928.
21. Mustafa Nazim. İrəvan şəhəri (türk dilində). Ankara, 2015, 269 səh.
22. Nağıyev Ə. İrəvan Türk Pedaqoji Texnikumunda. “Qızıl şəfəq” qəzeti 1935, № 89.
23. On illik yubiley. “Qızıl şəfəq” qəzeti, 1935, № 28.
24. M.Sadıqov “Qan yaddaşı” Bakı, Yazıçı 1981.
25. C.Şərifov. Bayramın mübarək. “Sovet Ermənistanı” qəzeti; 30 sentyabr 1966.
26. Tərsəcaylı Q. Ermənistanda Türk Maarifi, “Zəngi” qəzeti, 21 dekabr 1926.
27. Yusif Bəhlul. 15 illik yubiley. “Sovet Ermənistan” qəzeti, 7 dekabr 1940.
28. Zeynalov Əsgər. İrəvan Xanlığı...Gerçəkliyin aydınlığı. Bakı, mütərcim, 2016

# MÜNDƏRİCAT

Ön söz (B.Xəlilov)........................................................3
İrəvan Pedaqoji Məktəbi............................................12
Pedaqoji Məktəbin görkəmli məzunlarından bir qismi..78
Məzun sözü: Böyük Təhsil məbədi – İrəvan Pedaqoji məktəbi..................................................210
İrəvan Pedaqoji məktəbini bitirmiş məzunların siyahısı (siyahi tam deyil).....................................................215
Təhsilimizin tarixi yaddaşı – İrəvan Pedaqoji məktəbinə bir abidə..............................................................................223
Ədəbiyyat............................................................................234

Yığılmağa verilmiş: 01.05.2017
Çapa imzalanmışdır: 08.06.2017
Şərti çap vərəqi:15
Format: 60X84 1/16
Tirajı:300

Kitab “ORXAN” Nəşriyyat və
Poliqrafiya müəssisəsinin
mətbəəsində hazır diopozitivlərdən
istifadə olunmaqla ofset üsulu ilə çap
edilmişdir.

Ünvan: Bakı şəhəri,
Dərnəgül qəsəbəsi, 3105-ci məhəllə
Direktor: Cəfər Bağırov
Tel: 562-83-03